بسم الله الرحمن الرحيم

# HÖKMLƏRİN XÜLASƏSİ

*AYƏTULLAH SEYYİD YUSİF MƏDƏNİ TƏBRİZİ*

1

نام کتاب:....................................................خلاصه احکام
تألیف:.......................................آیة الله یوسف مدنی تبریزی
مترجم:.....................................................محمد شهبازاف
ناشر:.........................................................(.............)
تاریخ چاپ:.........................................................۱۳۸۷
نوبت چاپ:.............................................................اول
تیراژ:................................................................۵۰۰۰

Kitabın adı:...............................Hökmlərin xülasəsi
Müəllif:................Ayətullah Seyyid Mədəni Təbrizi
Tərcümə edən:.......................Şahbazov Məhəmməd
Redaktə edən:...................................Mail Yaqubov
Çap növbəsi:................................................Birinci
Çap tarixi:.......................................................2008
Tiraj:...............................................................5000
İSBN:....................................(...............................)

# BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM

## Ön söz

Bir müddət öncə möminlərdən bir dəstəsi məndən "şəriət hökmlərinin xülasəsi" adlı bir kitab yazaraq onların ixtiyarına verməyimi istəmişdilər. Bundan məqsədləri şəriət hökmlərini asanlıqla əldə etmələri idi. Bunu nəzərə alıb, qarşınızdakı kitabı əziz oxuculara təqdim edirəm və bütün mömin insanlardan müxtəlif müqəddəs məkanlarda məni dua etmələrini xahiş edirəm. Vəlhəmdu lillahi əvvələn və axirən və zahirən və batinən.

Dinin beş əsası vardır.

**1. Tövhid:** Tövhid kainatın bütün mövcudatını yoxdan var edən Allahın təkliyinə inanmaq və əqidə bəsləməkdir.

**2. Ədl:** Ədl, pak və ədalətli Allahın bütün işlərinin bəndələrinə məsləhətinə uyğun olmasına inanmaqdır.

**3. Nübüvvət:** Nübüvvət, sonsuz elmə malik olan Allahın öz bəndələrini hidayət etmək üçün peyğəmbərlər göndərməsinə etiqad bəsləməkdir. Bu peyğəmbərlərin birincisi Həzrət Adəm, sonuncusu isə Həzrət Mühəmməddir. Biz habelə Həzrət Mühəmmədin gətirdiyi dinin qiyamət gününə qədər davam edəcəyinə inanmalıyıq. Məşhur rəyəyətə görə peyğəmbərlərin sayı 124 min nəfərdir. Allahın peyğəmbəri bir neçə xüsusiyyətə malik olmalıdır:

Birinci: Peyğəmbərin möcüzəsi olmalıdır. Yəni Peyğəmbər adi insanların qüdrətindən və imkanından xaric olan fövqəltəbii işlərə qadir olmalıdır. Misal üçün Musa Peyğəmbərin əlində əsa əjdahaya çevrilirdi, anadangəlmə kor, İsa Peyğəmbərin

vasitəsilə şəfa tapırdı, və yaxud, Həzrət Mühəmməd Allahın izni ilə heyvanları dilə gətirirdi və sair.

Möcüzə Peyğəmbərin adi insanlardan seçilməsi və onların uca Allahın tərəfindən göndərilməsini bildirmək üçün zəruri vasitədir. Qur`an isə islam Peyğəmbəri Həzrət Mühəmmədin haqq peyğəmbər olmasını sübut etmək üçün kifayət edəcək möcüzədir.

İkinci: Peyğəmbər məsum olmalıdır. Yəni peyğəmbər böyük və kiçik günahlardan çəkinməli və qorunmalıdır ki, insanlar ona etimad etsinlər və ona inansınlar.

Üçüncü: Peyğəmbərin ata-babalarından bir nəfər də belə zinakar və pis insan olmamalı, onların hamısı pak ailələrin nəslindən olmalıdırlar. Bu ona görə zəruridir ki, peyğəmbərlər xalqın gözündə nifrətə tuş gəlməsinlər, insanlar onlara inanaraq, onların göstərişlərin qəbul etsinlər.

Dördüncü: Peyğəmbərlər həm cismi xəstəliklərdən, həm də əxlaqi çatışmamazlıqlardan pak və təmiz olmalıdırlar. Çünki peyğəmbərlərdə cismi və ya əxlaqi çatışmamazlıq olsa, xalq ona nifrət edər və onun ətrafına toplaşmazlar.

Qur`an Həzrət Mühəmməd barədə buyurur:

**«...Əgər qaba və daşürəkli olsaydın, onlar mütləq sənin ətrafından dağılışardılar.»**[1]

Beşinci: Peyğəmbər adi insanlardan daha elmli olmalıdır.

**4. İmamət:** Hər bir Peyğəmbər dünyadan köçməzdən öncə özündən sonra onun gətirdiyi dini qoruması və təhrif edilməməsi üçün, bir canişin təyin etməlidir. İmamət məqamı Nübuvvət məqamına tabe olduğu üçün peyğəmbər Allah tərəfindən təyin olduğu kimi İmam da peyğəmbərin sözü ilə

[1] "Ali-İmran", 159

Allah tərəfindən seçilməli və təyin edilməlidir. Deməli təkcə xalqın rəyi ilə İmam təyin oluna bilməz. Peyğəmbər üçün sadaladığımız şətlərin hamısı İmamda da olmalıdır. Həzrət Mühəmməd vəfatından öncə öz ailəsinə mənsub olan on iki nəfərin adını qeyd etməklə, onları özündən sonra öz canişini təyin etdi.

Həmin on iki nəfərin on biri dünyadan köçmüş, sonuncusu isə hələ diridir. Allahın əmr etdiyi vaxt, o həzrət zühur edəcək və bütün dünyanı ədalətlə dolduracaqdır. On iki İmamın mübarək adları, aşağıdakılardır.

1. Həzrət Əli ibn Əbu Talib (ə).
2. Həzrət Həsən ibn Əli (ə).
3. Həztər Hüseyn ibn Əli (ə).
4. Həzrət Əli ibn Hüseyn (Səccad (ə)).
5. Həzrət Məhəmməd ibn Əli (Baqir (ə)).
6. Həzrət Cəfər ibn Məhəmməd (Sadiq (ə)).
7. Həzrət Musa ibn Cəfər (Kazim (ə)).
8. Həzrət Əli ibn Musa (Rza (ə)).
9. Həzrət Məhəmməd ibn Əli (Təqi (ə)).
10. Həzrət Əli ibn Məhəmməd (Nəqi (ə)).
11. Həzrət Həsən ibn Əli (Əskəri (ə)).
12. Həzrət İmam Zaman (Höccət ibn əl-Həsən (ə)).

**5. Məad:** Allah-Təala qiyamət adlanan gündə bütün ölüləri dirildəcək və onları yaxşı əməllərinə görə mükafatlandıracaq və pis əməllərinə görə cəzalandıracaq. Yaxşılar behiştə, pislər isə cəhənnəmə göndəriləcək.

# İzah

Dünyada bir dəstənin zülmkar, digərlərinin isə zülmə məruz qalmasının şahidi oluruq. Bəziləri ibadət edir,digərləri isə Allaha təslim olmurlar, əgər bir gün bütün bu insanlar öz yaxşı və pis əməllərinin əvəzini almasalar yaranış əbəs və mənasız olacaqdır. Allah-Təala Qurani Kərimdə buyurur:

Elə güman edirsiniz ki, biz sizi əbəs yerə yaratmışıq və siz bizə tərəf qaytarılmayacaqsınızmı?

Dinin əsas əqidələrini hər bir insan dəlil və sübutla bilməli və onlara etiqad etmək başqalarına dəlilsiz təqlid etməklə olmamalıdır. Çünki başqa insanların əqidələri müxtəlif və rəngarəngdir və onları bir araya toplamaq mümkün deyil.

İnsan özünün əsas dini əqidələrin sübutsuz şəkildə xalqdan alarsa, bir gün xalq həmin əqidələri onun əlindən alacaqdır. Hədisdə oxuyuruq:

**«Əgər insan öz dini əqidələrini Qurandan, mötəbər hədislərdən və əqli dəlillərdən alarsa, dünyanın dağları yerindən qopsa da həmin şəxsin əqidəsinə heç bir zərər dəyməz.»**

İslam dininin ən əsas şəriət hökmləri aşağıdakılardır:

1. Hamaz. 2. Oruc. 3. Xums. 4. Zəkat. 5. Cihad. 6. Həcc. 7. Yaxşıya dəvət. 8. Pisdən çəkindirmək. 9. Allahın dostu ilə dost olmaq. 10. Allahın düşməni ilə düşmən olmaq.

# TƏQLİDİN HÖKMLƏRİ

**Məsələ:** İnsan dinin zəruri olmayan hökmlərində ya müctəhid olub hökmləri dəlillərdən (Qur`an, hədis və əql) çıxarmalı, ya bir müctəhidə təqlid etməlidir. Yə`ni müctəhidin dediyinə uyğun əməl etməlidir. Ya da öz təklifini yerinə yetirərkən yəqin edəcək bir şəkildə, ehtiyat yolu ilə əməl etməlidir. Əlbəttə din elmlərində kifayət qədər məlumatlı şəxslər ehtyata əməl edə bilərlər.

**Məsələ:** Hökmlərdə təqlid Müctəhidin göstərişlərinə əməl etməkdir. Təqlid etdiyi müctəhid ə`ləm olmalıdır. Yə`ni Allahın hökmlərini zəmanənin müctəhidlərinin hamısından qaydaları tətbiq edərək istinbat etməkdə bacarıqlı olmalıdır.

**Məsələ:** Müctəhidə lazım olan şərtlər:

Həddi bluğa yetmiş olmalı.

Adil olmalı.

Ağıllı olmalı.

On iki imam şiəsi olmalı.

Halalzadə olmalı.

Diri olmalı.

Kişi olmalı.

**Məsələ:** Müctəhid və ə`ləmi bir neçə yolla tanımaq mümkündür

1. İnsanın özü yəqin etsin; məsələn, insanın özü elm əhli olub müctəhid və ə`ləmi ayırd edə bilsin.

2. Müctəhid və ə`ləmi tanıya bilən iki adil alimin, bir şəxsin müctəhid və ya ə`ləm olduğunu təsdiq etmələri ilə.

3. Müctəhid və ə`ləmi tanımağa qadir olan və sözlərindən xatircəmlik hasil olan bir dəstə elm əhlinin bir şəxsin müctəhid və ya ə`ləm olduğunu təsdiq etmələri ilə.

# MÜTƏHHİRAT

## Pakedicilər

On iki şey murdarı pak edir:

**1. Su**

Əgər murdarlanmış bir şeyi az su ilə yusalar, murdarın özünün təmizlənməsindən ötürü, bir dəfə o şey yuyulmalıdır. Və onun ğüsaləsini (ğüsalə, yuyulan bir şeydən, yuyulduğu zaman və ya ondan sonra, sıxılmaq nəticəsində və ya öz-özünə normal olaraq ayrılan suya deyilir) ayırdıqdan sonra, libas və onun kimi əşyanı bir dəfə yenidən yuyub və sıxmaq lazımdır. Lakin kürr və axar suda nəcisin özü hətta birinci dəfədə təmizlənərsə kifayət edər.

**2. Yer**

Yer, üç şərtlə ayağın və yol getməklə murdarlanmış ayaqqabının altını pak edər:

Yer pak olmalı.

Quru olmalı.

Əgər murdarın özü və ya palçıq kimi murdarlanmış bir şey ayağın və ayaqqabının altında olarsa, yol yeriməklə və ya ayağı yerə sürtməklə aradan götürülür.

**3. Günəş**

Günəş yerə, binaya, qapıya, pəncərəyə və yerdən sayılıb daşınmayan əşyalara və həmçinin ağaclar və bitkilərə saçaraq onları qurudarsa həmin bu əşyalar pak olur. Əlbəttə murdarın özünün onlarda qalmaması şərtilə.

**4. İstihalə**

Bir haldan başqa bir hala dönmə. Əgər murdar bir şeyin cinsi dəyişərək pak bir şeyin şəklini alarsa, pak olur. Məsələn, nəcis bir ağac yanıb kül olarsa.

**5. İnqilab**

Əgər şərab, öz-özünə və ya içinə sirkə və duz kimi şeyin qatılması ilə dəyişib sirkə olarsa pakdır.

**Məsələ:** Üzüm suyu, odda o qədər qaynayıb iki hissəsi azalıb və bir hissəsi qalsa pakdır. Amma öz-özündən qaynayarsa yalnız sirkə olmaqla pak olur.

**Məsələ:** Əgər odda qaynamaqda olan bir şeyin içərsinə bir üzüm dənəsi düşüb qaynasa vacib ehtiyat olaraq ondan qorunmalı, onun yeyilməsi isə haramdır.

**6. İntiqal**

Əgər insanın və ya sıçrayan qanı olan hər bir heyvanın qanı, sıçrayan qanı olmayan bir heyvanın bədəninə keçə məsələn, əgər ağcaqanad insanın bədəninin qanını çəkə, çəkdiyi qan ağcaqanadın bədəninin qanından sayıldıqdan sonra pakdır. Digər murdarlarda da hökm belədir.

**7. İslam**

Əgər kafir, kəlmeyi-şəhadəti deyərsə, yə`ni Allahın birliyinə və Xatəmül-Ənbiyanın (s) nübüvvətinə şəhadət verərsə müsəlman olar. Müsəlman olduqdan sonra, onun bədəni, ağzının və burnunun suyu, təri və digər yaşlıqları pakdır.

**Məsələ:** Əgər bir kafir kəlmeyi-şəhadəti deyərsə və insan onun qəlbən müsəlman olub-olmadığını bilməzsə pakdır.

**Məsələ:** Kafir olduğu zamanda onun bədəninin tərinə dəyən libas və digər əşyalar murdardır. Müsəlman olduqdan sonra da pak olmaz.

**8. Təbəiyyət**

Murdar bir şeyin, başqa bir şeyin paklığı vasitəsi ilə pak olmasına təbəiyyət deyilir.

**Məsələ:** Şərab sirkə olursa, şərabın qabı da qaynadığı halda yetişdiyi yerə qədər pak olur.

**Məsələ:** Əgər kafir uşağın atası, anası, babası və nənəsi müsəlman olarsa, uşaq da pak olar.

**Məsələ:** Üzərində meyyit yuyulan taxta, daş və meyyiti qüsl edənin əli, meyyitin qüslü sona çatdıqdan sonra onların hamısı pak olur.

**9. Murdarın özünün aradan getməsi**

**Məsələ:** Əgər bir heyvanın bədəni qan kimi murdarın özü və ya murdarlanmış su kimi şeylərə bulaşarsa, onlar aradan getdikdən sonra, o heyvanın bədəni pak olur. Ağız, burun və qulağın içi kimi insanın bədəninin batini də eyni hökmdədir.

**10. Nəcasət yeyən heyvanın istibrası**

İnsanın nəcasətini yeməyə adət etmiş bir heyvanın bövl, ğaiti və əti nəcisdir. Onun pak olunması üçün istibra edilməsi lazımdır. Yə`ni bir müddət onun nəcasət yeməsindən saxlanılmalı və ona pak yemək verilməlidir. Ehtiyat vacibə görə nəcis yeyən dəvəni qırx gün, inəyi iyirmi gün, qoyunu on gün, ördəyi yeddi və ya beş gün, toyuğu üç gün nəcasət yeməkdən saxlamaq lazımdır ki, onların əti, bövl və ğaitləri pak olsun.

**11. Müsəlmanın bir müddət müəyyən bir məkanda olmaması**

Əgər bir müsəlmanın bədəni, libası və ya xalça və qab kimi onun istifadəsində olan bir şey murdarlansa və o müsəlman bir müddət həmin məkanda olmasa, altı şərtlə onlar pak olur.

1. Onun murdarlanmasını bilə.

2. Onun bədən və ya libası murdar bir şeyə dəyə.

3. İnsan o şeyi paklığın şərt olduğu bir işdə istifadə etdiyini görməlidir.

4. O müsəlnaının da, o şeyi istifadə etdiyi işdə paklığın şərt olduğunu bildiyini ehtimal verməlidir.

5. O müsəlmanın murdarlanan bir şeyin suya çəkməyinin ehtimalını versin.

6. O müsəlman həddi buluğa çatmış olsun və bir şeyin murdar və pak olmasını ayıra bilsin.

**12. Normal miqdarda qan axması**

**Məsələ:** Şəriətdə bildirilən üsullara görə kəsilən heyvanın qanı normal bir miqdarda axdıqdan sonra, bədənində qalan qan pakdır. Göstərilən hökm, əti halal olan heyvana məxsusdur və əti haram olan heyvana isə ehtiyat vacibə əsasən aid deyil.

## Murdar şeylər

Murdar şey on dənədir:

1. Bövl (sidik), 2. Ğait (nəcis), 3. Məni, 4. Murdar, 5. Qan, 6-7. İt və donuz, 8. Kafir, 9. Şərab, 10. Pivə.

**Bövl və ğait**

**Məsələ:** İnsanın və damarı kəsildikdə qanı sıçrayan əti yeyilməsi haram olan hər bir heyvanın bövl və ğaiti murdardır. Amma bə`zi balıqlar kimi əti haram olub qanı sıçramayan heyvanların bövl və ğaitindən ehtiyat vacibə görə qorunmaq lazımdır. Lakin milçək və ağcaqanad kimi əti olmayan kiçik heyvanların ğaiti pakdır.

**Məni**

**Məsələ:** İnsanın və sıçrayan qanı oaln hər heyvanın mənisi murdardır.

**Murdar**

**Məsələ:** İnsanın olüsü və istər özü ölmüş olsun, istər şər`i üsullara görə kəsilməmiş olsun, sıçrayan qanı olan murdar heyvanın ölüsü nəcisdir.

**Məsələ:** Murdar heyvanın yun, kürk, dırnağ, buynuz, sümük və diş kimi ruhu olmayan hissələri pakdır.

**Məsələ:** Ölən heyvanın qarnından çıxarılan yumurta, əgər onun üzünün qabığı möhkəmdirsə pakdır. Amma onun çöl hissəsi suya çəkilsin.

**Qan**

**Məsələ:** İnsan və sıçrayan qanı olan heyvanın qanı nəcisdir. Buna görə, balığ və ağcaqanad kimi sıçrayan qana sahib olmayan heyvanların qanı pakdır.

**Məsələ:** Ehtiyat vacibə əsasən icərisində qan zərrəsi tapılan toyuq yumurtasından çəkinmək lazımdır.

**Məsələ:** Bə`zən süd sağılarkən görülən qan nəcisdir və südü də nəcis edər.

**Məsələ:** Yemək qaynadığı zaman içərisinə bir zərrə qan düşərsə, yeməyin hamısı və qabı nəcis olur. Qaynamaq, istilik və atəş pakedici deyildir.

**İt və donuz**

**Məsələ:** Quruda yaşayan it və donuz və hətta onların tükü, sümüyü, pəncəsi, dırnağı və rütubəti nəcisdir. Amma dəniz iti və donuzu pakdır.

**Kafir**

**Məsələ:** Kafir, Allaha inanmayan və ya ona şərik qoşan həmçinin xatəm-ən-nəbiyyin Həzrət Mühəmmədin (s) nübüvvətini qəbul etməyənə deyilir. Həmçinin hər bir müsəlman əgər dinin zəruri hökmlərindən (namaz və oruc kimi) birini dinin zəruri hökmü olduğunu bilərək inkar edərsə kafirdir. Kitab əhlindən yəni yəhudi və xiristianlardan qorunması gərəkdir.

**Şərab**

**Məsələ:** Şərab, və yaxud şərab adıyla digər bir şey əgər axıcı və məst edici oalrsa murdardır. Amma əgər tiryək və nə`şə kimi özlüyündə maye olmasa lakin, içinə bir şey qatılıb axıcı hala gətirilsə belə, pakdır.

**Məsələ:** Qapı, pəncərə, stol və stulu boyamaq üçün işlədilən spirt, əgər insan onun axıcı və məst edici bir şeydən düzəlməsini bilməsə murdar deyildir.

**Pivə**

**Məsələ:** Arpadan çəkilən pivə nəcisdir. Amma pivədən başqa, həkimin göstərişi ilə arpadan çəkilmiş və ma`uş- şəir deyilən su pakdır.

## Murdarlığı sübut etməyin yolları

**Məsələ:** Hər şeyin murdarlığını üç yolla sübut etmək olar:

1. Bir şeyin murdarlanmasına, insanın özünün yəqin etməsi.

2. Bir şəxsin öz əlində olan bir şeyin murdarlanmasını söyləməsi. Məsələn, insanın xanımı bir şeyin murdarlanmasını bildirsin.

3. İki adil kişi və ya sözü qəbul olunan adil bir şəxs bir şeyin murdarlanmasını bildirə.

**Məsələ:** İnsan murdarlanmış şeyin pak olub olmaması haqqında şəkk edərsə, murdardır. Həmçinin pak olan bir şeyin murdar olub olmaması barədə şəkk edərsə, pakdır.

**Məsələ:** Murdar bir şeyi içmək yemək haramdır. Həmçinin onu hətta uşağlara yedirtmək haramdır. Amma əgər uşağın özü murdar bir yeməyi yeyərsə qarşısını almaq vacib deyildir.

# DƏSTƏMAZ

## Dəstəmazla vacib olan əməllər

Altı şey üçün dəstəmaz almaq vacibdir:

1.Meyyit namazı istisna olmaqla, vacib namazlar üçün.

2.Unudulmuş səcdə və təşəhhüd üçün: əgər onunla namaz arasında dəstəmazı pozan bir hədəs baş vermişdirsə.

3. Kə`bə evinin vacib təvafı üçün.

4. Dəstəmaz alacağına aid nəzir və əhd etmiş və and içmişdirsə.

5. Qur`anın xəttinə bədənindən bir yerinin toxundurmasını nəzir etmişdirsə.

6. Murdarlanmış Qur`anı suya çəkmək üçün.

**Məsələ:** Qur`anın xəttinə toxunmaq dəstəmazsız şəxsə haramdır. Amma Qur`anın tərcüməsinə toxunması üçün dəstəmaz almaq lazım deyildir.

## Dəstəmazı batil edən şeylər

Yeddi şey dəstəmazı batil edir:

1. Bövl.

2. Ğait.

3. Mə`də və bağırsaqdan gəlib ğaitin məxrəcindən çıxan yel.

4. Gözün görməyib, qulağın eşitmədiyi yuxu halı.

5. Əqli aradan aparan şeylər: dəlilik, məstlik və ürəkkeçmə.

6. İrəlidə açıqlanan qadınların istihazə halı.

7. Cünub olmaq, heyz, nifas və bədəni soyuyub və qüslu verilməyən ölmüş insanın bədəninə toxunmaq.

## Dəstəmazın alınma qaydası

Dəstəmaz alarkən üz və qolları yumaq, başın ön hissəsinə və ayaqların üzərinə məsh çəkmək vacibdir.

1. Üzü, uzununa alının yuxarısından baş tüklərinin çıxdığı yerdən çənənin ucuna qədər, eninə isə orta barmaqla baş barmağın arasında qalan miqdarını yumaq gərəkdir.Əgər insan bu miqdarın tamamilə yuyulduğuna əmin deyilsə, buna yəqini olması üçün bir az ətraflı yumalıdır.

2. Üzü yuyandan sonra sağ qolunu, daha sonra isə sol qolunu dirsəklərdən barmağının ucuna qədər yumalıdır. Əgər əvvəldə əllərini biləklərinə qədər yumuşdursa dəstəmazdan sayılmaz.

**Məsələ:** Tamamilə dirsəyini yumasına əmin olmaq istəyirsə, gərək dirsəkdən bir az yuxarını da yusun.

3. Hər iki əllər yuyulduqdan sonra, başın qabağına əldə qalan dəstəmaz suyunun yaşı ilə məsh çəkmək gərəkdir. Başa məsh çəkdikdən sonra ehtiyat vacib budur ki, sağ ayağa sağ əllə, sol ayağa sol əllə oynağa kimi məsh çəksin.

**Məsələ:** Başın məshi onun dərisinə lazım deyil, başın tükünədə məsh çəkilməsi düzgündür. Amma əgər başın tükü çox olduğundan başın digər yerlərinə çatırsa, gərək tüklərin dibinə məsh etsin.

**Məsələ:** Məsh dəstəmaz suyu ilə olmalıdır və ayrı bir su ilə məsh çəkmək düzgün deyildir. Corab və ayaqqabının üstündən məsh etmək düzgün deyildir.

**Məsələ:** Əgər məsh etmək üçün, əlin içində yaşlıq olmasa, ayrı su ilə əlini islada bilməz. Gərək dəstəmazın digər üzvlərindən yaşlıq götürüb onunla məsh etsin.

## Dəstəmazın şərtləri

Dəstəmazın düzgün olması üçün bir neçə şərt vardır:

1. Dəstəmazın suyu pak olmalıdır.

2. Su saf olmalıdır. Yə`ni ona təklikdə su desinlər, digər əşyalardan tutulan gülab və onun kimi su olmasın.

3. Dəstəmazın suyu mübah olmalıdır. Beləliklə qəsbi su ilə dəstəmaz almaq batildir. Həmçinin ehtiyat vacibə görə dəstəmaz aldığı məkan və dəstəmazın töküldüyü yer mübah olmalıdır.

4. Dəstəmazın suyunun qabı mübah olmalıdır.

5. Dəstəmaz suyunun qabı qızıl və gümüş olmamalıdır.

6. Dəstəmaz üzvləri yuyularkən və məsh çəkilərkən pak olmalıdır.

7. Dəstəmaz və namaz üçün vaxt yetərli olmalıdır. Buna görə dəstəmaz aldığı təqdirdə namazın hamısı və ya bir miqdarı vaxtından sonra qılınınacaqsa, təyəmmüm etməlidir.

8. Qürbət qəsdi ilə, yə`ni aləmlərin Rəbbi olan Həqq-təalanın rizası və göstərişi üçün dəstəmaz almalıdır. Əgər sərinləmək üçün və ya ayrı bir məqsədlə dəstəmaz alırsa, batildir.

9. Tərtiblə, yə`ni əvvəl üzünü başın çıxdığı tükdən çənənin axırına kimi, sonra sağ əlini, daha sonra sol əlini dirsəkdən

barmaqların axırına kimi və ondan sonra başa, nəhayət ayaqlara məsh çəkməlidir.

10. Ardıcıllıqla dəstəmaz almalıdır. İnsana vacibdir ki, dəstəmazın əməllərini ardıcıllıqla yerinə yetirsin. Əgər dəstəmazın əməllərinin arasında çox fasilə düşsə, yəni bir yeri yumaq və ya məsh edərkən əvvəl yuduğu və ya məsh etdiyi üzv qurusa dəstəmaz batildir. Amma əvvəlki üzvün qurulanmasına havanın istiliyi və ya bədənin hərarəti səbəb olarsa dəstəmaz batil deyil.

11. Mübaşirət, yə`ni üz və qollarının yuyulması, baş və ayaqlarının məshini insan özü etməlidir və başqasından kömək ala bilməz. Amma dəstəmaza müqəddimə olan işlərdə məsələn; suyun gətirilməsində və ya əlin içərsinə su tökmək bənzər işlərdə başqasından kömək alarasa eybi yoxdur.

**Məsələ:** Özü dəstəmaz ala bilməyən şəxs üçün, başqa bir şəxs onun tərəfindən dəstəmaz almalıdır. Amma niyyəti özü etməli və öz əli ilə məsh çəkməlidir.

12. Sudan istifadə etməyin onun üçün zərəli olmaya. Beləliklə əgər bir şəxs dəstəmaz almaqla xəstələnəcək və ya xəstəliyinin gec sağalmasından qorxursa təyəmmüm etməlidir.

13. Dəstəmazın üzvlərində suyun bədənə yetişməsinin qarşısını alacaq bir maneə olmasın. Beləliklə, əgər dəstəmaz üzvlərinə bir şeyin yapışdığını bilirsə, amma onun suyun yetişməsinə mane olub-olmadığını şəkk edirsə, onu götürməli və ya suyu onun altına çatdırmalıdır.

## CƏNABƏTİN HÖKMLƏRİ

İnsan iki yolla cünub olur:

1. Cima (cinsi əlaqə), yə`ni insan öz xanımı və yaxud «nəuzu billah» haram sayılan digər qadınla cinsi əlaqədə ola. Əgər cinsi əlaqədə olsalar, məni xaric olmasa da, onların hər ikisinə cənabət qüslu vacib olur.

2. Məninin xaric olması ilə, yuxuda, oyaqlıqda, az, çox, şəhvətlə, şəhvətsiz, ixtiyar üzü ilə və ixtiyarsız olmasının fərqi yoxdur.

**Məsələ:** Əgər insandan məni, ya sidik və ya başqa bir şey olduğunu bilməyən bir rütubət xaric ola. Əgər o rütubət şəhvətli və ya sıçrayaq xaric olubsa və xaric olduqdan sonra bədən süst olarsa, o rütubət məni hökmündədir. Amma xəstə bir şəxsdə o rütubətin sıçrayacaqla xaric olması şərt deyildir.

## Cünub şəxsə haram olan şeylər

Cünuba beş şey haramdır:

1. Bədənindən bir yeri Qur`anın xəttinə, Allahın adına (hər hansı dildə olsa) toxundurmaq. Peyğəmbərlərin, İmamların və Həzrəti Zəhranın (ə.s) da adlarına ehtiyat vacibə görə toxundurmamalıdır.

2. Məscidul-harama və Peyğəmbərin (s) məscidinə daxil olmaq. Bir qapıdan daxil olub, digər qapıdan xaric olsa belə.

3. Başqa məscidlərdə və İmamların hərəmlərində dayanmaq, Amma məscidin bir qapısından daxil olub, digər qapısından xaric olduğu halda, maneəsi yoxdur.

4. Bir şeyi məscidə qoymaq hətta keçən halda olsada, yaxud bir şeyi məsciddən götürməkdən ötrü daxil olmaq.

5. Qur`anda səcdəsi vacib olan ayələrdən oxumaq. Onlar dörd surədir:

1. "Səcdə" surəsi.

2. “Fussilət” surəsi.

3. “Nəcm” surəsi.

4. “Ələq” surəsi.

Bu surələrdən bir ayə belə oxunsada səcdə etmək vacibdir. Hətta ehtiyat vacibə görə onların Bismillahıda oxunsa, səcdə vacibdir.

## Cənabət qüslunun alınma qaydası

Cənabət qüslu iki qismdir:

1. Tərtibi.
2. İrtimasi.

**Tərtibi qüsl**

Tərtibi qüsldə, əvvəlcə qüsl niyyəti ilə baş və boyun, daha sonra bədənin sağ, sonra isə sol tərəfi yuyulmalıdır. Tərtibi qüslun düzlüyü, suyun altında qüsl qəsdi ilə üç üzvdən hər birini hərəkət verilməsi işkalsız deyildir.

**Məsələ:** Baş, boyun, sağ və sol tərəfini tamamilə qüsl verilməsini yəqin olmaq istəyirsə, buna əmin olmaq üçün hər bölümü yuyarkən digər qismətləri də onunla birlikdə yusun.

**İrtimasi qüsl**

İrtiması qüsldə, su bədənin hamısını bir anda əhatə etməlidir. Əgər irtimasıi qüsl niyyəti ilə suya girə amma onun ayağı xaricdə yerdə olarsa, onu yumaqdan ötrü gərək yerdən qaldıra.

**Məsələ:** Əgər bir şəxsin boynunda bir neçə qüsl vacib olarsa, onların hamısının niyyətinə bir qüsl verə bilər. Zahirən əgər onlardan biri cənabət qüslu olsa və cənabət qüslu niyyəti ilə versə digərlərindən kifayət edər.

**Məsələ:** Boynunda cənabət qüslu olan şəxs, namaz üçün dəstəmaz alması lazım deyil. Amma digər vacib və müstəhəbb qüsullarla namaz qıla bilməz, o dəstəmaz almalıdır.

## Qüsldə lazım olan şərtlər

1. Niyyət.
2. Bədənin hamısının yuyulması.
3. Qüslun tərtiblə alınması.
4. Suyun pak olması.
5. Suyun və qüsl verilən yerin mübah olması.
6. Mübaşirət (yəni, başqasından kömək almamaq).
7. Suyun zərər etməməsi.
8. İrtimasi qüslda suyun pak olması.

## İstihazənin hökmləri

İstihazə üç növdür:

1. Qəlilə (az)
2. Mütəvəssitə (orta)
3. Kəsirə (çox)

Qəlilə istihazədə qadın, hər namaz üçün müstəhəbbi olsun yaxud vacib, gərək dəstəmaz alsın. Dəstəmazdan əvvəl isə libas və paltarını təmizləməlidir.

Mütəvəssitə istihazədə hər namaz üçün gərək dəstəmaz alsın və vacibdir sübh namazından əvvəl bir qüsl etsin.

Kəsirə istihazədə qadın üç dəfə qüsl etməlidir, yə`ni bir qüsl sübh namazı üçün, bir qüsl zöhr və əsr namazı üçün, bir qüsl də şam və xiftən namazı üçün yerinə yetirməlidir. Və hər namaz üçün gərək dəstəmaz alsın və fasiləsiz namazı qılsın.

**Məsələ:** Ehtiyat vacibə əsasən, kəsirə istihazəli olan qadının orucu, yalnız gündüzü oruc tutacağı gecənin şam və xiftən namazının qüslunu və həmçinin gündüzün də gündüz namazları üçün vacib etdiyi qüslləri etdiyi təqdirdə səhihdir.

**Məsələ:** Hər zaman istihazəli qadın xəstəlik və suyun olmamasına xatir qüsl edə bilmirsə, hər bir qüslun əvəzində gərək bir təyəmmum etsin və namazları üçün dəstəmaz almalıdır.

**Məsələ:** İstihazəli qadın, boynuna vacib olan qüslləri yerinə yetirdiyi təqdirdə, məscidə daxil olması, orada dayanması, vacib səcdəsi olan ayəni oxuması və əri ilə yaxınlıq etməsi ona halal olur.

## Heyz

Heyz, hər ayda bir neçə gün qadınların rəhmindən xaric olan qandır. Heyz qanı gördüyü zaman, qadına haiz deyilir.

**Məsələ:** Doqquz yaşı tamam olmamışdan qabaq qızın gördüyü qan və qadınlar yaisə olandan sonra gördükləri qan, heyz deyildir.

## Haizin hökmləri

Haiz olan qadına bir neçə şey haramdır:

Paklığın (təharətin) şərt olması olan namaz, oruc, təvaf və e`tikaf kimi ibadətlər.

2. Bədənindən bir yeri Qur`anın xəttinə, Allahın adına (hər hansı dildə olsa) toxundurmaq. Peyğəmbərlərin, İmamların və Həzrəti Zəhranın (ə.s) da adlarına ehtiyat vacibə görə toxundurmamalıdır.

3. Məscidul-harama və Peyğəmbərin (s) məscidinə daxil olmaq. Bir qapıdan daxil olub, digər qapıdan xaric olsa belə.

4. Başqa məscidlərdə və İmamların hərəmlərində dayanmaq.

5. Bir şeyi məscidə qoymaq, yaxud bir şeyi məsciddən götürmək üçün daxil olmaq.

6. Cünub hökmündə qeyd olunduğu kimi Qur`anda səcdəsi vacib olan ayələrdən oxumaq.

7. Yaxınlıq etmək, bu həm kişiyə və həm qadına haramdır.

**Məsələ:** Əgər bir kişi öz qadını ilə heyzli halda istər qabaqdan və istərsədə arxadan yaxınlıq edərsə, ehtiyat vacibə görə kəffarə verməlidir. Onun kəffarəsi birinci dəfə on səkkiz noxud sikkəli qızıl, ikinci dəfə doqquz noxud, üçüncü qismdə dörd noxud və yarımdır.

**Məsələ:** Heyz halında ikən qadını boşamaq batildir. Qadın, heyzdən paklanıb və yaxınlıq etməmişdən əvvəl pak olan halda boşanılmalıdır.

**Məsələ:** Əgər qadın namazını tə`xirə sala və vaxtın əvvəlindən su ilə təharət saxlayaraq bir namaz qılacağı qədər keçə, sonra haiz ola, həmin namazın qəzası ona vacibdir.

**Məsələ:** Əgər qadın namazın vaxtının axırında qandan pak olsa, qüsl, dəstəmaz və bir rük`ət namaz qılan qədəri ya bir rük`ətdən çox vaxtı olmuş olsa, gərək o namazı qılsın. Əks təqdirdə, onun qəzasını yerinə yetirməlidir.

**Məsələ:** Əgər kişi, qadının cima halında heyzli olduğunu başa düşərsə, dərhal ondan ayrılmalıdır.Əgər ayrılmasa ehtiyat vacibə görə kəffarə verməlidir.

## Nifasın hökmləri

Uşağın ilk hissəsi anasının bətnindən bayıra çıxdığı zamandan e`tibarən qadının gördüyü qan on gündən qabaq və ya onuncu günün əvvəlində kəsilərsə, nifas qanıdır.

**Məsələ:** Nifas qanı on gündən çox olmur. Onun az olması üçün müddət yoxdur və bir qadının doğub amma nifas qanı görməməsi də mümkündür.

**Məsələ:** Əgər qadının nifas qanı on günü keçsə, belə ki, heyzdə adəti vardır, onun adət günləri qədəri nifas, qalanı istihazədir. Əgər adəti yoxdursa, on günə kimi nifas və qalanı istihazə olar.

**Məsələ:** Nifas halında olan qadın, heyzli qadın kimidir, yə`ni nifas qanı kəsiləndən sonra, ya adətdən və yaxud on gündən sonra əgər adəti olmazsa gərək qüsl etsin.

**Məsələ:** Məsciddə durmaq və heyzli qadına haram olan digər işlər nifasda olan qadına da haramdır.

**Məsələ:** Nifas halında olan qadına təlaq vermək və onunla yaxınlıq etmək haramdır. Amma əgər əri onunla yaxınlıq etsə kəffarəsi yoxdur.

**Məsələ:** Heyzdə adəti olan qadın, doğumdan sonra bir aya qədər və ya daha artıq dalbadal qan görərsə, onun adət günləri qədəri nifasdır, qalan günləri isə istihazə qanı qərar verməlidir.

**Məsələ:** Nifas və heyz halında olan qadına namazların vaxtında dəstəmaz alıb, namaz məkanında əyləşib və namazın vaxtı qədər zikr etməsi müstəhəbbidir.

# MEYYİT HAQQINDA

## Məssi-meyyit qüslü

**Məsələ:** Bir şəxs ölmüş bir insanın soyumuş və qüsl edilməmiş bədəninə toxunarsa, istər yuxuda olsun, istərsədə ayıqlıqda, ölən şəxs müsəlman ola, yaxud kafir, bədənindən bir yerini toxunduran şəxsə məssi-meyyit qüslü vacib olur.

## Meyyit qüslnün qaydası

**Məsələ:** Meyyitə üş qüsl verməк vacibdir:

1. Sidr ilə qarışmış su ilə

2. Kafur ilə qarışmış su ilə

3. Xalis su ilə, ehtiyat vacibə görə əgər meyyitə tərtibi qüsl vermək mümkün olarsa, irtimasi qüsl verilməsin. Həmçinin ehtiyatə əsasən qüsl verilməmişdən əvvəl, meyyitin bədənində nəcasəti pak etmək lazımdır.

**Məsələ:** Meyyitin övrətinə baxmaq haramdır, ona qüsl verən adam meyyitin övrətinə baxsa, günah edib, lakin qüsl batil olmaz.

**Məsələ:** Kişi, qadına qüsl verə bilməz və həmçinin qadın da kişiyə qüsl verə bilməz. Amma qadın öz ərinə qüsl verə bilər və ər də öz arvadına qüsl verə bilər.

**Məsələ:** Meyyit qüslünda cəbirə qüslü şəriətə uyğun deyildir. Əgər su tapılmasa və ya sudan istifadə etməsinə bir maneə vardırsa, hər qüslün əvəzində gərək meyyitə təyəmmüm etsinlər.

## Meyyitin kəfən və dəfninin hökmləri

Müsəlman meyyitini fitə, köynək və sərtasər deyilən üç parçaya bükülməsi vacibdir.

**Fitə**

Fitə, göbəkdən dizə qədər yeri, habelə bədənin ətrafını örtməlidir.

**Köynək**

Köynək gərək çiyninin başından baldırın yarısına qədər meyyitin ayağını örtsün və daha yaxşı odur ki, ayağın üzünə yetişsin.

**Sərtasər**

Sərtasər gərək o qədər ola ki, baş və ayaq tərəfdən bağlanması mümkün olsun. Onun eni isə bir tərəfi o biri tərəfinin üstünə gələcək qədər olması gərəkdir.

**Məsələ:** Ehtiyat vacibə əsasən, kəfən üçün istifadə olunan üç parçadan hər birisi meyyitin bədəni onun altından görünəcək qədər nazik olmamalıdır.

## Meyyitin hənut olunması

Qüsldən sonra meyyitin hənut olunması vacibdir: yə`ni alnına, əllərinin içinə, dizlərinə və ayaqların iki böyük baş barmaqlarının ucüna, kafur sürtülməlidir.

**Məsələ:** Ehtiyat vacibə əsasən, kafuru ikl olaraq meyyitin alnına sürtsünlər, amma başqa yerlərdə tərtib mö`təbər deyildir.

**Məsələ:** Əgər meyyit ehram halında ölərsə, onu hənut etmək caiz deyildir. Amma onun ehramı həcci-təməttö ehramıdırsa sə`yi tamalayandan, əgər həççi ömrədirsə təqsirdən (saçını qısaltmaq) sonra ölərsə, bu iki halda hənut etmək lazımdır.

**Cəridətəyn**

**Məsələ:** Müstəhəbbidir qəbrdə meyyitlə birlikdə iki ədəd təzə və yaş ağac qoysunlar.

## Meyyit namazının hökmləri

Müsəlman və altı yaşı tamam olmuş müsəlman uşağının meyyitinə namaz qılmaq vacibdir. Amma altı yaşı tamam olmamış uşağa savab ümidi ilə namaz qılmağın maneəsi yoxdur.

**Məsələ:** Meyyitin namazı, onun qüsl, hənut və kəfənindən sonra qılınmalıdır. Əgər bunlardan qabaq qılınarsa batildir.

**Məsələ:** Meyyit namazı qılmaq istəyən şəxsin dəstəmazlı, qüsllü ya təyəmmümlü olması lazım deyil. Amma müstəhəbbidir ki, meyyitə namaz qılmaq üçün təharətli olsun.

## Meyyit namazının göstərişi

**Məsələ:** Meyyit namazının beş təkbiri var. Əgər namaz qılan şəxs beş təkbiri bu tərtiblə desə kifayətdir. Niyyətdən və birinci təkbirdən sonra desin:

**«Əşhədu ən la ilahə illəllah və ənnə Mühəmmədən rəsulullah.»**

İkinci təkbirdən sonra desin:

**«Əllahummə səlli əla Mühəmmədin və ali Mühəmməd.»**

Üçüncü təkbirdən sonra desin:

**«Əllahumməğfir lilmu`mininə vəl mu`minat.»**

Dördüncü təkbirdən sonra əgər məyyit kişidirsə desin:

**«Əllahumməğfir lihazəl məyyit.»**

Əgər qadındırsa,desin:

**«Əllahumməğfir lihazihil məyyit.»**

Sonra beşinci təkbiri desin və bununla da namaz bitir. Əgər məyyit uşağdırsa, dördüncü təkbirdən sonra desin:

**«Əllahumməc`əlhu ləna və liəbəvəyhi sələfən və fərtən.»**

## Dəfnin hökmləri

**Məsələ:** Yırtıcı heyvanların meyyiti bayıra çıxara bilməməkləri üçün, həmçinin iyi bayıra çıxmasın deyə, vacibdir ki, meyyiti torpağda yaxşı dəfn etsinlər.

**Məsələ:** Meyyiti dəfn edəndə, qəbrdə sağ yanı üstə uzandırılmalıdır kı, onun ön tərəfi qibləyə doğru, başı gün batana və ayaqları isə gün çıxan tərəfə olsun.

**Məsələ:** Kafir qəbristanlığında müsəlmanın, müsəlman qəbrəstanlığında isə kafirin dəfni caiz deyildir.

**Məsələ:** Müsəlmanın, ona hörmətsizlik sayılan yerlərdə məsələn, zir-zibil tökülən yerlərdə dəfn edilməsi caiz deyildir.

**Məsələ:** Başqa ölünün qəbrində meyyiti dəfn etmək caiz deyil, əgər qəbr köhnəlib və birinci meyyit tamamilə aradan getsə bu mümkündür.

**Məsələ:** Bir kəsin ölümündə üzünü, bədənini cırıb, sillə vurmaq və özünə zərər yetirməsi insana caiz deyildir.

**Məsələ:** Əgər qadın meyyitin əzasında üzünü cıraraq qanatsa, və ya saçlarını yolsa, gərək bir bəndə azad etsin, yaxud on fəqirə təam versin və ya on fəqiri geyindirsin.

**Məsələ:** Müstəhəbbidir ki, qəbri orta boylu insanın boyu ölçüsündə qazsınlar və meyyiti ən yaxın qəbristanlıqda dəfn etsinlər. Həmçinin qohumları bir-birinin yanında dəfn etsinlər.

## Vəhşət namazı

Meyyitin qəbirə qoyulduğu ilk gecə, iki rək`ət vəhşət namazı meyyit üçün qılınması daha yaxşıdır. Bu namazın qılınma tərzi belədir: Birinci rük`ətdə həmddən sonra bir dəfə Ayətəl-kürsi, ikinci rük`ətdə isə həmddən sonra on dəfə Qədr surəsi oxunulur. Namazın salamından sonra belə deyilir:

Əllahummə səlli əla Mühəmmədin və ali Mühəmmədin vəb`əs səvabəha ila qəbri fülan.

## Məzarı açmaq

**Məsələ:** Müsəlmanın qəbririni açmaq, uşaq və ya dəli olsa belə, haramdır. Amma bədəni çürümüş və torpaq olmuşdursa, eybi yoxdur.

Bir neçə vəziyyətdə qəbri açmaq haram deyildir:

1. Meyyit qəsb edilmiş yerdə dəfn olunmuşdursa və yer sahibi onun qəbirdə olmasına razı olmazsa.

2. Kəfən və ya meyyitlə dəfn edilən başqa bir şey qəsbi ola.

3. Meyyit qüslsüz və kəfənsiz dəfn olunmuş olsa, və ya qüslün batil olmasını başa düşsələr, yaxud hunut verilmədən dəfn olunmuş ola. Əlbəttə bu şərtlə ki, qəbri açmaq hörmətsizliyə səbəb olmasın.

4. Qəbri açmaqla, bir haqqın sübuta yetirilməsi üçün meyyitin bədənini görmək istəsələr.

5. Meyyiti kafir qəbristanlığında ona hörmətsizlik olan bir yerdə dəfn etmişdirlərsə.

6. Qarnında canlı uşaq olduğu halda dəfn edilmiş olan hamilə bir qadının uşağını çıxarmaq kimi şər`i baxımdan, əhəmiyyəti olan bir mətləb üçün, qəbiri açmaq lazımdırsa.

7. Meyyitin bədənini yırtıcı heyvanın parçalayacağından, sel aparacağından və ya düşmənin çıxaracağından qorxarlarsa.

8. Meyyitin bədənindən dəfn olunmayan bir hissəsini onunla birgə dəfn etməkdən ötrü qəbri açmaq.

## TƏYƏMMÜMÜN HÖKMLƏRİ

Yeddi vəziyyətdə dəstəmaz və qüslün yerinə təyəmmüm almaq vacibdir:

1. Dəstəmaz və qüsl üçün su hazırlamaq mümkün olmasın. Bu şərtlə ki, insan şəhərdə və abad bir yerdə olarsa, suyu tapa bilmək üçün əmin olana qədər axtarış aparsın.

2. Qocalıq və bacarıqsızlır, oğrudan və bu kimi şeylərin qorxusundan və yaxud quyudan su çəkmə üçün bir vasitə olmamağından su əldə edə bilməsə, gərək təyəmmüm etsin.

3. Əgər su işlətmək üçün öz canından qorxsa yaxud su işlətmək vasitəsilə onda bir eybin və ya xəstəliyin əmələ gəlməsindən çəkinsə yaxud xəstəliyin gec müalicə olacağından ehtiyat etsə, təyəmmüm etsin.

4. Suyu dəstəmaz və ya qüsl üçün istifadə etdiyi təqdirdə, zəhmətə düşəcəkdirsə yaxud susuzluqdan xəstələnib aradan getməsindən qorxan şəxs təyəmmüm etməlidir.

5. Əgər bədən və ya libası nəcis olan bir şəxsin az miqdarda suyu olsa və bu su dəstəmaz almaq, qüsl etmək, bədən və libasını yumağa kifayət etməzsə, bu halda o su ilə bədən və libasını yumalı və təyəmmümlə namaz qılmalıdır.

6. İstifadə edilməsi haram olan su və ya qabdan başqa bir su və ya qab yoxdursa, su və qabı qəsbi ola.

7. Dəstəmaz və ya qüsl etməsi, namazın hamısının və ya bir qisminin vaxtından sonra qılınmasına səbəb olacaq qədər vaxt dar olarsa, təyəmmüm etməlidir.

## Təyəmmümü səhih olan şeylər

**Məsələ:** Torpağa, daşa, kəssəyə və çınqıla təyəmmüm etmək səhihdir. Həmçinin daşa, kəcə və əhəng daşına təyəmmüm etmək olar. Əgər torpağ, çınqıl və kəsək olmasa xalça və paltara və bu kimi şeylərin üzərində olan toz-torpağa təyəmmüm etmək səhihdir.

**Məsələ:** Üzərinə təyəmmüm edilən şey və təyəmmüm etdiyi məkan qəsbi olmamalıdır. Həmçinin qəsbi fəzada da təyəmmüm batildir.

**Məsələ:** Üzərinə təyəmmüm ediləcəyi şey pak olmalıdır, əgər təyəmmüm etmək üçün pak bir şey yoxdursa, ehtiyat vacibə əsasən namazı təyəmmümsüz qılsın və sonra qəzasın yerinə yetirsin.

## Təyəmmümün göstərişi

Dəstəmaz və ya qüsl əvəzinə edilən təyəmmümdə dörd şey vacibdir:

1. Niyyət.

2. Əllərin ikisinin içini birlikdə təyəmmüm səhih olan şeyə vurmaq.

3. Hər iki əlinin içini tamam alnına və həmçinin onun iki tərəfini tük bitən yerdən qaşlara qədər və burnunun yuxarısına və ehtiyata görə qaşlarının üzərinə çəksin.

4. Sol əlinin içini, tamam sağ əlin arxasına çəkmək və sonra sağ əlin içini tamam sol əlin arxasına çəkmək.

**Məsələ:** Təyəmmüm istər dəstəmaz əvəzi olsun, istər qüsl əvəzi, bu tərtiblə əmələ gətirilməsi ehtiyat vacibdir. Bir dəfə əlləri yerə vursun, sonra alnına və əllərinin arxasına çəksin. Sonra əlini yenə bir dəfə yerə vursun və əllərinin arxasına çəksin.

**Məsələ:** İnsan təyəmmüm edən vaxtda gərək üzüyünü barmağından çıxarsın. Əgər alnında və ya əllərinin arxasında və içində maneçilik olsa onu aradan qaldırsın.

**Məsələ:** Əgər bir şəxs cənabət qüslü əvəzinə təyəmmüm etsə, namaz üçün dəstəmaz almaq lazım deyildir və əgər başqa qüsüllərin əvəzinə təyəmmüm etsə, dəstəmaz da almalıdır.

**Məsələ:** Əgər bir şəxs cənabət qüslü əvəzinə təyəmmüm etsə və sonra dəstəmazı batil edən şey onun qarşısına çıxsa, belə ki, sonrakı namazlar üçün qüsl edə bilməsə, gərək dəstəmaz alsın və ehtiyat vacibə əsasən qüslün əvəzi də təyəmmüm etsin.

**Məsələ:** Vəzifəsi təyəmmüm olan şəxs, əgər bir iş üçün təyəmmüm edərsə, təyəmmümü və üzrü aradan getməyənə qədər, dəstəmaz və ya qüsllə etməli olan əməlləri, yerinə yetirə bilər.

# NAMAZIN HÖKMLƏRİ

Namaz dinin elə əhəmiyyətli əməllərindəndir ki, əgər Allah dərgahında qəbul olsa, şəxsin başqa əməlləri də qəbul olar. Əgər qəbul olmasa, insanın başqa əməlləridə qəbul olunmaz. Peyğəmbər (s) buyurub:

**«O, şəxs ki, namaza əhəmiyyət vermir və onu yüngül sayır, axirət əzabına layiqdir.»**

## Vacib namazlar

Vacib namazlar altıdır:

1. Gündəlik namaz.

2. Ayat namaz.

3. Meyyit namazı.

4. Kə`bə evinin təvafı zamanı qılınan namaz.

5. Atanın və Ananın böyük oğlunun üzərinə vacib olan qəza namazı.

6. Əhd etmək, and içmək, nəzir demək və icarə üçün vacib olan namazlar.

## Namazın vaxtı

**Məsələ:** Zöhr və əsr namazının vaxtı zəvaldan (günəş əyiləndən) günəş batana qədərdir. Zəvaldan məqsəd günəşin göyün yarısından keçib, məğribə tərəf yönəlməsi, ğrubdan məqsəd isə günəş batdıqdan sonra, məşriq tərəfdən qırmızılığ onun başının üzərindən gün batana tərəf yönəlməsidir. Vaxtın əvvəlindən dörd rükət qılacağı namaz vaxtı zöhr namazına məxsusdur və dörd rükət qılacağı namaz vaxtının axırından əsr namazına məxsusudur. Əgər bir şəxs zöhr namazından qabaq bilərək əsr namazını qılarsa batildir.

**Şam və xiftən namazlarının vaxtı**

**Məsələ:** Şam və xiftən namazlarının vaxtı, gün batandan gecənin yarısına qədərdir. Bu vaxtdan üç rükət namaz qılınacağı qədər vaxtın əvvəlindən şam namazına məxsusus və dörd rükət namaz qılınacağı qədər vaxtın axırından isə xiftən namazına mıxsusdur.

**Məsələ:** Əgər bir şəxs üzrlü olduğundan və ya mə`siyət üzündən şam və xiftən namazlarını gecənin yarısına qədər

qılmazsa, ehtiyat vacibə əsasən sübh azanından əvvəl əda və qəza niyyəti etmədən gərək namazları qılsın.

**Məsələ:** Xiftən namazının vaxtının axırı gecənin yarısına qədərdir. Gecəni, günün batmasının əvvəlindən sübh azanına qədər gərək hesab edək, nə inki günün əvvəlinə kimi. Beləliklə şər`i günortadan on bir saat və iyirmi dəqiqə şam və xiftən namazlarının vaxtının axırıdır.

**Məsələ:** Əgər bir şəxs səhvən xiftən namazını, şam namazından əvvəl qıla və namazdan sonra başa düşə ki, namazı düzdür, gərək şam namazını ondan sonra yerinə yetirsin.

### Sübh namazının vaxtı

**Məsələ:** Sübh namazının vaxtı sadiq sübhun əvvəlindən (yə`ni birinci fəcrin ağartısı yayılan vaxt ona "ikinci fəcr" və sübh namazının əvvəl vaxtıdır) günəşin çıxmasına qədərdir.

**Məsələ:** İnsan, yalnız vaxtın daxil olduğuna əmin olduqdan sonra namaz qılmağa başlaya bilər.

**Məsələ:** Bir rük`ət miqdarında namaz qılmağa vaxtı olan şəxs, gərək namazı əda niyyəti ilə qılsın. Amma namazı bu qədər tə`xirə salması caiz deyildir.

## Qiblənin hökmləri

**Məsələ:** Məkkeyi-müəzzəmədə olan Kə`bə evi qiblədir. Namaz ona tərəf qılınmalıdır.Amma uzaqda olan şəxs, əgər qibləyə tərəf namaz qılır deyiləcək şəkildə dayanarsa, kifayətdir.

**Məsələ:** Oturaq halda namaz qıla bilməyən şəxs namaz halında ikən bədəninin ön qismi qibləyə tərəf olacaq şəkildə, sağ böyrü üstə uzanmalıdır.

**Məsələ:** Namaz, qılmaq istəyən şəxs, qiblənin hansı tərəfə olduğuna əmin olana qədər qibləni tə`yin etmək üçün çalışmalıdır.Əks təqdirdə, müsəlmanların məscidlərinin mehrablarından, qəbrlərdən və ya buna bənzər digər yollardan hətta elmi qanunları bilən fasiq şəxsdə desə əməl etsin.

**Məsələ:** Əgər bir şəxsin qibləni tapmaq üçün bir vəsitə yoxudursa güman və zənninə əməl etsin. Əgər güman və zənnə gələ bilmirsə, namazın vaxtı geniş olduğu təqdirdə ehtiyata əsasən, dörd tərəfə namaz qılsın.

**Məsələ:** Qibləyə yəqinliyi olmayan şəxs, əgər namazdan başqa üzü qibləyə olmalı bir iş görmək istəsə, məsələn: bir heyvanın başını kəsmək istəsə, gümanına əməl etsin və əgər güman mümkün deyidirsə, hansı tərəfə qılsa səhihdir.

## Namazda bədəni örtmək

**Məsələ:** Kişi namaz halında onu bir kəs görməsə də övrətini örtməlidir.Qadın isə bədənini tamamilə örtməsi vacibdir. Ehtiyat vacib odur ki, qadın ayaqlarının altın da örtsün. Amma üzünün dəstəmazda yuyulan hissəsini, əllərini biləyə kimi və ayaqlarının üzünü topuğuna kimi örtməsi vacib deyildir.

**Məsələ:** Əgər insan qəsdən ya məsələni bilməmək üzündən övrətini namazda örtməsə, namazı batildir.

**Məsələ:** İnsan unudulmuş səcdənin qəzasını və ya unudulmuş təşəhhüdü yerinə yetirirsə, gərək özünü namaz vaxtı olduğu kimi örtsün.

## Namaz qılanın paltarının şərtləri

Namaz qılanın paltarının altı şərti var:

1. Pak olsun. Beləliklə nəcis libasla namaz qılmaq batildir.

**Məsələ:** Əgər bir şəxs nəcis libas və bədənlə namazın batil olmasını bilmirsə. Əgər nəcis paltar və bədənlə namaz qılsa, namazı batildir.

**Məsələ:** Əgər bir şəxs, bədən və ya libasının nəcis olduğunu bilməyə, namazdan sonra libasın nəcis olmasını bilsə, namazı səhihdir.

**Məsələ:** Nəcis libasdan başqa bir libası olmayan şəxs, nəcis libasla namaz qılmalıdır. Belə olan təqdirdə namazı səhihdir.

2. Mübah olsun. Qəsbi libasda namaz qılmaq caiz deyildir.

**Məsələ:** Qəsbi libasın geyilməsinin caiz olmadığını bilən şəxs, əgər qəsdən qəsbi libasla namaz qılsa, namazı batildir.

**Məsələ:** Paltarın qəsbi olduğunu bilməyən və ya unudan şəxs, əgər özü qəsb etməyibsə və o libasla namaz qılsa, namazı səhihdir.

**Məsələ:** Əgər xumsu verilməyən pul ilə paltar alsa, o libas ilə namaz qılmağın hökmü, qəsbi paltarla namaz qılmağın hökmü ilə eynidir.

3. Namaz qılanın libası murdarın hissələrindən olmasın. Yə`ni özü ölən və ya qeyri şər`i yolla kəsilən heyvanın hissələrindən olmasın.

**Məsələ:** Əgər əti halal olan murdarın tük və yunu kimi ruhu olmayan bir şey namaz qılanın yanında olsa ya onunla hazırlanmış paltarla namaz qılsa, namazı sıhihdir.

4. Namaz qılanın libası əti haram olan heyvandan olmamalıdır. Əgər o, heyvanın bir tükü namaz qılanın yanında osla, namazı batildir.

**Məsələ:** Əgər pişik kimi əti haram olan heyvanın ağzının, burnunun suyu ya başqa rütubəti namaz qılanın bədənində ya paltarında osla, əgər yaş olarsa namazı batildir.

**Məsələ:** Əgər bir şəxs libasının, əti halal və ya haram heyvandan hazırlandığı barədə şəkk edərsə, istər müsəlman ölkəsində hazırlanmış olsun, istər kafir ölkəsində hazırlanmış olsun, onunla namaz qılmaq caizdir.

**Məsələ:** Sədəfin, əti haram heyvanın üzvlərindən hazırlanmış olduğu müəyyən olmadığından, insanın onunla namaz qılması caizdir.

5. Kişilərin libasları qızıldan toxunmuş paltar olmaya. Amma qadınlar üçün qızıldan toxunmuş paltarın eybi yoxdur.

**Məsələ:** Sinəyə qızıl zəncir taxmaq, barmağa qızıl üzük taxmaq, qola qızıl qolbaqlı saat bağlamaq, qızıl eynək taxmaq kişiyə haram və onunla namaz qılmaq batildir.

6. Namaz qılan kişinin paltarı, hətta ərəqçin və şalvarının bağı ehtiyat vacibə əsasən gərək xalis ipəkdən olmasın.Namazda və digər vaxtlarda da onu geyinməsi haramdır.

**Məsələ:** Əgər paltarın astarı tamamilə və ya bir hissəsi xalis ipəkdən olsa, kişi üçün onu geyinmək haram və onunla namaz batildir.

**Məsələ:** Əgər kişinin cibində ipək dəsmal və ya ona oxşar bir şey olsa, eybi yoxdur və namazı batil etmir.

**Məsələ:** Qadın üçün namaz və ya başqa vaxtda xalis ipəyi geyməyin eybi yoxdur.

**Məsələ:** Kişinin qadın paltarı geyinməsi və qadının kişi paltarı geyinməsi, onu özü üçün bir geyim tərzi qərar verdiyi təqdirdə haram. Amma o paltarla qılınan namaz səhihdir.

## Namaz qılanın bədən və paltarının pak olmasının lazım olmadığı hallar

Üç halda namaz qılanın bədən və paltarı nəcis olarsa, namazı səhihdir:

1. Bədənində olan yara, cərahət və ya çiban vasitəsilə paltarına və ya bədəninə qan bulaşırsa.

2. Bədən və ya paltarı bir dirhəmdən az, təqribən şəhadət barmağının ucu qədər, qana bulaşmış olursa.

3. Nəcis bədən və ya paltarla namaz qılmağa məcburdursa və həmçinin əgər corab, araqçın və bunun kimi övrəti təklikdə örtməyən kiçik libaslar əgər nəcis olmuşlarsa, qılınan namaz səhihdir.

**Məsələ:** Namaz qılınanın üstündə nəcis dəsmal, açar, bıçaq və üzük şeylərin olması caizdir və namazı batil etmir.

**Məsələ:** Əgər namaz qılanın bədən və ya libasında iynə ucu qədər əti haram olan heyvanın, murdarın, kafirin, itin və donuzun qanı olsa, namaz batildir. Heyz, nifas və istihazə qanlarının da hökmü belədir.

## Namaz qılanın yeri

Namaz qılanın yerinin yeddi şərti var:

1. Mübah olmalıdır: Bir kəs qəsbi mülkdə namaz qılsa, əgər xalça, təxt və bu kimi şeylərin üstündə belə olsa da namazı batildir.

**Məsələ:** Bir mülkdə başqa birisi ilə ortaq (şərik) olan şəxs ortağının səhmi və hissəsi ayrılmamış, şərikin icazəsi olmadan, o mülkün bir şeyindən istifadə edə bilməz və orada namazı batildir.

**Məsələ:** Xums və zəkatını verməyən meyitin mülkündən istifadə etmək haram və orada namazı batildir.

**Məsələ:** Camaata borcu olan meyitin mülkündən istifadə etmək-əgər onun vərəsələri borcu verə bilmirlərsə– haram və orada qılınan namaz haramdır.

2. Namaz qılınan məkanı hərəkətli olmamalıdır. Beləliklə ixtiyar halında avtomobildə, gəmidə və qatarda hərəkət etdiyi halda namaz qılmağ səhih deyildir. Amma məcburiyyət halında qibləni riayət etmək və bədənin sabitliyinə riayət etməklə namaz qılmağın eybi yoxdur.

3. Namazı tamamlaya biləcəyinə ehtimal verdiyi bir yerdə namaz qılmalıdır. Beləliklə, şiddətli külək, yağış və camaatın izdihamı olduğu səbəbdən namazını tamamlaya bilməyəcəyinə əmin olmadığı bir yerdə namaz qılmaq, ehtiyat vacibə əsasən səhih deyildir.

**Məsələ:** Orada qalması və dayanması haram olan yerdə, məsələn: uçulmağa mə`ruz qalmış bir tavanın altında namaz qılarsa, namazı səhih deyil.

**Məsələ:** Üzərində dayanmağı və oturmağı haram olan bir şeyin üstündə, məsələn: Allahın adı yazılmış xalçanın bir yerində namaz qılmaq səhih deyil.

4. Namaz qılanın tavanı, onun ayaq üstə düz dayanmasına mane olacaq qədər alçaq olmamalıdır. Həmçinin insanın rüku və səcdə edə bilməyəcəyi qədər kiçik olmamalıdır.

**Məsələ:** Peyğəmbər (s.ə.v) və İmamın (ə.s) qəbrinin qarşısında ehtiyat vacibə əsasən, gərək namaz qılmamalıdır.

5. Namaz qılanın yeri nəcisdirsə, bədən və ya libasına yetişəcək qədər yaş olmamalıdır.

**Məsələ:** Alının qoyulduğu bir şey əgər nəcis olarsa, quru olan halda da namazı batil edir.

6. Ehtiyat müstəhəbbə əsasən, qadın kişidən arxada dayanmalıdır. Həmçinin qadının səcdə etdiyi yer, kişinin səcdə etdiyi yerdən bir az arxada olmalıdır.

7. Namaz qılanın alnının yeri, onun ayaq barmaqlaırının yerindən dörd bağlı barmaqdan çox alçaq ya çox uca olmamalıdır.

**Məsələ:** Bir məkanda heç bir şəxsin olmadığı halda, naməhrəm kişi və qadının, günaha düçar olma ehtimalını verdikləri və bir şəxsin də oraya daxil ola bilmədiyi bir yerdə dayanmaları haramdır. Orada namaz qılmamaları da ehtiyat – vacibə əsaslanır.

**Məsələ:** Tar çalınan və buna bənzər əşyaların istifadə olunduğu bir yerdə namaz qılmaq batildir.

## Məscid hökmləri

**Məsələ:** Məscidin yerin, tavanın, banın və divarının daxilini nəcis etmək haramdır. Onun nəcis olduğunu anlayan hər bir şəxsin, dərhal onun nəcasatını aradan qaldırması lazımdır. Məscidin divarının xaricini də nəcis etməmək ehtiyat-vacibdir.

**Məsələ:** İmamların (ə.s) həramini nəcis etmək haramdır və nəcis olsa, əgər nəcis qalması hörmətsizlikdirsə, onu paklamaq vacibdir.

**Məsələ:** Murdarın özünün və murdarlanmış bir şeyin məscidə aparılması, məscidə hörmətsizlik olsa, haramdır.

**Məsələ:** Məscidi qızılla zinətləndirmək haramdır. İnsan və heyvan kimi ruhu olan şeylərin rəsmlərini ehtiyat-vacibə əsasən məscidə çəkmək olmaz.

**Məsələ:** Əgər məscid xarab olsa, onu satmaq yaxud mülkə və yola daxil etmək olmaz.

**Məsələ:** Məscidin qapı-pəncərəsini və başqa şeylərini satmaq haramdır. Əgər məscid haram olsa, gərək onları həmin məscidin tə`mirinə işlətsinlər.

## Azan və iqamə

**Məsələ:** Kişi və qadının gündəlik vacib namazlarından qabaq azan və iqamə deməsi müstəhəbbidir. Digər vacib və müstəhəbb namazlar üçün isə, azan demək vacib deyildir.

Azan on səkkiz hissədən ibarətdir:

Dörd dəfə: **Əllahu əkbər**

İki dəfə: **Əşhədu ən la ilahə illəllah**

İki dəfə: **Əşhədu ənnə Mühəmmədən rəsulullah**

İki dəfə: **Həyyə ələssəlah**

İki dəfə: **Həyyə ələlfəlah**

İki dəfə: **Həyyə əla xəyril-əməl**

İki dəfə: **Əllahu əkbər**

İki dəfə: **La ilahə illəllah**

İqamə isə on yeddi hissədən ibarətdir:

Əvvəldə iki dəfə "Əllahu əkbər", azanın sonunda bir dəfə "La ilahə illəllah" azaldılır və "Həyyə əla xəyril əməl" dedikdən sonra isə iki dəfə "Qəd qamətis-səlah" iqaməyə əlavə edilir.

**Məsələ:** ″Əşhədu ənnə Əliyyən vəliyullah″ azan və iqamənin hissəsi deyildir. Amma ″Əşhədu ənnə Mühəmmədən Rəsulullah″ dan sonra, qəsdi qürbətlə deyilməsi yaxşıdır.

**Məsələ:** Uşağın dünyaya gəldiyi birinci gün yaxud göbəyi düşməzdən əvvəl sağ qulağına azan və sol qulağına iqamə deməkləri müstəhəbbidir.

**Məsələ:** Namazın vaxtı daxil olduqdan sonra azan və iqamə deyilməlidir. Əgər bilərək yaxud yaddan çıxmasıilə namazın vaxtından əvvəl deyilsə batildir.

## Namazın vacibatı

Namazın on bir vacib hissəsi vardır:

1. Niyyət.
2. Qiyam.
3. Təkbirətul-ehram.
4. Qiraət.
5. Rüku.
6. Səcdələr.
7. Təşəhhüd.
8. Salam.
9. Tərtib.
10. Müvalat.
11. Rüku və səcdələrin zikri.

## Niyyət

Bir əməli və işi qəsd etməyə niyyət deyilir. İnsan, namazı qürbət qəsdilə, yə`ni Allahın əmrini yerinə yetirmək qəsdilə yerinə yetirməlidir. Amma niyyəti qəlbdən keçirməsi və ya dili ilə "dörd rük`ət zöhr namazı qılıram qürbətən iləllah" sözünü deməsi lazım deyildir.

**Məsələ:** İnsan, namazının başlanğıcından sonuna qədər niyyətində qalmalıdır. Belə ki, əgər namaz əsnasında nə edirsən deyə soruşulsa, nə cavab verəcəyini bilməyəcək qədər qəflətdə olarsa, namazı batildir.

**Məsələ:** İnsan, yalnız mütəal – Allahın əmrini yerinə yetirmək üçün namaz qılmalıdır.Belə ki, riya, yə`ni özünü başqalarına göstərmək üçün namaz qılan şəxsin namazı batildir.

## Təkbirətul-ehram

Təkbirul-ehramı "Əllahu əkbər"i hər namazdan əvvəl demək vacib və rükndür. "Əllah" və "Əkbəri" ardıcıl demək lazımdır. Habelə gərək bu iki kəlməni ərəbcə düzgün deyəsən.

**Məsələ:** Təkbirətul –ehram deyən vaxtda, gərək bədən sakit olsun. Əgər qəsdən bədəni hərəkətdə olan zaman təkbirətul-ehram desə, batildir.

## Qiyam

Təkbirətul-ehram deyilən vaxtdakı qiyam ilə rukuya bitişik qiyam adlanan, rükudan qabaqkı qiyam rükndür.

**Məsələ:** Təkbirətul-ehram və ya qiraət üçün ayaq üstə durarsa, bədənə hərəkət vermək ya bir tərəfə əyilmək və bir yerə söykənmək olmaz. Amma əgər əlacsız olsa, eybi yoxdur.

**Məsələ:** İnsan, ayaq üstə namaz qılmağa imkanı olduğu təqdirdə, oturaraq namaz qılmamalıdır. Həmçinin oturaq namaz qıla bildiyi zaman, uzanaraq namaz qılmamalıdır. Əgər düzgün otura bilmirsə, hər nə qədər imkanı varsa, o cür oturub namazını qılsın.

**Məsələ:** Əgər insanın vaxtın axırında ayaq üstə namaz qıla biləcəyinə ümüd varsa, gərək namazı tə`xirə salsın. Amma əgər vaxtın axırında ayaq üstə durmağa imkanı olmasa, gərək öz vəzifəsinə uyğun namazını yerinə yetirsin.

## Qiraət

Gündəlik vacib namazların 1-ci və 2-ci rük`ətlərində insan, əvvəl "Həmd" i və sonra bir surəni tamam oxumalıdır. Amma müstəhəbb namazlarda surəni oxumaq vacib deyil.

**Məsələ:** Kişinin sübh, şam və xiftən namazlarında, həmd və surəni ucadan oxuması vacibdir. Kişi və qadının zöhr və əsr namazlarında isə, həmd və surəni alçaqdan oxuması vacibdir.

**Məsələ:** Əgər namaz vaxtı dar olsa, yaxud zəruri bir iş qarşıya çıxsa, yaxud insan surəini oxumamaq məcburiyyətində qalarsa, məsələn; surəni oxuduğu təqdirdə, oğru və ya yırtıcı heyvanın ona zərər verəcəyindən qorxarsa, surəni oxumaya bilər.

**Məsələ:** İnsan namazı düzgün oxumaq üçün onu yaxşı öyrənməlidir, əgər öyrəndiyi bir kəlməni düzgün hesab edib namazda həmin şəkildə oxuya və sonra başa düşə ki, səhv oxuyubdur gərək namazı yenidən qılsın. Əgər namazın vaxtı keçmiş olarsa, qəzasını qılmalıdır.

**Məsələ:** İnsan namazın 3-cü və 4-cü rük`ətində bir həmd oxuya bilər ya ehtiyat vacibə əsasən, 3-dəfə "Təsbihati - ərbəə" desin, yə`ni 3-dəfə "Sübhanəllahi vəlhəmdu – lillahi və la ilahə illəllahu, vəllahu əkbər", desin.

**Məsələ:** İnsanın gündəlik namazlarının heç birində Qül hüvəllahu əhəd "İxlas" surəsini oxumaması məkruhdur.

## Həmd surəsi

بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ
اَلْحَمْدُ لله رَبِّ الْعَالَمِينَ
الرَّحْمَنِ الرَّحِيمِ
مَالِكِ يَوْمِ الدِّينِ

إِيَّاكَ نَعْبُدُ إِيَّاكَ نَسْتَعِينُ
إِهدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ
صِرَاطَ الَّذِينَ أَنعَمْتَ عَلَيهِمْ غَيرِ المَغضُوبِ عَلَيهِمْ وَلاَ الضَّالِّينَ

**Məsələ:** İnsanın namazda istədiyi hər bir surəni oxumasında ixtiyarı var, amma səcdəsi olan surələrin oxunması caiz deyildir.

## Tövhid surəsi

بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ
قُلْ هُوَ اللَّهُ أَحَدٌ
اللَّهُ الصَّمَدُ
لَمْ يَلِدْ وَلَمْ يُولَدْ
وَلَمْ يَكُن لَهُ كُفُوًا أَحَدٌ

## Rüku

**Məsələ:** Namaz qılan, hər rük`ətdə qiraətdən sonra əlini dizinin üzünə qoya biləcək qədər əyilməlidir. Bu əmələ rüku deyilir.

**Məsələ:** Əgər insan rükunu normal şəkildə yerinə yetirməsə, məsələn: sola və sağa əyilsə, əllərini dizə qoysa da, namazı batildir.

**Məsələ:** Oturaq halda rüku edən şəxsin, üzü dizlərinin müqabilinə yetişincəyə qədər əyilməsi lazımdır. Normal halda, ehtiyat vacibə əsasən rükuda üç dəfə "Sübhənəllah" və ya bir dəfə "Subhanə rəbbiyəl - əzimi və bihəmdih" desin. Rükunun zikri ardıcıl surətdə və ərəbcə düzgün deyilməlidir.

**Məsələ:** Rüku halında namaz qılanın bədəni vacib zikr miqdarında sakit olmalıdır, əgər bir şəxs ayaq üstə rüku edə

bilmirsə gərək ayaq üstə namaz qılsın və rükunu oturan yerdə əncam versin.

## Səcdələr

Namaz qılan şəxs, müstəhəbb və vacib namazların hər rük`ətində rükudan sonra iki səcdə etməlidir. Səcdə odur ki, alını xüzu (təvazö) qəsdi ilə yerə qoysun.

**Məsələ:** Səcdədə əllərin içi, dizlərin və ayaqların iki böyük barmaqlarını yerə qoyması vacibdir.

**Məsələ:** İki səcdə bir rükndür. Əgər bir şəxs vacib namazda qəsdən və ya yaddan çıxmış olaraq bir rük`ətdə hər ikisini tərk etsə, yaxud digər iki səcdə artırmış olsa, namaz batildir.

**Məsələ:** Vacib ehtiyat odur ki, ixtiyar halında, səcdədə üç dəfə ″Subhanəllah″ yaxud bir dəfə ″Subhanə rəbbiyəl - ə`la və bihəmdih″ desin.Bu kəlmələr ardıcıl və ərəbcə düz deyilməlidir.

**Məsələ:** Səcdə halında gərək namaz qılanın bədəni hərəkətsiz olsun, əgər alını yerə çatmamışdan və bədəni sakit olmamışdan əvvəl qəsdən səcdənin zikrini desə və ya zikri tamam etməmişdən qabaq qəsdən başını səcdədən götürsə, namaz batildir.

**Məsələ:** Birinci səcdənin zikri qurtardıqdan sonra gərək otursun, bədən aram olsun və ikinci dəfə səcdəyə getsin.

**Məsələ:** Namaz qılanın alınının yeri, gərək ayağının baş barmaqlarının yerindən dörd barmağından yuxarı olmasın. Həmçinin vacibdir ki, alnının yeri, ayağının baş barmağlarının yerindən dörd bağlı barmaq aşağı olmasın.

**Məsələ:** Alnını yerə çatdıra bilməyən şəxs, gərək bacardığı qədər əyilsin və möhür ya başqa bir səcdəsi səhih olan şeyi, hündür şeyin üstünə qoyaraq səcdə etməlidir.

**Məsələ:** Səcdə etməyi bacarmayan şəxs gərək səcdə üçün başı ilə işarə etsin. Əgər bacarmasa, gərək gözləri ilə işarə etsin, hər iki təqdirdə vacibdir ki, imkan daxilində möhrü qaldırıb alnına qoysun.

## Üzərinə səcdə caiz olan şeylər

**Məsələ:** Yerə və yerdən bitən şeylərə səcdə edilməlidir və bir neçə şeylərə səcdə etmək caiz deyildir.

1. Yeyilən şeylərə: məsələn, meyvələr, dənə və dən.

2. Geyiləsi şeylərə: məsələn, pambıq, kətan, yun və bunun kimi şeylər.

3. Mə`dənlər (yerdən hesab olunan şeylər): məsələn, qızıl, gümüş, əqiq və firuzə kimi əşyalar.

**Məsələ:** Ağac və samandan düzəldilmiş kağız üzərinə səcdə etməyin eybi yoxdur. Amma pambıqdan düzələn kağıza səcdə etmək səhih deyildir.

## Təşəhhüd

**Məsələ:** Bütün vacib və müstəhəbb namazların ikinci rük`ətində, şam namazının üçüncü rük`ətində, zöhr, əsr və xiftən namazlarının dördüncü rük`ətində gərək insan ikinci səcdədən sonra oturub bədəni aram olan vaxt təşəhhüd desin, yə`ni: "Əşhədu ən la ilahə illəllahu vəhfəhuy la şərikə ləh, və əşhədu ənnə Mühəmmədən əbduhu və rəsuluh. Əllahummə səlli əla muhəmmədin və ali Muhəmməd" desin.

**Məsələ:** Təşəhhüd kəlmələri gərək ərəbcə düzgün deyilsin və adi şəkildə olduğu kimi ardıcıl deyilməlidir.

**Məsələ:** Əgər bir şəxs təşəhhüdü unutsa və ayaq üstə dursa, rükudan əvvəl yadına düşsə ki, təşəhhüdü deməmişdir, gərək otursun və təşəhhüdü desin və ikinci dəfə ayağa qalxsın və o rük`ətdə oxuyacağını oxusun və namazı tamam etsin.Ehtiyat vacibə əsasən, namazdan sonra iki səhv səcdəsi yerinə yetirsin.

**Məsələ:** Əgər rükuda və rükudan sonra yadına düşə ki, təşəhhüdü unudubdur, gərək namazı qurtarsın və namazın salamından sonra təşəhhüdü qəza etsin və iki səhv səcdəsi də yerinə yetirsin.

## Namazın salamı

Namazın axırıncı rük`ətində təşəhhüddən sonra, bədən hərəkətsiz olaraq desin:

**"Əssəlamu ələykə əyyuhənnəbiyyu və rəhmtullahi və bərəkatuh."**

Ondan sonra

**"Əssəlamu ələyna və əla ibadillahissalihin."**

Ondan sonra

**"Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh."**

**Məsələ:** Təşəhhüdün əvvəlində ″Əlhəmdulillah″ və ″Əssəlamu ələykə əyyuhənnəbiyyu və rəhmətullahi və bərəkatuh″ demək müstəhəbbdir. Salamın axırıncısını ″Əssəlamu ələykum və rəhmətullahi və bərəkatu″ demək kifayətdir.

## Tərtib

Namazın hissələri gərək qeyd olunan şikildə yerinə yetirilsin, əgər qəsdən namazın tərtibini pozsa, namaz batildir.

## Muvalat

İnsan namazı muvalat (ardıcıllıq) ilə qılmalıdır, yə`ni namazın rüku, səcdələr və təşəhhüd kimi əməllərini ardıcıl yerinə yetirməlidir. Namazda oxuduğu şeylərin arasında, namazın forması pozulduğu qədər fasilə verməsin.

**Məsələ:** Rüku və səcdələri uzatmaq və böyük surələri oxumaq, muvalatı pozmaz.

On birincisi isə rüku və səcdələrin zikridir qabaqda hökmləri deyildi.

## Qünut

**Məsələ:** Bütün vacib və müstəhəbb namazlarda ikinci rük`ətin rükusundan əvvəl, müstəhəbbidir ki, qünut tutsun. Amma ″vitr″ namazında bir rükətdə olduğuna baxmayaraq, qünut müstəhəbbdir.″Cümə″ namazında hər rük`ətdə bir qünut vardır.

**Məsələ:** Müstəhəbdir ki, qünutda əlləri üzün müqabilinə tutsun və onların içini göyə tərəf, bir-birinə yaxın saxlasın və baş barmaqdan başqa, o biri barmaqları bir-birinə birləşdirsin və əllərin içinə baxsın.

**Məsələ:** Qünutda hər hansı zikri desə, hətta bir ″Subhanəllah″ da desə kifayətdir. Daha yaxşı odur ki, belə desin: ″La ilahə illəllahu həlimul-kərim, la ilahə illəllahul - əliyyul-əzim, subhanəllahu rəbbis-səmavatis-səb, və rəbbil -

ərəzinəs-səb, və ma fihinnə və ma bəynəhunnə və rəbbil-ərşil -əzim. Vəlhəmdu lillahi rəbbil-aləmin".

## Namazın tə`qibatı

**Məsələ:** Müstəhəbbidir ki, insan namazdan sonra bir qədər tə`qibatla məşğul olsun. Yə`ni zikr, dua və Qur`an oxusun. Daha yaxşı odur ki, öz yerindən hərəkət etməmişdən və dəstəmazı, qüsl və ya təyəmmümü batil olmamışdan əvvəl, tə`qibi üzü qibləyə oxusun. Müstəhəbb tə`qiblərdən biri, həzrəti-Zəhra (səlamullah ələyha)-ın təsbihidir; yə`ni otuz dörd dəfə "Əllahu əkbər", otuz üç dəfə "Əlhəmdu lillah", otuz üç dəfə "Subhanəllah" desin.

**Məsələ:** Namazdan sonra şükr səcdəsi etmək müstəhəbbdir. Belə ki, şükr səcdəsi məqsədi ilə alnını yerə qoyması kifayətdir. Amma yüz dəfə və ya yüz üç dəfə "Şükrən-lillah" yaxud "Əfvən" deməsi daha yaxşıdır.

## Namazı batil edən şeylər

On iki şey namazı batil edir və onlara mübtilat deyilir:

**1. "Hədəs"**

Yəni İstər qəsdən və istərsə səhvən dəstəmaz və qüslu batil edən şeylərdən biri baş verərərsə.

**2. "Təkfir"**

Yəni namazın hissəsindən bilərək əlləri bir-birinin üzərinə qoymaq. Əgər bu işi ədəb qəsdilə də görsə ehtiyat vacibə əsasən gərək namazı yenidən qılsın.

**3. "Qiblədən üz döndərmək"**

Əgər insan qəsdən və ya unutqanlıq üzündən arxaya, sağa və ya sola bütövlüklə dönərsə, namazı batildir.

**4. "Danışmaq"**

Əgər insan qəsdən bir və ya daha çox hərfdən ibarət olan bir kəlmə ifadə edərsə həmin kəlmənin mə`nası olmasa da namazı batildir. Amma əgər səhvən danışarsa namazı batil olmaz, yalnız səhv səcdəsi deyəcəkdir.

**Məsələ:** Namaz halında insan gərək başqasına salam verməsin. Əgər başqası ona salam versə, gərək cavab versin. Amma cavab gərək salam mislində olsun.

**5. "Həmddən sonra "Amin" demək"**

Namaz qılan şəxs həmd surəsini oxuyandan sonra, amin kəlməsini namazın hissəsindən bilmək qəsdilə deyərsə namazı batildir.

**6. "Gülmək"**

Qəsdən səslə gülmək namazı batil edir. Amma səssiz gülməyin eybi yoxdur.

**7. "Ağlamaq"**

İnsan əgər qəsdən dünya işləri üçün ucadan ağlayarsa namazı batildir. Ehtiyat vacibə əsasən dünya işləri üçün səssiz də ağlamaq olmaz. Amma əgər Allah qorxusundan və ya axirət üçün ağlayarsa eybi yoxdur.

**8. "Namazın formasını pozmaq"**

İnsan əgər namazın surətini pozan bir iş görərsə, məsələn: əl çala və ya havaya – tollana, istər qəsdən olsun və yaxud unutqanlıq üzündən, namazı batil edər. Amma əl ilə işarə etməyin eybi yoxdur.

**9. "Yemək və içmək"**

Əgər namaz əsnasında bir şey yeyə və ya içərsə, istər az olsun, istərsə də çox, qəsdən olsun və ya səhvən namazı batil olur. Amma yeməyin qalıqını udarsa namazı batil olmaz.

**10. "Rəkətlərdə şəkk"**

İki və üç rük`ətli namazların rük`ətində şəkk etmək, ya dörd rük`ətli namazların əvvəl rük`ətində şəkk etmək namazı batil edir.

**11. "Namazın rüknünü azaltmaq və artırmaq"**

**Məsələ:** Namazı batil edən şeylərdən biri də, namazın rüknunu qəsdən ya səhvən azaltmaq ya rükn olmayan bir şeyi qəsdən azaltmaq və ya bir şeyi namazda qəsdən artırmaqdır.

**12. "Namazın şərtlərinin pozulması"**

Əgər namazın əsnasında onun şərtlərindən biri aradan gedə, məsələn: namaz əsnasında başa düşə ki, libası qəsbidir namazı batildir.

# Şəkkiyat

Namazın şəkkiyatı 23 növdür: o şəkklərin səkkizi namazı batil edir, altısına gərək e`tina olunmasın və qalan 9 növündə isə namaz səhihdir.

## Namazı batil edən şəklər

1. İki rük`ətli vacib namazların sayında şəkk etmək. Məsələn, sübh və müsafir namazı. Amma müstəhəbb namazların rük`ətlərinin sayında və ehtiyat namazının rük`kətlərində şəkk etmək namazı batil etmir.

2. Üç rük`ətli namazın rük`ətlərinin sayında şəkk etmək.

3. Dörd rük`ətli namazda bir rük`ət və ya çox qıldığına şəkk etmək.

4. Dörd rük`ətli namazda ikinci səcdəyə daxil olmazdan qabaq iki rük`ət ya çox qıldığna şəkk etmək.

5. İki-beş ya iki və beşdən çox arasında şəkk etmək.

6. Üç-altı ya üç və altıdan çox arasında şəkk etmək.

7. Namazın rük`ətlərində, neçə rük`ət qılmasında şəkk etmək.

8. Dörd-altı ya dörd və altıdan çox arasında şəkk etmək.

**Məsələ:** İnsan batil edən şəkklərlə qarşılaşarsa, namazı poza bilməz. Bəlkə namazın forması pozulmayana və ya yəqin və zənn hasil etməkdən ümüdsüz oluncaya qədər düşünməsi daha yaxşıdır.

## E`tina olunmayan şəklər

**Məsələ:** E`tina olunmayan şəklər bunlardır:

1. Yerinə yetirməsinin vaxtı keçmiş olna əməldə şəkk: məsələn, rükuda həmdi oxuyub-oxumadığına şəkk edərsə.

2. Namazın salamından sonra şəkk etmək.

3. Namazın vaxtı keçəndən sonra şəkk etmək.

4. Kəsirüş-şəkkin şəkk etməyi, yəni o kəs ki, çox şəkk edir.

5. Camaat namazında mə`mum rük`ətlərin sayını bilirsə, imamın, yaxud imam rük`ətlərin sayını bilirsə, mə`mumun rük`ətlərin sayı haqqında etdiyi şəkk.

6. Müstəhəbb və ehtiyat namazlarındakı şəkk.

## Səhih olan şəklər

1. İki səcdənin zikrini dedikdən sonra, iki rük`ət yaxud üç rük`ət qıldığı barədə şəkk edərsə, üç rük`ət qıldığını əsas götürməli və əlavə olaraq bir rük`ət də qılıb namazı tamamlamalıdır. Namazdan sonra da bir rük`ət ayaq üstə ehtiyat namazı qılmalıdır.

2. İki səcdənin zikrini dedikdən sonra, iki və dörd arasında şəkk etsə, gərək dörd rük`ət qıldığını əsas tutsun və namazdan sonra ayaq üstə iki rük`ət ehtiyat namazı qılsın.

3. İki səcdənin zikrini dedikdən sonra, iki, üç və dörd arasında şəkk etsə, gərək dörd rük`ət qıldığını əsas tutsun və namazdan sonra iki rük`ət ayaq üstə və sonra iki rük`ət də oturan halda ehtiyat namazı qılsın.

4. İkinci səcdənin zikrini dedikdən sonra dörd və beş arasında şəkk edərsə, dörd qəbul edib namazı tamamlamalıdır. Namazdan sonra isə iki səhv səcdəsi yerinə yetirməlidir. Amma əgər birinci səcdədən sonra yaxud ikinci səcdənin zikrini bitirməmişdən əvvəl şəkk edərsə, namazı batildir.

5. Üç və dörd arasında namazın hər hansı yerində olursa olsun, gərək dörd rük`ət qıldığını əsas götürsün və namazı tamam edib, namazdan sonra bir rük`ət ayaq üstə yaxud iki rük`ət oturduğu yerdə, ehtiyat namazı qılsın.

6.Ayaq üstə dörd və beş rük`ət arasında şəkk etsə, gərək otursun və təşəhhüdü oxusun və namazın salamını versin.. Bundan sonra bir rük`ət ayaq üstə yaxud iki rük`ət oturan yerdə ehtiyat namazı qılsın.

7. Ayaq üstə üç və beş rük`ət arasında şəkk etsə, gərək oturub təşəhhüdü oxusun və namazın salamını versin. Sonra ayaq üstə iki rük`ət ehtiyat namazı qılsın.

8. Ayaq üstə üç, dörd və beş rük`ət arasında şəkk etsə, gərək otursun və təşəhhüdü oxusun və namazın salamını versin. İki rük`ət ayaq üstə və sonra iki rük`ət oturan yerdə ehtiyat namazı qılsın.

9. Ayaq üstə beş və altı rük`ət arasında şəkk etsə, gərək otursun, təşəhhüdü oxusun və namazın salamını versin. Sonra iki səhv səcdəsi yerinə yetirsin. Həmçinin ehtiyata əsasən bu

dörd halda iki səhv səcdəsi də yersiz ayaq üstə durduğu üçün yerinə yetirsin.

**Məsələ:** Qeyd olunan doqquz surətdə əgər namazın rük`ətlərində şəkk etsə, gərək tez fikirləşsin əgər şəkkində yəqini və ya gümanı bir tərəfə olsa həmin tərəfi əsas tutsun və namazı tamam etsin. Əks təqdirdə zikr olunan göstərişlərə əməl etməlidir.

## Ehtiyat namazının göstərişi

**Məsələ:** Ehtiyat namazı üzərinə vacib olan şəxs, namazın salamından sonra dərhal ehtiyat namazı niyyəti edib, təkbir deməli, həmd surəsini ahəstə oxuyaraq rukuya getməli, sonra iki səcdə etməlidir. Amma əgər ona bir rük`ət ehtiyat namazı vacibdirsə, iki səcdədən sonra təşəhhüd oxuyub salam versin və namazı bitirsin.

**Məsələ:** Ehtiyat namazının surə və qunutu yoxdur.Gərək onu səssiz oxumalı və namazı batil edən əməlləri görmədən niyyət etməli və niyyətini də dillə söyləməməlidir. Onun ″Bismillahını″ da səssiz söyləmək ehtiyat vacibdir.

**Məsələ:** Əgər ehtiyat namazında bir rük`ət artırarsa, və ya bir rük`ətin əvəzinə iki rük`ət qılarsa, ehtiyat namazı batil olar və gərək ikinci dəfə ehtiyat namazı habelə namazın əslini qılsın.

## Səhv səcdəsi

**Məsələ:** Namazın salamından sonra insan gərək beş şey üçün, bir cüt səhv səcdəsi sonra deyiləcək göstərişlə yerinə yetirsin.

1. Namaz arasında səhvən danışsa.

2. Namazın salamını verəsi olmayan yerdə salam versə.

3. Təşəhhüdü unudsa.

4. Dörd rük`ətli namazda ikinci səcdənin zikrini dedikdən sonra, dörd ya beş rük`ət qıldığı barədə şəkk edərsə.

5. Əgər bir səcdəni unudarsa və ya oturması lazım olan yerdə səhvən ayağa qalxa, yaxud qalxması lazım olan yerdə oturarsa. Bu üç surətdə ehtiyat vacibə əsasən səhv səcdəsi etməlidir.

**Məsələ:** Əgər namaz qılan səhv səcdəsini qəsdən yerinə yetirməsə, günah etmişdir. Vacibdir onu dərhal yerinə yetirsin.

## Səhv səcdəsinin qaydası

Namazın salamından sonra dərhal az və çoxaltdığı bir şey üçün qurbətən iləllah deyib səhv səcdəsi edirəm niyyəti etməlidir. Sonra alnını səcdəsi səhih olan bir şeyin üzərinə qoysun. Səcdədə bu zikri ″Bismillahi və billahi. Əssəlamu ələykə və əyyuhənnəbiyyu və rəhmətullahi və bərəkatuh″ desin. Sonra başını səcdədən qaldırıb təkrarən səcdəyə gedib, söylədiyi zikri yenidən oxuduqdan sonra oturmalı və təşəhhüdü dedikdən sonra, salamın axırıncı zikrini desin.

**Məsələ:** İnsan unutduğu səcdə və təşəhhüdün qəzasını namazdan sonra edərkən, bədən və libasının pak olması və qibləyə yönəlməsi kimi, namazın bütün şərtlərinə riayət etməlidir.

**Məsələ:** İnsan unudulmuş təşəhhüd və səcdəni qəza edən vaxtda, ehtiyat vacibə əsasən onlardan hər hansı birini əvvəl unutmuşdursa gərək onu yerinə yetirsin.

## Müsafir namazı

**Məsələ:** Müsafir zöhr, əsr və xiftən kimi dörd rük`ətli namazını səkkiz şərtlə şikəstə qılmalıdır:

Onun səfəri səkkiz şər`i fərsəxdən az olmasın: Şər`i fərsəxin qədəri 5 km yarımdır.

**Məsələ:** Gedib-gəlməsi üst-üstə səkkiz fərsəx olan şəxs, əgər gedişi dörd fərsəxdən az olmasa, gərək namazı şikəstə qılsın. Səfərə çıxdığı gün yaxud həmin gecəsi qayıtmış olsada namazı şikəstə qılmalıdır.

2. Səfərinin əvvəlində qəsdi səkkiz fərsəx olmalıdır: Deməli səfərinin neçə fərsəx olacağını bilməyən şəxs, məsələn: bir itkini tapmaq üçün səfərə çıxır, yaxud müsafirət qəsdi olmayan, məsələn: huşdan getmiş bir şəxsi şər`i fərsəx qədər müsafirətə aparılarsa gərək namazı tamam qılsın.

3. Yolda öz qəsdindən dönməsin: Deməli, əgər müsafir dörd fərsəxə çatmazdan əvvəl öz qəsdindən dönsə, yaxud tərəddüt etsə, gərək namazı tamam qılsın.

4. Səkkiz fərsəxə çatmamış öz vətənindən keçməyə, ya on gün və daha çox bir yerdə qalmaya. Deməli vətəndən keçmək səfəri bölür ayırır və bu surətdə gərək namazı bütöv qılsın.

5. Səfəri haram bir iş üçün olmamalıdır: Əgər oğurluq, başqasına zülm etmək və ata – anaya ağvalideynlik səbəbi olan səfər olarsa, səfərə getməsin.

**Məsələ:** Vacib olmayan səfər, əgər ata – ananın əziyyət çəkməsinə səbəb olarsa, yaxud qadın ərindən icazəsiz olaraq səfərə gedərsə, həmçinin əgər vacib bir şeyi tərk etmək üçün məsələn, börcu qaytarmaqdan boyun qaçırmaq üçün səfərə çıxarsa, bütün bu yerlərdə namazı tamam qılmalıdır.

6. Köçəri olan bir şəxs, mənzil və heyvanlarına otlaq yeri tapmaq üçün səfər edən səhranişin şəxslərdən olmasın.

7. Məşğuliyyəti səfər olmamalıdır: Məsələn, sürücü, gəmiçi və həftənin çox günlərini səfərdə olan şəxslər, gərək səfərdə namazlarını tamam qılsınlar.

**Məsələ:** Məllimlər, tələblər və tacirlər kimi yaşayışı bir yerdə və işi başqa yerdə olan və hər həftə bir ya iki gün səfərə gedən şəxslər, gərək səfərdə namazlarını bütöv qılsınlar.

Həddi-tərəxxüsə yetişməsi: yə`ni vətəndən və ya digər yerdən on gün qalmağını qəsd edərsə, gərək azanın səsini eşitməmək və şəhərin divarını görməmək həddində uzaqlaşsın.

**Məsələ:** Vətəninə qayıdan müsafir, vətəninin divarını görüb və ya azanın səsini eşitdikdə gərək namazı tamam qılsın.

**Məsələ:** Səfərdən qayıdan şəxs, həddi-tərəxxüsə yetişib-yetişməməyindən şəkk edərsə, gərək namazını şikəstə qılsın. Həmçinin səfərə gedən şəxs, əgər həddi-tərəxxüsə yetişib-yetişməməyində şəkk edərsə, gərək namazını tamam qılsın.

**Məsələ:** İki yerdə yaşayan şəxs, məsələn, altı ay bir şəhərdə və altı ay da başqa şəhərdə qalsa, hər ikisi ona vətəndir. Gərək hər iki şəhərdə namazını bütöv qılsın.

**Məsələ:** On gün bir yerdə qalmaq istəyən müsafir, əgər bütün on günü bir yerdə qalmaq istəyərsə, namazını tam qılmalıdır. Belə ki, əgər Nəcəf və Kufədə on gün qalmaq istəyərsə, namazını şikəstə qılmalıdır.

**Məsələ:** On gün bir yerdə qalmaq istəyən müsafir, qalacağı on gün ərzində həddi-tərəxxüsü və ya daha çox miqdarda uzaq olan yerin ətrafında getməyi əvvəldən qəsd etmişdirsə, əgər gedib-gəlmək müddəti bir ya iki saat ola və bu camaatın nəzərində on gün qalmasına zidd olmasa, gərək namazını tam qılsın.

**Məsələ:** Bir yerdə on gün qalmağı qərarlaşdıran müsafir, əgər dörd rük`ətli bir namaz qılmadan qərarından dönərsə, gərək namazını şikəstə qılsın. Amma əgər dörd rük`ətli bir namaz qıldıqdan sonra qərarından dönərsə, orada qaldığı müddətdə namazlarını tam qılmalıdır.

**Məsələ:** Əgər müsafir təsadüfən otuz gün bir yerdə qalsa, otuz günün tamamında getmək və qalmağa tərəddüd edərsə, otuz gün keçəndən sonra, əgər bu müddətin hamısını bir yerdə qalsa, hərçənd orada az bir müddət qalsa belə, namazını tamam qılmalıdır.

## Müxtəlif məsələlər

**Məsələ:** Müsafir dörd məkanda namazını tamam ya şikəstə qılmasında ixtiyarlıdır.

1. Məscidül – həramda.
2. Məscidün – Nəbiydə.
3. Kufə məscidində.

**Məsələ:** Müsafir əgər əvvəldə məscidlərin hissəsindən olmayıb sonradan bu məscidlərə artırılan yerdə namaz qılmaq istəyərsə, ehtiyat vacibə əsasən namazını qəsr qılmalıdır.

4. Həzrət Seyyid-üş-şühədanın (ə) hərəmində (yəni müqəddəs zərihin ətrafında). Amma əgər müqəddəs zərihin ətrafından daha uzaqda namaz qılarsa, ehtiyat vacibə əsasən qəsr qılmalıdır.

**Məsələ:** Müsafir olduğunu və namazını qəsr qılmasını bilən şəxs, əgər səhvən namazını tam qılarsa namazı batildir.

**Məsələ:** Səfərdə namazını qəsr qılmalı olduğunu bilməyən bir müsafir, əgər tam qılarsa, namazı səhihdir.

**Məsələ:** Müsafir olduğunu unudub namazı tam qılarsa, belə ki, namaz vaxtı əsnasında xatırlayarsa gərək namazı şikəstə qılsın. Amma əgər vaxt keçdikdən sonra bilərsə, qəza etməsi lazım deyildir.

**Məsələ:** Namazını tam qılmalı olan bir şəxs, namazını qəsr qılarsa, namazı batildir.

## Qəza namazı

**Məsələ:** Qəsdən yaxud səhvən namazını vaxtında qıla bilməyən şəxs, namazın bütün vaxtı ərzində yuxuda olmaq səbəbindən olsa belə də gərək namazın qəzasını qılsın.

**Məsələ:** Əgər bir şəxs qıldığı namazları təqlid edəcəyi bir müctəhidin göstərişinə və şərtlərinə uyğun yerinə yetirməyibdirsə, gərək namazların qəzasını qılsın.

**Məsələ:** İnsan, qılmadıqları namazları (qəza etdikləri namazları) gərək eynilə yerinə yetirsin. Məsələn, namazı əgər səfərdə qəza olubdursa, gərək onun qəzasını qəsr yerinə yetirsin. Həmçinin ucadan qılınan namazları ucadan və ahəstə qılınan namazları isə ahəstə qılmaldır.

**Məsələ:** Qəza namazları qılmaq üçün müəyyən bir vaxt nəzərdə tutulmayıbdır. Deməli hər məkan və zamanda istər insan səfərdə olsun və istərsədə olmasın qəza namazların qıla bilər.

**Məsələ:** Büluğ yaşına yetişdikdən sonra insan əgər namazını qəza edərsə, gərək qəzasını qılsın. Amma heyz və nifas halında qadının qılmadıqları namazlarını qəzası yoxdur.

**Məsələ:** İnsan həyatda ikən öz qəza namazlarını qılmaqdan aciz olsa belə, başqası onun namazlarının qəzasını qıla bilməz.

## Ata və ananın qəza namazları

**Məsələ:** Ata və ananın qəza etdikləri namaz və orucu böyük oğlanın yerinə yetirməsi vacibdir. Ehtiyac vacibə əsasən ata və ananın itaətsizlik üzündən aradan gedən və qəza etmələrinə imkanları olmasına baxmayaraq namaz və oruclarının qəzası böyük oğlana vacibdir.

**Məsələ:** Böyük oğula ata və anasının namaz və oruclarını özü qılması vacib deyildir, deməli onların oruc və namazalrının qəzasını yerinə yetirmək üçün əcir tutarsa kifayət edər.

**Məsələ:** Əgər böyük oğul, ata və anasının namaz və orucunun qəzaya gedib-getmədiyindən şəkk edərsə, onun boynuna bir şey vacib deyildir.

**Məsələ:** Böyük oğlanın ata və ya anasının öldüyü vaxtda baliğ (həddi-bluğa çatmış) və ağıllı olması lazım deyil. Deməli, baliğ və ağıllı olandan sonra böyük oğlana onların qəza namazını qılması vacibdir.

**Məsələ:** Əgər böyük oğul ata və anasının namazını qəza etməmişdən qabaq ölsə, ikinci oğula heç nə vacib deyil.

## Ayət namazı

Ayət namazı dörd şeyin vasitəsi ilə vacib olar.

1. Günəşin tutulması;

2. Ayın tutulması, qismən tutulsa və ondan heç kim qorxmasa da.

3. Zəlzələ zamanı, əgər bir kəs qorxmasa da.

4. Göy gurultusu, ildırım, qara və qırmızı küləklər və bunun kimi səma hadisələri baş versə. Həmçinin dənizin suyu çəkilsə və dağların uçulması kimi yer hadisələri, əlbəttə camaatın çoxunun qorxmasına səbəb olsa.

**Məsələ:** Günəş və ya ay tutulmağa başladığı zamandan insan gərək ayət namasını oxusun. Ehtiyat vacibə əsasən onların açılmağa başladıqları zamana qədər tə`xirə salmasın.

**Məsələ:** Zəlzələ, göy gurultusu və şimşək çaxması baş verdiyi zaman, xalqın nəzərində tə`xirə salmaq sayılmayacaq şəkildə dərhal ayət namazını qılması gərəkdir.

**Məsələ:** İnsan üçün Ay və ya Günəşin tutulması əgər bir qrup şəxsin söylədikləri ilə yəqinlik və xatircəmlik hasil olarsa, ayət namazı insana vacib olur.

## Ayət namazının üsulları

**Məsələ:** Ayət namazı iki rük`ətdir və hər rük`ətdə veş rüku vardır. İnsan ayat namazını iki üsullla yerinə yetirə bilər.

Birinci üsul: İnsan niyyətdən sonra təkbir desin və bir həmd və bir surəni tamam oxusun, rükuya gedib zikrini desin, rükudan qalxsın və yenidən bir həmd və bir surə oxusun, sonra yenə rükuya getsin. Beləliklə, beş dəfə bu formada həmd, surə və rükunu təkrarlasın. Sonra səcdəyə gedib iki səcdə etsin və ikinci rük`ət üçün qalxsın, ikinci rük`əti də birinci rük`ət kimi yerinə yetirsin, sonra təşəhhüd və salam oxusun və namaz tamam olur.

İkinci üsul: İnsan niyyət, təkbir və həmddən sonra, Qur`anın surələrindən bir surəni beş yerə bölsün və surənin bir ayəsini oxuyub sonra rükuya getsin və rükudan qalxandan sonra həmin surədən ikinci hissəsini oxusun və rükuya getsin və bu qayda ilə beş rüku yerinə yetirəcək. Məsələn; «Qül hüvəllahu əhəd» surəsini qəsd ediərək, "Bismillahir-rəhmanir-rəhim" - desin və rükuya getsin, sonra qalxsın və desin: "Qül hüvəllahu əhəd" – yenidən rükuya getsin və rükudan sonra qalxsın və desin:

"Əllah-əs-Səməd". Yenidən rükuya getsin və qalxıb desin: "Ləm yəlid və ləm yuləd". Rükuya gedib, yenə də qalxıb desin: "Və ləm yəkun ləhu kufuvən əhəd". Ondan sonra beşinci rükuya getsin və sonra iki səcdə etsin və ikinci rük`əti birinci rük`ət kimi yerinə yetirsin. İkinci səcdədən sonra təşəhhüd oxusun və sonra namazın salamını versin.

**Məsələ:** Ayət namazının rükularından hər biri rükndür. Əgər qəsdən ya səhvən az və ya çox etsə, namaz batildir.

**Məsələ:** Ayət namazında qunut oxumaq, digər namazlardakı kimi müstəhəbbdir.

# ORUCUN HÖKMLƏRİ

Oruc, insanın Allah-təalanın əmrini yerinə yetirmək üçün sübh azanından şam azanına qədər,orucu batil edən şeylərdən çəkinməsidir.

Mübarək Ramazan ayının orucu aşağıdakı şərtlər ilə vacib olur:

1. Baliğ (həddi-buluğa çatmış olsun): Yəni oğlan uşağı qəməri ili ilə on beş yaşın bitirib, on altı yaşa daxil olsun. Qız uşağı isə qəməri ili ilə doqquz yaşın bitirib, on yaşa daxil olsun.

2. Ağıllı (Yəni dəli olmasın): Deməli, dəli olan şəxsə oruc vacib deyil.

3. Müsafir olmasın: Deməli, səfərdə namazı qəsr (iki rük`ətli qılmalı) olan müsafirə oruc vacib deyil.

4. Orucun ona zərəri olmasın: Deməli, əgər insan oruc tutmaqla xəstələnməsindən qorxa və ya orüc tutmaqla xəstəliyi uzanacaqsa, oruc ona vacib deyil.

5. Bihuş olmasın: Beləliklə, əgər bir şəxs günün bir miqdarını hüşsuz olursa, oruc tutmaq ona vacib deyil.

6. Günün hamısında qadının heyz və nifas qanından pak və uzaq olması: Deməli, heyzli və nifaslı qadına (heyz və nifas halında olan) qadına oruc vacib deyil.

## Orucun niyyətinin vaxtı

Mübarək Ramazan ayının orucunun vaxtı gecənin əvvəlindən sübh azanına qədərdir.

**Məsələ:** İnsan orucluq ayının hər gecəsində sabahkı orucunu niyyət edə bilər. Yaxşı olar ki, ayın əvvəl gecəsi ayın bütün orucunu niyyət etsin.

**Məsələ:** Bir şəxs sübh azanından əvvəl orucunu niyyət etmədən yatsa, əgər zöhrdən əvvəl oyanıb niyyət edərsə, onun orucu səhihdir.

**Məsələ:** Müstəhəbbi orucun niyyətinin vaxtı, gecənin əvvəlindən məqribə (şam azanına) qədər niyyət etmək miqdarında olan vaxta qədərdir.

## Orucu batil edən şeylər

Doqquz şey orucu batil edir:

1. Yemək və içmək.

2. Cima.

3. İstimna (İstimna, insanın başqası ilə cima etmədən özündən məni xaric etməsinə deyilir).

4. Allaha, Peyğəmbərə və Peyğəmbərin (s) canişinlərinə (ə.s) yalan isnad vermək.

5. Tozun boğaza yetişməsi.

6. Başı tamamilə suya batırmaq.

7. Sübh azanına qədər, cənabət, heyz və nifas halında qalmaq.

8. İmalə etmək.

9. Qusmaq.

### Yemək və içmək

**Məsələ:** Əgər oruc tutan şəxs oruc olduğunu bilərək, qəsdən bir şey yesə ya içsə orucu batil olar, istər çox az olsun, istərsə də çörək və su kimi adi yeməklərdən olsun, istərsə də torpaq və onun kimi adi yeməklərdən olmasın.

**Məsələ:** Sinə və başdan gələn bəlğəmi ağız boşluğuna çatmamış udmağın eybi yoxdur. Amma vacib odur ki, əgər ağızın boşluğuna daxil olarsa, onu yenidən udmasın.

**Məsələ:** Ehtiyat vacib odur ki, oruc tutan şəxs qida və müalicə üçün istifadə olunan ampullardan çəkinsin. Amma üzvü hissiz edən ampuldan istifadə etməyin eybi yoxdur.

**Məsələ:** Əgər oruc tutan şəxs çox susuya və su içmədiyi qəqdirdə, öləcəyindən qorxarsa, bu vaxt ölümdən nicat tapmaq və aradan aparmaqdan ötrü bir az su içə bilər. Amma gərək orucu batil edən işlərdən çəkinsin.

**Məsələ:** Oruc tutan şəxs, boğazına bir şeyin tokülməsini və ya zorla orucunu batil etməsini bilən bir yerə gərək getməsin.

### Cima

Qəsdən cima etmək orucu batil edər; sünnət yeri miqdarında daxil olsa və məni gəlməsə də, istər halalı ilə olsun, istərsə də haramla.

### İstimna

Əgər oruc tutan şəxs, cimadan başqa ondan məninin xaric olması üçün bir iş görərsə, (yəni istimna edə) orucu batildir. Bu əməl orucu batil etməsindən əlavə, bütün vaxtlarda haramdır.

**Məsələ:** Yuxuda məninin xaric olması orucu batil etmir.

**Məsələ:** Məni xaricə çıxarmaq məqsədi ilə özü ilə oynayan şəxs, ondan məni gəlməsə belə, gərək orucu tamamlayıb və sonra qəzasını da tutsun.

### Allaha və Peyğəmbərə (s) yalan isnad vermək

Oruc tutan şəxs danışmaq, yazmaq və işarə etmək yolu ilə Allaha, Peyğəmbərlərə (s) və imamlara (ə) qəsdən yalan olan bir şeyi nisbət verərsə, sonra dərhal "yalan dedim" deyə ya tövbə etsə belə, orucu batildir.

**Məsələ:** Həzrət Zəhraya (səlamullahi əlayha) yalan bir şeyi nisbət vermək, ehtiyat vacibə əsas olaraq eyni hökmü daşıyır və orucu batil edir.

**Məsələ:** Oruc halında doğru və yalan olduğunu bilmədiyi bir rəvayətin nəqlini, əgər o rəvayəti eşitdiyi kimsəyə və ya oxuduğu kitaba nisbət verərsə eybi yoxdur.

### Tozu boğaza çatdırmaq

Qəsdən qatı tozu boğaza yetişdirmək orucu batil edir. Ehtiyat vacibə əsasən qatı olmayan tozdan da qorunmaq lazımdır.

**Məsələ:** Un kimi halal qatı tozla və torpaq kimi haram tozun arasında heç fərq yoxdur. Boğazdan məqsəd "xa" hərfinin tələffüz və zikr olunduğu yerdir.

**Məsələ:** Siqaret, tənbəki və bu kimi şeylərin tüstüsü və buxarı da orucu batil edir.

### Başı suya salmaq

**Məsələ:** Əgər oruc tutan qəsdən başını tamamilə suya salsa, əgər onun bədəninin qalanı sudan xaricdə olsa da, orucu batil olur.

**Məsələ:** Əgər oruc tutan şəxs qəsdən, Ramazan ayının orucu kimi müəyyən bir oruc halında irtiması qüsl verərsə, onun həm orucu və həm qüslü batil olur.

**Məsələ:** Əgər oruc tutan ixtiyarsız olaraq suya düşsə və su tamamilə onun başını əhatə edərsə ya oruc olduğunu yadından çıxarıb suya baş vursa, onun orucu batil olmur.

**Məsələ:** Əgər oruc tutan şəxs, oruc olduğunu unudaraq qüsl niyyəti ilə başını suya salsa, onun orucu və qüslü hər ikisi səhihdir.

**Məsələ:** Əgər suya batanı xilas etmək üçün oruc tutan başını suya salsa, müsəlman bir şəxsin xilası vacib olsa da, orucu batil olur.

### Sübh azanına qədər cənabət, heyz və nifas halında qalmaq

**Məsələ:** Əgər cünub olan şəxs, qəsdən sübh azanına qədər qüsl etməsə, orucu batildir.Vəzifəsi təyəmmüm olan bir şəxs də, qəsdən təyəmmüm etməzsə, orucu batil olar.

**Məsələ:** Ramazan ayı gecəsində cünub olan şəxs, yatdığı təqdirdə, sübhə qədər oyana bilməyəcəyini bilərsə, qüsl etməmiş yatmamalıdır. Əgər yatar və sübhə qədər oyanmasa, orucunun batil olması ilə yanaşı, qəza və kəffarə də ona vacib olur.

**Məsələ:** Ramazan ayı gecəsində qüsl və təyəmmümdən heç biri üçün vaxtı olmayan şəxs, özünü cünub edərsə, orucunun batil olması ilə yanaşı, qəza və kəffarə də ona vacibdir.

**Məsələ:** Ramazan ayı gecəsində bir şəxs, yatdığı təqdirdə, sübh azanından qabaq oyanacağına əmin olarsa, əgər oyandıqdan sonra qüsl etmə qərarında olub, bu qərarla yatar və sübhə qədər yuxudan ayılmazsa, orucu səhihdir.

**Məsələ:** Əgər cünub Ramazan ayında qüslunu unudsa və bir neçə gündən sonra yadına düşsə, gərək cünub olduğu bütün günlər üçün qəza etsin.

**Məsələ:** Heyz və nifas qanından pak olan qadın, gərək Ramazan ayının orucu üçün sübh azanından qabaq qüsl etsin.Əgər qüsl verə bilmirsə, gərək qüslun əvəzində təyəmmüm etsin, əks təqdirdə orucu batil olar.

**İmalə etmək (klizma)**

Axıcı şeylərlə imalə etmək, çarəsizlik və müalicə üzündən də olsa, orucu batil edər.

**Qusmaq**

Oruc tutan qəsdən qusarsa bu xəstəlik və bu kimi səbəblərdən olsa da, orucu batildir. Amma əgər ixtiyarsız və səhvən qusarsa, eydi yoxdur.

**Məsələ:** Əgər oruc tutan ösgürdüyü halda ağzına (ağız boşluğuna) bir az su ya yemək girərəsə, gərək çölə töksün və əgər qəsdən udsa, orucu batildir. Amma ixtiyarsız olaraq udsa orucu səhihdir.

**Məsələ:** Əgər oruc tutan qusmasının qarşısını ala bilsə, əgər ona zərəri və əziyyəti olmasa, daha yaxşı odur ki, qarşısını alsın.

## Oruc vacib olamayan şəxslər

1. 2. Qocalığına görə oruc tuta bilməyən və ya oruc tutmaq ona əziyyətli olan qoca kişi və qadına oruc tutmaq vacib deyildir. Amma ikinci halda gərək fəqirə hər gün üçün bir müdd təam (buğda ya arpa ya çörək) versin.

3. Xəstəliyi olan və xəstəliyinə görə çox susuz olub və susuzluğa dözə bilməsə ya ona çətin olsa, oruc ona vacib

deyildir. Amma gərək hər gün üçün fəqirə bir müdd təam versin.

4. Doğmaq vaxtı yaxınlaşan qadının özünə ya həmlinə oruc zərər yetrisə, oruc ona vacib deyildir, gərək hər gün üçün fəqirə bir müdd təam versin və gərək hər iki halda tutmadığı orucların qəzasını tutsun.

5. Uşağa süd verən və südü az olan qadının, istər uşağın anası olsun, istər dayəsi əgər oruc tutması özünə və ya süd verdiyi uşağa zərər verərsə, oruc tutmaq ona vacib deyildir.Amma hər gün üçün bir müdd təam fəqirə verməlidir. Hər iki halda tutmadığı orucları qəza etməlidir.

**Məsələ:** Səfərdə namazları iki rük`ət (şikəstə) qılmalı olan müsafir gərək oruc tutmasın, bunu bilərkədən oruc tutan şəxsin, orucu batildir.

**Məsələ:** Müsafirin orucunun batil olmasını bilməyən şəxs, əgər səfərdə oruc tutsa və gün ərzində məsələni başa düşsə, orucu batil olar və əgər axşama kimi başa düşməsə, orucu səhihdir.

**Məsələ:** Oruc tutan şəxs, əgər şər`i azandan (zöhrdən) sonra evdən və ya on gün qalmaq istədiyi bir yerdən müsafirət edərsə, onun orucu səhihdir və iftar edə bilməz.

**Məsələ:** Müsafir, zöhrdən əvvəl vətəninə və ya on gün qalmaq istədiyi bir yerə yetişərsə, əgər orucu batil edən bir iş görməmişdirsə, həmin gün oruc tutmalıdır.

## Orucun kəffarəsi

**Məsələ:** Əgər bir şəxs mübarək Ramazan ayında orucunu qəsdən batil edərsə, o günün qəzasını etməkdən əlavə olaraq kəffarə də verməlidir.

**Məsələ:** Mübarək Ramazan ayının kəffarəsi üç şeydən birirdir:

1. İki ay oruc tutmalı və onun otuz bir gününü gərək ardıcıllıqla tutsun.

2. Altımış fəqiri doyuzdurmalı.

3. Bir qul azad etməli və bu o haldadır ki, insan halal şeylə orucunu batil etmiş ola.

**Məsələ:** Oruc tutan şəxs əgər orucunu şərab və zina kimi haram şeylə batil edərsə, ona kəffarənin cəm verilməsi vacib olur.

**Məsələ:** Əgər oruc tutan bir şəxs bir gündə qəsdən bir neçə dəfə yemək yeyə və yaxud orucu batil edən əməllərdən birini təkrarən əncam verərsə, kəffarə də təkrar olunmur. Amma əgər bir gündə cima və ya istimna əməlini təkrarən əncam verərsə, ehtiyat vacibə əsasən kəffarəni də təkrar verməlidir.

**Məsələ:** Əgər oruc tutan şəxs, Ramazan ayında oruclu olan xanımı ilə cima edərsə, belə ki, xanımını bu işə məcbur etmişdirsə və xanımı da bu əməlin axırına kimi razı deyilsə, həm özünün kəffarəsini, həm də xanımının kəffarəsi ona vacibdir. Amma əgər xanımı işin ortasında bu əmələ razı olarsa, kişi iki kəffarə, qadın isə bir kəffarə verməlidir.

**Məsələ:** Səfər ya xəstəlik səbəbi ilə oruc tutmayan şəxs, öz oruc tutmuş arvadını cimaya vadar edə bilməz. Amma əgər onu cimaya məcbur etsə, kişiyə kəffarə vacib deyil.

**Məsələ:** Ramazan ayının orucunun qəzasını tutan insan, əgər vaxtı çoxdursa zöhrdən əvvəl orucunu batil edə bilər. Amma zöhrdən sonra caiz deyildir, əgər zöhrdən sonra orucunu batil edərsə gərək on yoxsula, hər birisinə bir müdd təam versin, əgər verə bilməsə üç gün oruc tutmalıdır.

## Orucun qəzası vacib olan yerlər

Bir neçə yerdə ancaq orucun qəzası insana vacibdir və kəffarə vacib deyildir.

1. Cünub olan bir şəxs, Ramazan ayı gecəsində yatıb-oyandıqdan sonra ikinci dəfə yatdığı təqdirdə, sübh azanından qabaq oyanacağına əmin olar və ya ehtimal verərsə, həmçinin ikinci dəfə yatsa sübh azana qədər oyanmayacağını qərara alsa, gərək o günün orucunu qəza etsin və kəffarəsi yoxdur.

2. Orucu batil edən bir iş görməsin, amma oruc niyyəti də etməsin, ya riya etsin, ya orucu batil edən işlərdən bir işi görməsini qəsd etsin.

3. Ramazan ayında cənabət qüslunu unuda və cənabət halında bir gün ya bir neçə gün oruc tutarsa.

4. Ramazan ayında sübh olub – olmadığını araşdırmadan orucu pozan bir işi görə, sonra sübh olduğu məlum olarsa.

5. "Sübh olmamışdır" deyən bir şəxsin sözünə əsasən, insan orucu batil edən işlərdən birini etdikdən sonra, sübh olduğu məlum olarsa.

6. Ona sübh oldu deyən şəxsin sözünə əmin olmayıb və ya zarafat etdiyini başa düşdüyü halda, orucu batil edən bir işi etdikdən sonra südh olduğu məlum olarsa.

7. Kor və bu kimi bir insan, bir şəxsin sözünə əsasən iftar edər və sonra iftar vaxtı olmadığı məlum olarsa.

8. Saf bir havada qaranlığa əsasən axşam olduğuna əmin olub iftar edə və sonra axşam olmadığı məlum olarsa.

9. Sərin olmaqdan ötrü və ya səbəbsiz məzməzə edə, yəni ağzında suyu dolandıra və bu əsnada ixtiyarsız olaraq boğazına su gedə.

10. Bir kəs ikrah, ya orucunun zərər verməsindən, ya təqiyyə üzündən iftar etsə, o günün qəzası lazımdır, kəffarə ona vacib deyildir.

**Məsələ:** İnsan axşam olub-olmadığına şəkk edərsə, iftar edə bilməz. Amma əgər sübh olub-olmadığından şəkk edərsə, araşdırma aparmadan orucu batil edən bir iş görə bilər.

## Qəza orucunun hökmləri

**Məsələ:** İnsan, heyz, nifas və müsafirət kimi şər`i üzrü olmaq səbəbinə görə tuta bilmədikləri orucların, qəzasını tutmalıdır.

**Məsələ:** Sərxoşluq səbəbindən tutulmayan oruc, qəza edilməlidir. Hətta məstedici olan şey müalicə üçün qəbul olunsa belə.

**Məsələ:** Əgər şəxs xəstəlik, heyz ya nifas səbəbindən oruclıq ayının orucunu tutmasa və Ramazan ayı tamam olmamışdan əvvəl ölərsə, tutmadığı oruclarının qəzası lazım deyil.

**Məsələ:** Əgər şəxs, bir xəstəlik üzündən Ramazan ayının orucunu tutmasa və onun xəstəliyi gələn ilin Ramazanına qədər uzansa, tutmadığı orucların qəzası ona vacib deyil və gərək hər gününə bir müdd təam yəni buğda, arpa və çörək fəqirə versin.

**Məsələ:** Əgər insanın xəstəliyi bir neçə il davam etsə, sağaldıqdan sonra axırıncı Ramazanın qəzasını tutmalı və əvvəlki illərin hər bir günü üçün fəqirə bir müdd təam verməlidir.

**Məsələ:** Əgər insan, Ramazan orucunu qəsdən tutmasa, gərək onun qəzasını yerinə yetirsin və hər bir günü üçün iki ay oruc tutsun ya altımış fəqirə təam versin ya bir qul azad etsin.

## Ayın əvvəlinin sabit olma yolu

Ayın əvvəli dörd şeylə sübut olunur:

1. İnsan özü ayı görsün.

2. Sözlərindən yəqinlik və ya xatircəmlik hasin edilən bir qrup şəxsin "ayı gördüm" deməsi ilə.

3. İki adil kişinin, gecə Ayı gördük demələri ilə, bu şərtlə ki, ayın xüsusiyyətini bəyan edərkən aralarında ixtilaf olmasın.

4. Şə`ban ayının əvvəlindən otuz gün keçməsi və ya Ramazan ayının əvvəlindən otuz gün keçməsi ilə də Şəvval ayının əvvəli sübut edilmiş olur.

**Məsələ:** Ayın yüksək olması və ya gec batması, qabaqkı gecənin ayın ilk gecəsi olmağına dəlil deyil.

**Məsələ:** Əgər bir şəhərdə ayın əvvəli sübut edilsə, digər şəhərin camaatı üçün faydası olmaz, yalnız üfüqü həmin şəhərlə eyni və şəhərlər yaxın olarsa.

# XUMSUN HÖKMLƏRİ

Xums yəni malın beşdə biri yeddi şeydə vacib olur:

1. Qazanc.
2. Mə`dən.
3. Xəzinə.
4. Harama qarışmış halal mal.
5. Dənizdən əldə olunan cəvahirat.
6. Döyüş qəniməti.
7. Zimmi kafirin müsəlmandan satın aldığı yer.

## Qazanc

Əgər insan ticarət ya digər qazanc yolları ilə mal əldə edərsə, əgər bu özünün və ailəsinin illik xərclərindən çox olarsa, gərək onun xümsunu versin.

**Məsələ:** Əgər bir şəxsin əlinə miras yolu ilə bir mal yetişsə və insan miras edən şəxsin o malın xumsunu vermədiyini bilərsə, gərək onun xumsunu versin.

**Məsələ:** Əgər insan qənaət yolu ilə illik xərcindən bir şey artırarsa, gərək onun xumsunu versin.

**Məsələ:** Qadının aldığı mehriyyənin və insana yetişən irsin xumsu yoxdur, amma əgər irs aparmağa gümanı olmayan bir qohumdan ona irs yetişərsə, ehtiyat vacibə əsasən onun xumsu verilməlidir.

**Məsələ:** Tacir, işci, sənətkar və bu kimi işlərlə məşğul olanlar işə başladığı tarixdən bir il keçdikdən sonra, illik xərclərindən artıq qalan qazanclarının xumsunu verməlidirlər.

**Məsələ:** İnsanın nəzir, kəffarə, həcc, ziyarət, başqasına hədiyyə etdiyi və ya mükafat olaraq verdiyi bir mal onun ictimai movqeyindən yuxarı olmadığı təqdirdə onun illik məxaricindən hesab olunur və xumsu da yoxdur.

## Mə`dən

Qızıl, gümüş, qurquşun, neft, daş, kömür, firuzə, əqiq, kükürd, duz və digər mədən əşyalrı çıxarılarkən onun çəkisi on beş misqal normal sikkəli qızıla çatarsa, onu əldə etmək üçün edilən məxariclər azaldıqdan sonra, xumsu verilməlidir.

**Məsələ:** Əhəngin, gipsin, baş yumaq üçün gilin və qırmızı gilin ehtiyat vacibə əsasən, xumsu verilməlidir.

**Məsələ:** İnsanın gündəlik işləri üçün istifadə etdiyin neftin xumsunun verilməsi, ondan istifadə edən şəxs üçün vacib deyildir.

## Xəzinə

**Məsələ:** Xəzinə torpaqda, dağda və ya divarda saxlanılmış olub bir şəxs tərəfindən tapılan maldır və o, xəzinə deyiləcək bir şəkildə olmaldır.

**Məsələ:** Xəzinənin nisabı on beş misqal sikkəli qızıldır. Yəni xəzinədən əldə edilən şeyin qiyməti, onu əldə etmək üçün edilən xərclər azaldıqdan sonra, on beş misqal qızıla çatarsa, onun xumsu verilməlidir.

**Məsələ:** Əgər bir yerdə basdırılmış bir neçə qab xəzinə tapılarsa və üst-üstə qiymətləri on beş misqal sikkəli qızıla çatarsa, gərək onun xumsunu versin.

**Məsələ:** Əgər iki şəxs bir xəzinə tapsalar və onun qiyməti on beş misqal sikkəli qızıla yetişsə, əgər hər birisinin payı bu qiymətə yetişməsə, onun xumsunu vermək lazım deyildir.

**Məsələ:** Tapılan xəzinənin sikkəli qızıl və gümüş olması şərt deyil, deməli dəyəri on beş sikkəli misqal qızıla yetşən hər bir şeyin xumsu vacibdir.

## Harama qarışmış halal mal

Əgər halal mal, haram mal ilə bir cür qarışa, məsələn; halal yolla ələ gələn qazanc riba yolla əldə olunan mal ilə bir-birinə ayrıd edilməyəcək şəkildə qarışarsa, haram malın sahibi və onun miqdarı məlum olmasa və haram malın miqdarını xumsdan daha az və ya çox olduğu da bilinməzsə, gərək malın

hamısının xumsunu versin və xumsu verdikdən sonra, malın qalan hissəsi halal olur.

**Məsələ:** Əgər halal mal haramla qarışsa və insan haram malın miqdarını bilməzsə, amma sahibini tanısa, bir-birlərini razı salmalıdırlar və əgər malın sahibi razı olmazsa, gərək o şəxsin malı olduğu yəqin etdiyi miqdarı ona versin.

**Məsələ:** Əgər insan haram malın miqdarını bilərsə, amma onun sahibini tanımasa, gərək müctəhidin icazəsi olmaqla həmin miqdarı sahibinin tərəfindən Allah yolunda fəqirlərə ehsan (sədəqə) versin. Bu halda əgər malın sahibi tapılarsa, sədəqə və ehsan verən şəxs ona zamin deyildir.

## Dənizdən əldə olunan cavahirat

Əgər üzgüçülük, yəni dənizə girmək vasitəsilə mirvari, mərcan və bu kimi şeylər əldə edilərsə, istər yerdən bitən olsun, istərsə də mə`dəni olsun, bir dəfəyə və ya neçə dəfəyə çıxarılmış olsun, onu əldə etmək üçün edilən xərclər azaldıqdan sonra, əgər onun qiyməti 18 noxud sikkəli qızıla yetişərsə, onun xumsu verilməlidir.

**Məsələ:** Əgər insan dənizə girmədən və ya digər vasitələrlə cəvahirat əldə edərsə, ehtiyata əsasən onun xumsu vacibdir. Amma əgər dənizin suyu üzündən və ya dənizin kənarından cəvahirat əldə edərsə, üzgüçülik cəhətindən onun xumsu vacib deyildir.

**Məsələ:** Əgər insan dənizin dibinə girib bir heyvan çıxarıb, onun qarnından cəvahirat tapsa, əgər çıxarılan heyvan sədəf kimi heyvan ola, (çünki adətən onun qarnında cəvahir olur) gərək onun xumsunu versin.

**Məsələ:** Əgər bir şəxs Dəclə və Fərat kimi böyük çayların dibinə girib cəvahirat çıxararsa, belə ki, o çaylarda cəvahir əmələ gəlirsə, gərək onun xumsunu versin.

**Məsələ:** Qazancı üzgüçülük və ya mə`dən çıxarmaq olan şəxs, əgər bunların xumsunu versə və onun illik xərcindən artıq bir şey qalarsa, ikinci dəfə onların xümsunu vermək lazım deyildir.

## Qənimət

Müsəlmanların İmamın (ə) əmrilə kafirlərlə müharibədə vuruşduqları zaman əldə etdikləri əşyalar qənimət adlanır.Qənimətdən, onun üçün edilən mühafizə və daşınma xərcləri və İmamın (ə) bir yerdə xərcləməyi məsləhət gördüyü miqdar və İmama məxsus olan əşyalar ayrıldıqdan sonra yerdə qalanın xümsu verilməlidir. İmamın (ə) qeybəti (hazırda olmayan) vaxtında, kafirlərlə müharibədə əldə edilən əşyaların hökmü ehtiyata əsasən qənimət hökmündədir.

## Zimmi kafirin müsəlmandan aldığı ərazi

**Məsələ:** Əgər zimmi-kafir, müsəlmandan yer kimi bir satın alarsa, onun xumsunu həmin yerdən və ya başqa malından verməlidir. Həmçinin əgər müsəlmandan ev, maqazin və bu kimi şeylər alarsa, gərək onun yerinin xumsunu versin və eyni əşyaların xümsunu verməsi lazım deyil.

**Məsələ:** Zimmi kafirin xüms verərkən qürbət qəsdi etməsi lazım deyil, həmçinin hakimi şər`də xümsu ondan alanda qürbət qəsdi etməsi lazım deyildir. Deməli hakimi şər xümsu zimmi kafirdən məcburi yolla ala bilər.

**Məsələ:** Əgər müsəlman şəxs bir yeri alış-veriş olmadan zimmi kafirə verə və onun əvəzini alarsa, məsələn, bir yeri zimmi kafirə sülh edərsə, gərək zimmi kafir onun xümsunu versin.

**Məsələ:** Əgər zimmi kafir səğir ola və onun qəyyumu müsəlmandan onun üçün bir yer alarsa, gərək onun xümsunu versin.

## Xumsun xərclənməsi

Xums iki hissəyə bölünməlidir: onun yarısı seyyidlərin payıdır. Belə ki, fəqir, yetim və ya səfərdə möhtac olan seyidlərə verməlidir. Onun digər yarısı İmamın (ə.c) payıdır ki, bu dövrədə camiüş – şərait müctəhidə verilməsi, ya da onun icazə verdiyi bir yerdə xərclənməlidir Amma məndən təqlid edən şəxslər, əgər İmamın payını təqlid etmədikləri bir müctəhidə vermək istəsələr, gərək məndən icazə alsınlar.

**Məsələ:** Ədalətli olmayan seyidə xüms vermək olar, amma on iki İmamın (ə) hamısını qəbul etməyən seyidə xüms vermək olmaz.

**Məsələ:** Günah işi görən seyidə əgər xüms vermək onun günah etməsinə kömək edəcəksə, xums vermək olmaz. Həmçinin şarab içən, namaz qılmayan və açıq - aşkar günah edən seyidə ehtiyat vacibə əsasən xums verilməməlidir.

## Seyidliyin bir neçə yolla sabit olması

1. İnsanın özünün buna yəqinliyi olması ilə.
2. Həmin şəxs, öz şəhərində seyid kimi tanınsın.
3. İki ədalətli şəxs onun seyid olmasına şəhadət verməklə. Şəxsin özünün deməsilə onun seyidliyi sabit olmaz.

## Xumsun səhih olmasının şərtləri

**Məsələ:** İnsan xumsu, ona xums düşən həmin maldan və ya halal olan başqa maldan verməlidir. Haram maldan vermək istəyərsə kifayət etməz. Habelə xums verən şəxs gərək qürbət qəsdi etsin.

# ZƏKATIN HÖKMLƏRİ

**Məsələ:** Doqquz şeyin zəkatı vacibdir:

1. Buğda
2. Arpa
3. Xurma
4. Kişmiş
5. Qızıl
6. Gümüş
7. Dəvə
8. İnək
9. Qoyun

## Zəkatın vacib olmasının şərtləri

**Məsələ:** Aşağıdakı şərtlərə sahib olan şəxslərə zəkat vermək vacibdir:

1. Malın nisab (ölçü) miqdarına yetişməsi (Bu, sonradan izah ediləcək).
2. Ağıllı, həddi-bluğa çatmış olsun və azad (yəni bir kəsə qul və tabe olmasın).
3. Öz malından təsərrüf edə bilsin.

Buğda, arpa, xurma və kişmişin zəkatının şərtləri

**Məsələ:** Buğda, arpa, xurma və kişmişin zəkatı nisab həddinə çatdıqları vaxt vacib olur. Onların nisabı 288 təbrizi manindən 45 misqal az, yəni təqribən 847 kiloqramdır. Onlara buğda və arpa deyilən vaxtı, onların zəkat kimi verilməsinin vacib zamanı olur. Bunların zəkatının verilmə vaxtı isə buğdanı samandan ayrıldığı xırman zamanıdır. Deməli əgər bir şəxs buğda və arpanın dənəsi olmamışdan əvvə öz əkin yerini satarsa, ona zəkat vacib deyildir. Bəlkə deyilən şərtlər olarsa, gərək alan şəxs zəkatını versin.

**Məsələ:** Xurma və üzümə üzüm və xurma deyilərkən zəkat vacib olur. Amma bunların zəkatının verilmə zamanı isə üzüm və xurmanın quruduğu vaxtdan sonradır. Deməli əgər mal sahibi üzüm və qora (yetişməmiş üzüm) və ya sarı, qırmızı və xurma olmamışdan əvvəl onları başqa bir şəxsə satarsa, alan şəxsə zəkat vacib olur.

**Məsələ:** Buğda və arpanı samandan ayrıldığı, kişmiş və xurmanın quruduğu vaxt gərək nisabı hesablansın. Yəni buğda və arpanı samandan ayırdıqdan sonra əgər onun nisab həddi 847 kiloqrama yetişərsə, onlara zəkat vacib olur. Əgər nisab həddindən bir az olarsa, ona zəkat vacib olmur.

**Məsələ:** Əgər bir neçə nəfər birlikdə şərik olsalar, onların hər birisinin payı əgər ayrılıqda şər`i nisab həddinə yetişərsə, zəkat vacib olar, əks təqdirdə zəkat vacib deyil.

**Məsələ:** Əgər buğda, arpa, xurma və kişmişin ağırlığı yaş ikən nisab miqdarına ″847″ yetişərsə və quruduqdan sonra bu miqdardan az olarsa, onun zəkatı vacib olmaz.

**Məsələ:** Əgər buğda, arpa, xurma və üzümün zəkatı vacib olduqdan sonra, əkini və ya ağacı satarsa, gərək onların zəkatını özü versin.

**Məsələ:** Buğda, arpa, xurma və üzüm üçün istifadə olunan xərcləri, hətta əkinçiliyə görə əgər libas və digər vəsilələrin qiymətlərindən bir miqdarı azalarsa, məhsuldan çıxa bilər. Əgər yerdə qalan malın nisabı 847 kiloqrama yetişərsə ona zəkat vacib olur, əks təqdirdə isə vacib deyil.

**Məsələ:** Əkin yerinə işlədilən tum və ya toxumun qiyməti, yerin icarəsinin haqqı və işçilərin muzdu və bu kimi işlərin hamısı xərclərin hissəsindən sayılıb və məhsuldan çıxılır. Yerdə qalan mal əgər nisab həddinə yetişərsə zəkatı vacibdir, əks təqdirdə zəkat vacib deyil.

**Məsələ:** Borclu olan şəxs, üzərinə zəkat vacib olan mal olduğu halda ölərsə, əvvəl zəkata vacib olan maldan onun zəkatını bütünlüklə verilməli, sonra da onun borcu ödənilməlidir.

## Buğda, arpa, xurma və kişmişin zəkat miqdarı

**Məsələ:** Yağış suyu, çay, bulaq və kanal vasitəsilə suvarılan yerlər və yaxud yerin rütubətindən istifadə edilib və suvarmaya ehtiyac olmayan yerlərin məhsulunun zəkatı 10/1 – dir. Amma əgər vedrə və bu kimi şeylərlə sulanarsa, onun zəkatı 20/1 – dir, istər quyu suyundan və istərsə də cay və arx suyundan sitifadə etsinlər.

**Məsələ:** Əgər buğda, arpa, xurma və üzüm həm yağış suyu ilə, həm də vedrə və bu kimi şeylərlə sulanarsa, bu təqdirdə ürfün nəzərində vedrə və bu kimi şeylərlə sulandəğı sayılarsa, onun əzkatı 20/1-dur. Əgər çay və yağışla sulandığı deyilərsə, onun zəkatı 10/1- dir. Əgər hər ikisilə də sulanırdı deyilərsə, onun zəkatı 40/3-dür.

**Məsələ:** Əgər camaatın rəyini sulanma işində aydınlaşdıra bilməsə və sulama işini xalqın, hər ikisilə sulanmışdır və ya məsələn; yağışla sulanmışdır-dediyi şəkildə olduğunu bilməzsə, 40/3-verməsi kifayətdir.

**Məsələ:** Əkin sahiblərinə buğda və arpanın xırman həddinə yetişməsini, üzüm və xurmanın quruma vaxtına yetişməsini gözləyib sonra zəkat verməsi vacib deyildir. Zəkat vacib olan vaxt zəkat miqdarının qiyməti mə`lum edilib, qiymətini zəkat olaraq, vermək caizdir.

**Məsələ:** Əgər bir insanın iqlimləri dəyişkən olub, əkin və meyvələri eyni zamanda ələ gəlməyən bir neçə şəhərdə buğda, arpa, xurma, üzüm kimi məhsulları olub onların hamısı bir ilin məhsulu sayılarsa, əvvəlkinin miqdarı nisab miqdarına çatmazsa, məhsulun sonrakı qismləri yetişənə qədər səbr etsin. Əgər hamısı birlikdə nisab miqdarına yetişərsə, onun zəkatı vacib olar və əgər məhsulun hamısı nisab miqdarına yetişməzsə, zəkat vacib deyil.

**Məsələ:** Xurma və üzüm ağacları ildə iki dəfə meyvə verərsə, üst-üstə nisab miqdarına yetişərsə, ehtiyat vacibə əsasən onun zəkatı vacibdir.

**Məsələ:** Əgər zəkatı vacib olmuş buğda, arpa, xurma və kişmişin yaxşısı və pisi vardırsa, ehtiyat müstəhəb odur ki, hər birisinin zəkatı, yaxşı və pisi özündən verilsin.

## Gümiş və qızılın zəkat və şərtləri

Qızıl və gümüşün zəkatı aşağıdakı şərtlərlə vacib olur:

1. Sikkəli olsun.
2. Ona on bir ay tamamilə sahib olsun.
3. Nisab miqdarına çatsın.

**Məsələ:** Sikkəli olan qızıl və gümüşün zəkatının verilməsində, o sikkəsinin işlənən və yaxud yayılmamış olmasında fərq yoxdur.

**Məsələ:** Qadınların bəzək olaraq işlətdikləri sikkəli qızıl və ya gümüş alverdə işlədilirsə, onun zəkatı vacibdir. Əgər onunla alver olunmursa amma qızıl və gümüş pulu deyilərsə, ehtiyat vacibə əsasən onun zəkatını vermək lazımdır.

## Qızılın nisabı

Qızılın nisabı ikidir: Birinci nisabı 20 şər`i misqaldır ki, hər misqal 18 noxuddur. Deməli qızıl 20 şər`i misqala-normal 15 misqala yetişərsə, deyilən başqa şərtlərə də sahib olarsa, insan onun 40/1 – i ki, 9 noxud edər, zəkat olaraq verməlidir. Qızılın ikinci nisabı, dörd şər`i misqal-normal 3 misqaldır. Yəni əgər üç misqal, 15 misqala əlavə olarsa, 18 misqalın hamısının 40/1 qərarı ilə zəkatı verilməlidir.

**Məsələ:** İkinci nisabdan məqsəd budur ki, əgər miqdar 15 misqaldan keçib və 18 misqala çatmazsa, onun zəkatı həmin 9 noxuddur. Yə`ni 15 misqalın artığının zəkatı yoxdur. Amma 18 misqala yetişdikdə gərək onun hamısının 40/1 qərarı ilə zəkatını versin. Bu miqdardan sonra üç misqal əlavə olunur, yə`ni 21 misqala çatdıqda gərək hamısını hesablayıb zəkatını versin, iki nisabın arasında zəkat yoxdur.

## Gümüşün nisabı

Gümüşün iki nisabı vardır: Birinci nisabı 105 normal misqaldır. Əgər gümüşün misqalı 105 misqala yetişə və deyilən başqa şərtlərə də malik olarsa, insan 40/1-i ki, iki misqla 15 noxud edər zəkat olaraq verməlidir. Əgər bu miqdara

yetişməzsə, onun zəkatı vacib olmaz. Onun ikinci nisabı 21 misqaldır, yə`ni əgər 105 misqalın üzərinə 21 misqal artarsa, gərək deyildiyi kimi tamamilə 126 misqalın zəkatı verilsin və 21 misqaldan az artarsa, fəqət 105 misqalın zəkatını verməlidir, artığı üçün zəkat yoxdur. Bundan sonra həmin tərtiblə 21 misqala artar, başqa təbirlə, yə`ni iki nisabın arasında zəkat vacib olmur.

**Məsələ:** Nisab miqdarına yetişən qızıl və gümüşü olan bir şəxs, onun zəkatını vermiş olsa da, birinci nisabdan azalmayanadək, gərək hər il onun zəkatını versin.

**Məsələ:** Əgər on bir ay ərzində olan qızıl və ya gümüşü, qızıl, gümüş və ya digər bir şeylə dəyişdirərsə, yaxud onları əridərsə, ona zəkat vacib olmaz.

**Məsələ:** Əlində olan qızıl və gümüşün yaxşısı və pisi varsa, hər birinin zəkatını yaxşının və pisin özündən verə bilər. Amma daha yaxşı odur ki, onların hamısının zəkatını yaxşı qızıl və gümüşdən versin.

**Məsələ:** Normal həddən artıq dəmiri olan qızıl və gümüşün, əgər xalis qızıl və gümüşü nisab həddinə yütişərsə onun zəkatı vacibdir.

## Dəvə, inək və qoyunun zəkat miqdarı və şərtləri

**Məsələ:** İnək, qoyun və dəvənin zəkatı aşağıdakı şərtlər olmaqla zəkatı verilməlidir:

1. Nisab miqdarına çatsın
2. İnsan ona on bir ay tamamilə sahib olsun
3. İl boyu heyvan çol otundan otlasın, əgər bir ya iki gün sahibinin mülkündən otlasa eybi yoxdur.
4. İl boyu işləməyən bir heyvan olsun, əgər bir ya iki gün işlədilərsə eybi yoxdur.

**Məsələ:** Əgər insan, dəvə, inək və qoyunların otlaması üçün bir şəxsin əkmədiyi bir otlağı satın alar və ya icarəyə götürərsə, yaxud orada otarmaq üçün xərac verirsə, gərək onların zəkatını versin.

## Dəvənin nisabı

Dəvənin on iki nisabı vardır:

1. 5 dəvə: zəkatı bir qoyundur. Dəvənin sayı bu miqdara yetişməzsə, zəkatı yoxdur.
2. 10 dəvə: zəkatı iki qoyundur. Dəvənin sayı bu miqdara yetişməzsə, zəkatı yoxdur.
3. 15 dəvə: zəkatı 3 qoyundur.
4. 20 dəvə: zəkatı 4 qoyundur.
5. 25 dəvə: zəkatı 5 qoyundur.
6. 26 dəvə: zəkatı 2-ci ilinə daxil olmuş 1 dəvədir.
7. 36 dəvə: zəkatı 3-cü ilinə daxil olmuş 1 dəvədir.
8. 46 dəvə: zəkatı : 4-cü ilinə daxil olmuş 1 dəvədir.
9. 61 dəvə: zəkatı: 5-ci ilinə daxil olmuş 1 dəvədir.
10. 76 dəvə: zəkatı: 3-cü ilinə daxil olmuş 2 dəvədir.
11. 91 dəvə: zəkatı: 4-cü ilinə daxil olmuş 2 dəvədir.
12. 121 və daha çox dəvə: Bunların zəkatını ya 40-40 hesab edilib, hər 40 dənə üçün 3-cü ilinə daxil olmuş bir dəvə verməlidir ya da 50-50 hesab edilib, hər 50 dənə üçün 4-cü ilinə daxil olmuş bir dəvə versin.

**Məsələ:** İki nsiab arasında zəkat vacib deyildir. Əgər dəvələrin sayı 5 ədəd olan birinci ölçüdən keçsə, 10 ədəd olan ikinci ölçüyə çatmasa, yalnız 5-nin zəkatını verməlidir. Həmçinin, sonrakı ölçülər də belədir.

## İnəyin nisabı

İnəyin nisabı ikidir:

1. Otuz inək üçün: Zəkatı ikinci ilinə daxil olmuş bir ədəd erkək və ya dişi danadır.

2. 40 inək üçün: Zəkatı üçüncü ilə daxil olmuş dişi danadır.30 ilə 40 arasında olan inəyin zəkatı vacib deyil. Sonra 60-a yetişdikdən sonra, birinci nisabdan iki bərabər olduğuna görə 2-ci ilə girmiş iki dananı zəkat verməlidir. Hər nə qədər çoxalarsa, ya 30-30 hesab etməli, ya da 40-40 hesab etməli və ya 30-40 olaraq hesab etməli və göstərilmiş qaydaya əsasən, zəkatı verməlidir. Amma gərək elə hesab etsin ki, bir şey artıq olmasın. Məsələn; 60 inəyi olan bir şəxs, onları 30-30 hesabı ilə hesablaşmalı və 3-cü ilə daxil olmuş 2- i dana verməlidir. Əgər 70 inəyi olarsa, 2-ci ilə daxil olmuş bir dananı 30 ədəd üçün verməli və 3-cü ilə daxil olmuş bir dananı isə 40 ədəd üçün zəkat verməlidir.

## Qoyunun nisabı

Qoyunun 5 nisabı vardır:

1. 40 qoyun: zəkatı bir qoyundur. Qoyunların sayı 40-a yetişməyənədək zəkatı yoxdur.

2. 121 qoyunun zəkatı 2 qoyundur.

3. 201 qoyunun zəkatı 3 qoyundur.

4. 301 qoyunun zəkatı 4 qoyundur.

5. 400 ədəd və ondan yuxarı olanda gərək 100 ədəd 100 ədəd hesab etsin və onların hər 100 ədədinə 1 qoyun versin.

**Məsələ:** Zəkatı qoyunların özündən vermək lazım deyil, deməli əgər digər bir qoyun versə ya qoyunun qiymətinə uyğun pul versə, kifayətdir.

**Məsələ:** İki nisab arasında zəkat vacib deyildir. Əgər birinin qoyunlarının sayı 40 ədəd olan birinci ölçüdən çox olub, 121 ədəd olan ikinci nisaba çatmayıbsa, yalnız 40 ədədinin zəkatını verməlidir. Artığının zəkatı isə yoxdur. Sonrakı ölcülərdə də belədir.

**Məsələ:** Əgər neçə nəfər şərik olub, hər birinin səhmləri ilk nisaba çatsa, zəkatı verməlidir. Səhmi ilk nisabdan az olan şəxsə zəkat vacib deyil.

**Məsələ:** Bir şəxsin neçə yerdə inək, dəvə və ya qoyunu varsa, və üst-üstə nisab ölçüsündədirsə, gərək onların zəkatını versin.

## Zəkatın hökmləri

Zəkat dərhal yerinə yetirilməsi zəruri olan vacib bir işdir; yə`ni qızıl, gümüş, dəvə və inəkdə 12 ay yetişdikdən sonra, xurma və kişmiş quruduqdan sonra və buğdanı samandan ayırdıqdan sonra, gərək onların zəkatı dərhal verilsin. Zəkatı gecikdirmək olmaz, yalnız müəyyən bir şəxsin gözlənilməsi (müstəhəqqini gözləmək) məsləhət olan yerdə onu gecikdirmək olar.

**Məsələ:** Zəkatın verilməsi olan bir malda sahibi onun hamısından istifadə edə bilməz, almaq, satmaq və həmçinin digər istifadələr də onda haramdır. Yalnız o maldan zəkat veriləsi miqdar ayırarsa.

## Zəkatın xərclənməsi

Zəkat səkkiz yerdə xərclənir:

1. Fəqir; özünün və ailəsinin bir illik xərcinə sahib olmayan şəxsə deyilir. Fəqir həm də o şəxsdir ki, iş və qazanc yolla da onların xərcini əldə edə bilmir.

2. Miskinlər; fəqirdən yaşayışı daha çətin bir halda olan şəxslərə deyilir.

3. İmamın ya onun naibi (müctəhid) tərəfindən zəkatları toplayan şəxslər.

4. Zəkat verildiyi təqdirdə, İslama meyl edən və ya döyüşdə müsəlmanlara yardım edən kafirlər.

5. Qulları və kənizləri satın alıb azad etmək üçün.

6. Borcunu verə bilməyən borclular üçün. Əlbəttə günah etmək üçün borc etməmək şərti ilə.

7. Allah yolunda xərcləmək. Məsələn; məscid tikmək, dini elmlər oxunan mədrəsə tikmək, körpü salmaq kimi, faydası

müsəlmanların hamısına aid olan işlərdə xərcləmək. Əlbəttə, gərək qürbət qəsdilə olsun.

8. İbni-səbil; yə`ni vətənə qayıtmaq üçün hətta borc vasitəsilə pul əldə edə bilməyib və səfərdə çətinliyə düşmüş müsafir.

**Məsələ:** Əgər öz şəhərində müstəhəqq tapılsa, müstəhəb ehtiyata əsasən o şəhərin zəkatını başqa şəhərə apara bilməzlər. Hər bir halda əgər başqa şəhərə aparsa bütün xərcləri özündən verməlidir və əgər zəkat məhv olsa, zamindir. Şər`i hakimin icazəsi olsa, istisnadır.

**Məsələ:** Müstəhəbb odur ki, inək, qoyun və dəvənin zəkatını abırlı fəqirlərə versin və zəkat verməkdə öz qohumlarını başqalarından, elm-kamal əhlini, elm-kamala sahib olmayanlardan, üstün tutsun.

**Məsələ:** Zəkat vermək istəyən şəxsin şəhərində bir müstəhəqq olmasa və zəkatı müəyyən olunmuş digər xərclərə çatdıra bilməsə, belə ki, sonra müstəhəqq tapmağa ümidi olmasa, gərək zəkatı başqa şəhərə aparsın və şəhərə aparmağın xərcini zəkatdan götürə bilər. Əgər zəkat tələf olsa, zamin deyildir.

**Məsələ:** İnsan verdiyi zəkatı müstəhəqqindən ona geri satmağını istəməyi məkruhdur, amma əgər müstəhəqq götürdüyü şeyi satmaq istəsə, o kəs ki, zəkatı ona vermişdir, onu almaqda başqalarından irəlidir.

**Məsələ:** Fəqir zəkatı onun miqdarından az qiymətlə sahibilə sülh edə bilməz ya bir şeyi onu qiymətindən bahasına zəkat əvəzi qəbul edə bilməz, yaxud zəkatı sahibindən alıb ona bağışlaya bilməz.

## Fitrənin zəkatı

**Məsələ:** Fitr bayramının axşamı, həddi-bluğ və ağıllı olub, fəqir və başqasının qulu olmayan şəxsə, özü və onun qazancı ilə dolanan şəxslərin hər biri üçün, bir sa təqribən 3 kiloqram-buğda, arpa, xurma, kişmiş, düyü və bunun kimi şeyləri

müstəhəqqə (həqiqətən fəqir və möhtac şəxsə) verməlidir. Əgər bunun əvəzinə pul verərsə, kifayətdir.

**Məsələ:** Fitr bayramı gecəsi, gün batmazdan əvvəl, ev sahibinin razılığı ilə, onun çörəyini yeyən hesab olunan qonağın fitrə zəkatı ev sahibinə vacibdir.

**Məsələ:** Fitr bayramı gecəsi, gün batdığdan sonra gələn qonağın fitrəsini vermək ona vacib deyildir. Baxmayaraq, onun evində iftar etmək üçün fitr bayramı gecəsi gün batmamışdan əvvəl də`vət olunmuşlar.

**Məsələ:** İnsan ailəsinin xərcini haram maldan versə də, gərək fitrənin zəkatını halal maldan versin.

## Fitrə zəkatının xərclənməsi

**Məsələ:** İnsan fitrənin zəkatını əvvldə malın zəkatı üçün qeyd olunan səkkiz yerdə istifadə edə bilər. Amma ehtiyat müstəhəbb odur ki, fitrənin zəkatını şiə olan fəqirlərə verilsin.

**Məsələ:** Bir neçə nəfərin fitrəsini verən adamın hamısının bir maldan verməsi lazım deyildir. Məsələn; bə`zisinin fitrəsini buğda və bə`zisinin fitrəsini digər maldan verə bilər.

**Məsələ:** Əgər fitrəni kənara qoysa, onu özü üçün götürə bilməz və başqa malı fitrə üçün qoya bilməz.

**Məsələ:** Əgər öz yerində müstəhəqq tapsa, ehtiyat müstəhəb odur ki, fitrəni başqa yerə aparmasın, əgər başqa yerə aparsa və tələf olsa, sahibi ona zamindir.

**Məsələ:** İnsan eyni cinsdən yarım sa`ını, məsələn; buğdadan və onun başqa yarısını isə arpadan verə bilməz, əgər onu fitrə qiyməti məqsədilə də versə, kifayət deyildir.

**Məsələ:** Bir şəxsin mən fəqirəm deməsi ilə ona fitrə verilə bilməz. Amma onun sözündən insana xatircəmlik hasil olsa və ya əvvəldən onun fəqir olduğunn bilərsə, ona fitrə verilə bilər.

**Məsələ:** Fitrə bayramı namazını qılan, ehtiyat vacibə əsasən, gərək bayram namazından əvvəl fitrəni versin.Lakin əgər bayram namazını qılmasa, fitrəni zöhrə qədər gecikdirə bilər.

Əgər fitrəni ayırıb kanara qoysa, ehtiyat müstəhəbbə əsasən, gərək onu əda və qəza niyyəti etmədən qürbət qəsdi ilə versin.

# ALQI-SATQININ HÖKMLƏRİ

Alıcı və satıcıya yaxşı olar ki, müamilədə aşağıda qeyd olunan məsələlərə diqqət etsinlər:

1. Kəsb edən şəxs, gərək alqı-satqının hökmlərini öyrənsin. Həzrət İmam Sadiqdən (ə) rəvayətdir ki, alqı satqı etmək istəyən şəxs, gərək onun hökmlərini öyrənsin və batil və şübhəli müamilələrin vasitəsi ilə həlakətə düşməsin.

2. Malın qiymətində bərklik etməsin. Amma, müamilədə qiymətini aşağı salmaq üçün danışmaqın eydi yoxdur.

3. Satdığı şeyi artıq və aldığını az çəksin.

4. Müştərilər arasında fərq qoymasın.

5. Öz malını tərifləməsin və başqasının malını məzəmmət etməsin.

6. Qaranlıq bir yerdə və malının eybini örtən bir məkanda malını satmasın.

7. Möminlərdən zəruri olan yerlər istisna olmaqla mənfəət almasın.

8. Müamilə etdiyi adam müamiləni pozmaq istədikdə, şəxs müamiləni pozmağa hazır olsun.

## Haram müamilələr

1. Bovl və ğaiti kimi nəcisin özünün alqı - satqısı.

2. Qəsbi malı alıb – satmaq.

3. Alış – satışı camaat arasında mal kim sayılmayan şeylərin məsələn, yırtıcı heyvanın alqı satqısı.

4. Qumar alətləri kimi adətən mənfəəti yalnız haram olan bir şeyin alqı – satqısı.

5. Faizli ( ribalı) müamilə.

6. Tərkibində ğəşş (aldatma) olan müamilə, məsələn; tərkibində piy yağı qarışdırılmış bir yağı yaxud su qatılan südü

satmaq kimi. Həzrət Peyğəmbər (s) buyurmuşdur: Müamilə edərkən müsəlmanlara ğəşş edən (onları aldadan), onlara zərər verən, saxtakarlıq və hiylə edən şəxs bizdən deyildir. Kim müsəlman qardaşları ilə ğəşş etsə, Allah onun ruzisinin bərəkətini çəkər, onun qazancının yolunu bağlayar və onu öz ixtiyarına buraxar.

**Məsələ:** Məstedici içkilərin müamiləsi haram və batildir.

**Məsələ:** Kafir əlindən alınan və ya qeyri-İslami ölkələrdən gətirilən ət, yağ və piyin alqı-satqısı batil və ondan istifadə edilməsi haramdır.

**Məsələ:** Qeyri-İslami ölkələrdən gətirilən yağ, axıcı dərmanlar və ətirlərin alqı-satqısı, onların nəcis olması məlum olmazsa, eybi yoxdur.

**Məsələ:** Haram əyləncə alətlərin alış-satışı, məsələn; tar, saz və hətta kiçik sazlar haramdır. Amma müştərək alətlər, məsələn; radio, maqnitofon kimi əşyaların haramda işlədilməsinə qəsdi olmasa alıb-satmağın eybi yoxdur.

**Məsələ:** Canlıların heykəlini düzəltmək haramdır, həmçinin qumar və oğurluqdan ya batil müamilədən hazırlanmış şeyi almaq haramdır.

## Satıcı və alıcının şərtləri

Satıcı və alıcı üçün altı şey şərtdir:

1. Həddi-bluğa yetmiş olmalıdırlar.
2. Ağıllı olmalıdırlar.
3. Səfeh olmamalıdırlar; yə`ni öz mallarını boş işlərə xərcləməməlidirlər.
4. Alış-veriş qəsdləri olmalıdır.
5. Bir şəxs onları məcbur etməməlidir.
6. Satdıqları və əvəzində verdikləri mala malik olmalıdırlar.

**Məsələ:** Özü alış-veriş edən həddi-bluğa çatmamış bir uşaqla edilən müamilə o uşaqa ata və ya babası müamilə etməyə icazə vermiş olsalar da, caiz deyildir. Amma əgər uşaq pulu satıcıya verib, malı alıcıya catdırmaqda yalnız bir vasitəçi

olsa, çünki həqiqətdə iki baliğ şəxs bir-birilə müamilə etmişlər, müamilə səhihdir.

**Məsələ:** Əgər bir şəxs muamiləsi səhih olmayan bir uşaqla müamilə edərsə, ona verilən pul və ya mal itsə ya tələf olsa o uşaqdan və ya qəyyumundan tələb edə bilməz.

## Satılan malın şərtləri

Satılan malın və əvəzində alınan şeylərin beş şərti vardır:

1. Miqdarı; ölcü, çəki, say və bu kimi yollarla müəyyən edilməsi lazımdır.

2. Təslim edilməsi mümkün olmalıdlr; deməli satıcının təhvil verməsi nümkün olmayan qaçmış bir atı satması düzgün deyildir.

3. Müamilə edənin nəzərində diqqətə layiq olan satılan və əvəzində alınan şeyin xüsusiyyəti göstərilməlidir.

4. Bir şəxsin aldığı və ya satdığı bir şey gərək azad olsun. Deməli insanın vəqf etdiyi bir malın satışı caiz deyildir.

5. Malın mənfəətini yox, özünü satmalıdır. Deməli əgər bir şəxs evin bir illik mənfəətini satarsa, səhih deyildir. Lakin alıcı pul əvəzində öz mülkünün bir illik mənfəətini aldığı malın əvəzində satıcının öhdəsinə qoyarsa eybi yoxdur.

## Vəqf olunan şeyin alqı-satqısı

Bir neçə yer istisna olmaqla vəqfin alqı-satqısı caiz deyildir:

1. Vəqf olunmuş bir şey həqiqətdə yararlanma imkanı qalmayacaq qədər xarab olmuşsa və ya bu həddə yetişmək üzrədirsə, məsələn; məscidin həsiri üzərində namaz qılına bilməyəcək şəkildə xarab olmuşsa.

2. Əgər özlərinə mal vəqf edilən şəxslər arasında, vəqf edilən malı satmasalar, mal və ya canın tələf olması şəkildə ixtilaf meydana çıxarsa, bu halda o malı satıb vəqf edənin məqsədinə yaxın olan bir yerdə sərf edilməsinin caiz olduğunu söyləmişlər.

## Nəqd və nisyə müamilə

Alıcı və satıcı arasında müamilə nəqd ya nisyə ola bilər. Nisyə müamilədə zaman tam olaraq təyin edilməlidir. Deməli əgər bir şəxs bir malı xırman zamanı yaxud filan bir şəxsin səfərdən qayıdacağı vaxt pulunu alacaq şəkildə satarsa, zaman tam olaraq məlum olmadığından müamilə batildir.

**Məsələ:** Nisyə müamilələrdə satıcı müddətin vaxtı tamam olmamışdan əvvəl börcunu tələb edə bilməz. Amma əgər alıcı qərarlaşdırılan müddət çatmamışdan qabaq borcunu verərsə, satıcının qəbul etməsi lazımdır.

**Məsələ:** Nisyə müamilədə əgər alıcı qərarlaşdırılan müddət çatmamışdan əvvəl ölərsə, əgər alıcının malı vardırsa, satıcı müddət sona çatmamışdan əvvəl öz tələbini onun vərəsələrindən tələb edə bilər.

**Məsələ:** Nisyə müamilədə satıcı malın qiymətini nəqd satış qiymətindən daha baha sata bilər, amma alıcı onun qiymətini bilməlidir.

**Məsələ:** Satıcı əgər müamilədən bir müddət keçdikdən sonra alıcıya öz tələbindən bir miqdar düşüb və qalan qismini nəqdə almasını deyərsə, əgər alıcı ona razı olsa eybi yoxdur. Həmçinin alıcı da bu işin görülməsini satıcıya təklif edərsə eybi yoxdur.

**Məsələ:** Nisyə müamilədə əgər alıcı müəyyən olunmuş vaxta borcunu verməyə imkanı olmazsa, satıcı gərək onun borcunu qaytarmağa imkanı olana qədər ona möhlət versin.

## İnsanın müamiləni poza biləcəyi yerlər

**Məsələ:** Müamiləni pozma huququna ixtiyar (fəsx) deyilir. Alıcı və satıcı on bir yerdə müamiləni poza bilərlər.

1. Alıcı və satıcı müamilə məclisindən ayrılmamış müamiləni poza bilər və bu fəsx etmə haqqına məclis fəsx etmə haqqı deyilir.

2. Alış-verişdə, alıcı və ya satıcı aldadılmış olarsa, bu fəsx etmə haqqına (ğəbn) aldatma fəsx etmə haqqı deyilir.

3. Müamilədə alıcı və satıcı müəyyən bir müddətə qədər hər ikisinin və ya bir müamiləni pozma bilməsini şərt edələr. Bu haqqa şərt fəsx etmə haqqı deyilir.

4. İki tərəfdən biri öz malını olduğundan daha yaxşı göstərə və malın qiyməti camaatın nəzərində baha olmasını bildirə. Buna tədlis qüsru deyirlər.

5. Müamilə tərəflərindən biri qarşı tərəfin onun üçün bir iş görməsini şərt qoymuş olarsa və o da həmin şərtə əməl etməzsə, buna şərtə uyğun gəlməyən fəsx etmə haqqı deyilir.

6. Malda və ya onun əvəzində qüsur olarsa, buna qüsurdan ötrü fəsx etmə haqqı deyilir.

7. Müamilə edildikdən sonra, malın bir miqdarının başqasının mal olduğu anlaşılarsa, bu halda əgər onun sahibi bu muamiləyə razı olmazsa, alıcı müamiləni poza bilər. Buna şəriklikdən doğan fəsx etmə haqqı deyilir.

8. Mal sahibi tərəfindən görmədiyi bəlli bir malın xüsusiyyətlərini söylər və sonradan söylədiyi kimi olmadığı meydana çıxarsa bu halda qarşı tərəf müamiləni poza bilər və buna görmədən əmələ gələn fəsx etmə haqqı deyilir.

9. Alıcı aldığı malın pulunu onun gec verməsini şərt etməyə və üç günə qədər satıcıya verməzsə, bu halda satıcı müamiləni poza bilər. Buna gecikdirildiyinə görə fəsx etmə haqqı deyilir.

10. Bir heyvanı satın almış olan alıcı, üç günə qədər müamiləni poza bilər. Buna heyvan alış-satışı fəsx etmə haqqı deyilir.

11. Satıcı satdığı malı alıcıya verə bilməzsə, məsələn; satmış olduğu at qaçarsa, bu halda alıcı müamiləni poza bilər və buna təhvil-təslimin mümkün olmadığı üçün fəsx etmə haqqı deyilir.

Bir neçə yerdə alıcı malda üzə çıxan qüsur səbəbi ilə müamiləni poza bilməz:

1. Malı alarkən qüsurlu oluğunu bilmişsə.

2. Alıcı malın qüsrunu qəbul edərsə.

3. Alıcı müamilə edərkən əgər malın bir qüsuru olsa, geri qaytarmayacağam və qiymət fərqini də almayacağam demişsə.

4. Müamilə vaxtı satıcı bu malı bütün qüsurları ilə bərabər satıram demişsə, bu halda da alıcı müamiləni poza bilməz.

Bir neçə yerdə alıcı müamiləni poza bilməz, amma qiymətin fərqini ala bilər:

1. Müamilədən sonra malda təsərruf (istifadə) edərsə.

2. Müamilədən sonra malın eybli olmasını başa düşərsə, lakin müamilə vaxtı malın qaytarmayacağını bildirərsə.

3. Malı satıcıdan aldıqdan sonra onda başqa bir eyb tapıla.

**Məsələ:** Bir şəxs başqa birinə bir mal verib onun qiymətini müəyyən edərək bu malı bu qiymətdən sat, nə qədər baha sata bilsən artığı sənin satma haqqın olacaq desə, bu halda nə qədər dahaya satarsa, mal sahibinindir və satıcı yalnız zəhmətinin haqqını sahibindən ala bilər.

**Məsələ:** Müamilədə doğru bir şey üçün and içmək, məkruhdur. Yalan yerə and içirsə, haramdır.

# VƏSİYYƏTİN HÖKMLƏRİ

Vəsiyyət, insanın ölümündən sonra özü üçün bə`zi işlərin yerinə yetirilməsini sifariş etməsinə və ya ölümdən sonra malından bir şeyin başqasının malı olmasını ya da onun malından bir şeyi başqa bir şəxsin mülkiyyətinə keçirmələrini və ya xeyir işlərdə xərcləmələrini söyləməsinə və yaxud öz övladı və müəyyən bir şəxsi qəyyum tə`yin etməsinə deyilir. Vəsiyyət edilən şəxsə isə vəsi deyilir.

## Vəsiyyət edən şəxsin şərtləri

1. Ağıllı olsun.

2. Həddi – bluğa çatmış olsun.

3. Öz ixtiyarı ilə vəsiyyət etməlidir, onu başqa biri məcbur etməsin.

4. Səfeh olmamalıdır. Yə`ni malını faydasız yerlərdə xərc etməsin və normal halda malından istifadə etsin.

5. Vəsiyyətini dili ilə desin, əgər deyə bilmirsə işarə etməklə öz məqsədini çatdırsın. Yaxud vəsiyyətini yazıb sonra onu imzalayıb və möhürləsin. Deməli, önun məqsədini düşünüb və vəsiyyət etməkdən ötrü yazması məlum olarsa, gərək o vəsiyyətə uyğun əməl olunsun.

**Məsələ:** Əgər yazılmış bir şeyi meyyitin imzası ya möhürü ilə görsələr, belə ki, vərəsələr əgər bilsələr ki, məqsədi vəsiyyət etmək olmayıb lakin sonradan ona uyğun vəsiyyət etsin deyə, həmin yazını yazıb, bunun özü də vəsiyyət üçün kifayətdir.

**Məsələ:** Əgər insan, onu bir şəxs vəsi etdiyini bilib, onun vəsiyyətini yerinə yetirməyə hazır olmadığını vəsiyyət edənə bildirərsə, onun ölümündən sonra həmin vəsiyyətə əməl etməyə. Amma əgər ölməzdən qabaq onu vəsi etdiyini bilməsə və ya bilib ona xəbər verməsə ki, onun vəsiyyətinə əməl etməyə hazır deyildir, ona əziyyət olmadığı halda, gərək onun vəsiyyətinə əməl etsin.

**Məsələ:** Vəsi gərək müsəlman, həddi-bluğa çatmış və etibarlı adam olsun.

**Məsələ:** Ölənin öhdəsində vacib həcc, borclar və ödənməsi vacib olan xums, zəkat, kəffarələr və məzalim kimi hüquqlar mövcud olarsa, gərək meyyit onlar üçün vəsiyyət etməmiş olsa da, onun malının əslindən versinlər.

**Məsələ:** Meyyitin xeyir işlərə vəsiyət etdiyi xərc əgər malın 3/1-dən artıq olarsa, onun malının 3/1-dən artıq olan miqdardakı vəsiyyəti, yalnız varislərin bu vəsiyyəti təsdiq etdiklərini mə`lum edən bir söz söylədikləri və ya bir iş etdikləri təqdirdə səhihdir.Təkcə onların razı olması kifayət deyildir.

**Məsələ:** Əgər meyyitin müəyyən etdiyi xərc onun malının 3/1-dən çox olsa və o ölməmişdən qabaq vərəsələr icazə versələr, o öləndən sonra öz icazələrindən dönə bilməzlər.

**Məsələ:** Bilə - bilə özünü yaralayıb və ya zəhərləyib və bunun vasitəsilə ozünün ölməyinə yəqin ya güman taparsa, əgər malının bir miqdarını bir yerə istifadə üçün çatdırmalarını və ya bir şəxsə verməsini vəsiyyət etsə, bu halda baxmayaraq ki, onun malının 3/1-dən azdır lakin vəsiyyəti səhih deyildir.

**Məsələ:** İnsan, ölüm nişanələrini özündə görən vaxt, dərhal çamaatın əmanətlərini sahiblərinə çatdırmalə ya da onlara xəbər verməlidir. Əgər xüms, zəkat və məzalimə borcludursa, dərhal onları versin və əgər verə bilimirsə, belə ki, özünün malı varsa ya ehtimal versə ki, bir kəs onları əda edəcək, gərək vəsiyyət etsin. Həmçinin əgər namaz və qəza orucu varsa, gərək onun malından bu işlərin görülməsi üçün əcir tutmalarını vəsiyyət etsin. Həmçinin iki ədalətli şəxsi vəsiyyəti üçün şahid tutmalıdır.

**Məsələ:** Bir şəxs ölümünə səbəb olan bir xəstəlik halında, malının bir qismini bir şəxsə bağışlasa və ölümdən sonra da bir miqdarının başqasına verilməsini vəsiyyət edərsə, gərək əvvəl bağışladığı malı, əsl maldan çıxsın və vəsiyyət etdiyi malı isə gərək malın 3/1-dən çıxarsın.

**Məsələ:** Ölüm nişanələrini özündə görən şəxsin əgər qəyyuma ehtiyacı olan kiçik uşaqları vardırsa, həmçinin onun malları qəyyumsuz tələf olub aradan gedəcəksə, gərək onlar üçün qəyyum müəyyən etsin. Əgər vərəsənin xəbəri olmayan bir şəxsdən istəyi vardırsa və aradan getməsi mümkündürsə, gərək onlara desin.

**Məsələ:** Bir şəxs əgər meyyitin əvəzində həccə getməsinə əcir olubdursa, meyyit üçün miqat həcci etməsi kifayətdir. Amma əgər meyyit bir şəhərin həccinə getməyə vəsiyyət etmişdirsə, bu halda miqatdan artıq istifadə olunan xərcləri gərək meyyitin malının 3/1-dən hesab etsinlər.

# BISMİLLAHİR-RƏHMANİR-RƏHİM

## Həzrət Ayətullah seyyid Yüsif Mədəni Təbrizidən sual olunan müxtəlif şəri məsələlər

**Sual:** Ayat namazında müəyyən bir surəni beş yerə bölünməsi ilə bismillahı bir ayə qəsdilə oxumaq caizdirmi?

**Cavab:** Eybi yoxdur.

**Sual:** Bir şəxs şam namazın qılmamışdan qabaq yuxuya gedib və namazı qəza olubdur, o şəxsin vəzifəsi nədir?

**Cavab:** Əgər namazın qəza olmasına yuxu səbəb olubdursa, namazı qəza etməlidir, Həmçinin ehtiyat vacibə əsasən o, günü oruc tutsun.

**Sual:** Muxtar olan şəxs üçün şam və ikinti namazının vaxtı gecənin hansı vaxtına kimidir?

**Cavab:** Şam və ikinti namazının vaxtı şəri gün batandan, gecənin yarısına qədərdir ki, təxirə salmaq caiz deyil.Əgər bir şəxs günah üzündən və ya üzürlü olduğundan bu vaxta kimi namazını qılmazsa, ehtiyat vacibə əsasən gərək sübh namazından əvvəl əda və qəza niyyəti etmədən namazını qılsın.

**Sual:** Sizin nəzərinizə mağazaların sər qoflisi (o mağazaya deyilir ki, mağazanın tutduğu əhatə onundur) meyyitin qoyduğu maldan hesab olur ya yox və ölənin xanımı ondan irs apara bilərmi?

**Cavab:** Bəli meyyitin malından hesab olur və ölənin xanımı ondan irs aparır.

**Sual:** Bir şəxs cəbireyi qüsl və dəstəmazla namaz qılarsa, o şəxs sağaldıqdan sonra dəstəmaz və qüslunu təzələyib qıldığı namazları qəza etməlidirmi?

**Cavab:** Əgər namazın vaxtı keçdikdən sonra sağalarsa, dəstəmaz və qüslu təzələmək lazım deyildir.

**Sual:** Müsəlman meyyiti qüsl etməzdən əvvəl məscidə qoyularsa, hökmü nədir?

**Cavab:** Hörmətsizlik olmazsa eybi yoxdur.

**Sual:** Bir şəxs İnfarkt olub və ölümü yəqin deyil, onun qüsl verilməsinin hökümü nədir?

**Cavab:** Ölümü məlum olduqdan sonra, qüsl vermək kifayətdir.

**Sual:** Vəsiyyət edən əgər vərəsənin payını ölümündən əvvəl müəyyən edərsə, şəri baxımdan təsiri varmı?

**Cavab:** Təsirsizdir. Amma əgər varis vəsiyyət edən şəxs öləndən sonra ona razı olarsa, eybi yoxdur.

**Sual:** Meyyitə geydirilən köynəyin miqdarı az olduğundan sağ və sol tərəfini örtür, lakin tikilməyə azdır, bunun hökmü nədir?

**Cavab:** Əgər parça meyyitin iki tərəfini örtürsə və bədən görsənmirsə kifayətdir.

**Sual:** Bankda özlərinə hesab açan şəxslərə bank tərəfindən verilən hədiyyənin hökmü nədir?

**Cavab:** Camaatın banka qoyduğu pul əgər faiz qəsdilə olmazsa, bankın onlara rəğbətləndirmək adı ilə verdiyi hədiyyə halaldır.

**Sual:** Banka pul qoyub ondan faiz götürməyin hökmü nədir?

**Cavab:** Faiz götürmək qəsdilə banka qoyulan qısa və uzun müddətli pullardan götürülən faizlər riba (sələm) və haramdır. Lakin müzarəbə və pulu satmaqla riba müşkülünü həll edərsə, bu istisnadır.

**Sual:** Heyvanın toxumunu başqa heyvana və insanın spermasını digər insana vurmaqın hököm nədir?

**Cavab:** Heyvanın toxumunu digər heyvana vurmaqın eybi yoxdur, amma özgə bir şəxsin başqa əcnəbiyə spermasını vurmaq caiz deyildir.

**Sual:** Bir şəxsin əzalarından bir miqdarını götürüb başqa bir şəxsə calaq edilmənin hökmü nədir?

**Cavab:** Bir şəxsin özünün əzasını, özünə birləşdirməyin eybi yoxdur, amma başqa bir şəxsin əzasını digər şəxsə calaq

etməkdə əgər ziyanı olmayıb və əzanın sahibi icazə verərəsə eybi yoxdur. Birləşdirdikdən sonra da pak olur.

**Sual:** Bir heyvanın başı dəmir düşməklə ayrıla və ya səhvən heyvanın kəsildiyi yerdən yuxarı kəsib və başını ayırarsa, amma heyvan hərəkət edir və bədənində canı olan haldadır, bu vaxt fasiləsiz digər şərtlərə riayət etməklə onun digər dord damarını kəssələr o heyvan halal olurmu?

**Cavab:** Heyvanın halal olması, qeyd olunan hər iki halda işkallı və problemlidir. Deməli ehtiyat vacibə əsasən qorunması lazımdır.

**Sual:** Ramazan ayının gecəsində, vaxtın genişliyində ər-arvadın şəri üzürləri olduğundam qüsl edə bilmirlər, bu halda onlar yaxınlıq edə bilər ya yox?

**Cavab:** Əgər bir şəxs şəri üzrü olduğuna görə sudan istifadə edə bilmirsə, yaxınlıq etməklərinin eybi yoxdur.

**Sual:** Ramazan ayından əlavə istimna etməkdən ötrü xanımı ilə, təqbil (arxa), təfxiz (qabaq) və toxunmasının hökmü nədir?

**Cavab:** Sualda zikr olunan vasitələrlə istimnanın eybi yoxdur.

**Sual:** Hər həftə bir neçə gün vətənindən ticarət, müəllimlik, mərsiyə oxumaq, ustalıq, bağına baş vurmaq və bunun kimi işlərdən üçün şəri məsafə miqdarında səfərə gedirlər, onlar işlədikləri yerdə qalmaq qəsdi etmədən vətənlərində on gün qalarsa namaz və oruclarının hökmü nədir?

**Cavab:** Sualda qeyd olunan halda olan səfər, əgər çox müddətli olarsa gərək namazı tamam qılsın və orucunu da tutmalıdır.

**Sual:** Səcdənin yerinin miqdarı nə qədər olmalıdır?

**Cavab:** Əgər dirhəm (sikkə) miqdarında olarsa kifayətdir.

**Sual:** Əhək və mel (təbaşir) daşına, simendə və mozaikaya (bir növ daşdır) səcdə etmək düzdürmü?

**Cavab:** Onlara cəcdə etmək caiz və eybi yoxdur.

**Sual:** Südünü sağıb yunundan istifadə etmək üçün bir şəxs qoyun və heyvan saxlayır bunlara xums düşürmü?

**Cavab:** Yaşayışdan hesab olduğuna görə xumsu yoxdur.

**Sual:** Əgər bir şəxs digər bir şəxsdən aldığı tələbi üçüncü bir şəxsə müəyyən bir müddətə məsələn; iki aylıqa satarsa, müəyyən müddət tamam olduqdan sonra əgər borcu verilməsə, satan şəxs zamindirmi?

**Cavab:** Bu sualda əgər müamilə vaxtında zamin olması şərt edilməyibsə, satıcı zamin deyildir.

**Sual:** Eyş və işrət vəsilələrindən hər hansı bir şəkildə olursa – olsun, əzadarlıq məclisində istifadə etməyin hökümü nədir.

Cava: Haramdır.

**Sual:** Əgər bihuş olan xəstə bir şəxsi müalicə olmaq qəsdilə məsələn tehran kimi şəri miqdarı keçmiş bir yerə aparalar və tehranda başa düşə. Bu şəxs namazını tamam və ya qəsr qılmasında müsafir hökmündədirmi?

**Cavab:** Müsafirətin şərtlərindən biri məsafəni qəsd etməkdir. Xəstə olan şəxs müsafirət qəsdi etmədiyinə əsasən, müsafir hökmündə deyildir və tehranda olan müddətdə isə namazını tamam qılmalıdır.

**Sual:** Müsəlman olan bir meyyitin bədənini yarmaqın hökmü nədir?

**Cavab:** Müsəlman bədənini yarmaq caiz deyildir.

**Sual:** Mərsiyə və nəsihətlər barəsində yazılan kitablarda, şübhəsiz zikr olunan dastanlar və tarixi məsələlərin bəzisi həqiqətə uyğun yazılmayıbdır. Belə kitabların alış-satışının hökümü nədir?

**Cavab:** Əgər zərər verici və camaatı aldadan kitablardan olmazsa eybi yoxdur, əks təqdirdə isə caiz deyildir.

**Sual:** Müsafirxanalarda qalan şəxslərə müddəti müəyyən olmayan halda hər bir otaqın qiymətini on min tümənə deyirlər. Bu otaqlardan istifadə etməyin məsələsi necədir.

**Cavab:** İcarədə müddət və ücrət hər ikisi müəyyən olmalıdır. Deməli icarə ünvanı ilə səhih deyildir və lakin cüalə ünvanı ilə səhihdir.

**Sual:** Meyit və qüsl verənin arasında eynilik və oxşarlıq, həmçinin verilən üç qüslun arasında tərtib həqiqi bir şərtdir. Əgər məsələnin hökmünə cahil olarsa və ya yaddan çıxarmaqla bu şərt yerinə yetirilməsə, onu yerinə yetirmək üçün qəbri açmaq olarmı?

**Cavab:** Meyyit qüslunda tərtib və eynilik həqiqi bir şərtdir. Əgər cənazənin hörmətsizliyinə səbəb olmaya və bədəndə dəyişiklik ehtimalı olmazsa, qəbrin açılması lazımdır.

**Sual:** Boynuna həccə getmək vacib olan bir şəxs sağalmasına ümüdü olmayan şəkildə dəliliyə tutularsa və yaxud həmişəlik zindana düşərsə, onun əvəzində başqa bir şəxsi həccə getməyə tutmalıdırmı?

Cava: Hər iki halda həccə getməyə köməkçi tutmalıdır.

**Sual:** Bu günkü zamanda, qoyun, mal və bunun kimi əti halal olan heyvanları çəkisilə satırlar, sizin nəzərinizə belə müamilə səhihdirmi?

**Cavab:** Eybi yoxdur.

**Sual:** Ayın görünməsində sizin nəzərinizdə üfüqlərin qarşılıqlı olması lazımdırmı?

**Cavab:** Üfüqlərin qarşılıqlı olması şərtdir. Yə`ni bir-birinə yaxın olan şəhərlərin birində əgər ay görünərsə, ona yaxın olan şəhərlərdə də iftar edilməsi caizdir. Amma fasiləsi çox olan şəhərlərin birində əgər ay görünə və başqasında görünməsə əgər üfüqləri bir olmazsa, iftar edilməsi caiz deyildir. Deməli əgər gün batan tərəfdə şəhərlərin birnidə ay görsənərsə, gün batan tərəfdə yaşayan camaat da iftarlarını aça bilərlər. Əks təqdirdə isə olmaz.

**Sual:** Müamilədə satıcı əgər malın alış qiymətini yalan deyərsə, müamilə batildir. Müamilənin səhih olmasında müxtəlif yalanların danışmasında fərqi varmı, bu haqda nəzərinizi buyurun?

**Cavab:** Malın özündə yalan danışmaq müamiləni batil etməz. Amma alıcı müamiləni poza bilər.

**Sual:** Ticarət və mağazaların yerinin hökmünü bəyan edin ki, mayadan hesab olub və onlara xüms düşürmü?

**Cavab:** Əgər mağazanın fəzası ilin mənfəətindən alınıbsa xumsu vardır. Həmçinin mağazanın fəzası satılmayınca bazarın qiymətinin qalxmasının xumsu yoxdur.

**Sual:** Müqəssir və qasir bir şəxs mübarək ramazan ayında qəsdən iftar edərsə, sizin nəzərinizə kəffarəsi varmı?

**Cavab:** Qasir üçün kəffarə yoxdur. Amma ehtiyat vacibə əsasən müqəssir olan cahil şəxs kəffarə verməlidir.

**Sual:** Sahə cəhətdən kürrün miqdarı sizin nəzərinizcə nəqədərdir?

**Cavab:** Kürr suyu sahə cəhətdən ehtiyat vacibə əsasən eni, uzunluğu və dərinliyi üç qarış və yarım miqdarın da olan qaba tökülən suyun miqdarı qədərdir.

**Sual:** Bina tikməkdən ötrü bir şəxs bir miqdar yer və yaxud yaşayışı üçün xalça toxumaq ötrü bir miqdar yun ala, amma həmin ildə onlardan istifadə edə bilməyib bir il üzərindən keçərsə, onlara xums düşürmü?

**Cavab:** İmkanı olmayan təqdirdə və qarşıya çıxan maneələrə əsasən əgər həmin ildə istifadə edə bilməyibdirsə, ona xums düşmür.

**Sual:** Pak və murdarlanmış olması baxımdan şübhəli olan libasla, həmçinin düyməsi sədəf olan libasla namaz qılmaqın hököm nədir?

**Cavab:** Hər iki halda eybi yoxdur.

**Sual:** Ticarət və istehsal obyektlərinə baş vurmaqdan ötrü həmişə hər həftə mal almaq və satmaqdan ötrü, şəri məsafənin miqdarını keçərək müsafirət edirlər, onların namaz və oruclarının hökmü nədir?

**Cavab:** Bu sualda, onların namaz və orucları tamamdır.

**Sual:** Ramazan ayında cunub olan şəxs, ona vacib olan qüslun verdiyinə yəqinliyi var, amma bir müddətdən sonra qüsl verməməsini başa düşür və bu halda bir neçə gündə oruc tutmuşdur. Bunların tutduğu orucların hökmü necədir?

**Cavab:** Bu sualda orucu səhihdir.

**Sual:** Mübarək ramazan ayında bir şəxs cənabət qüslu verir, lakin bir neçə gün oruc tutduqdan sonra yəqin edir ki, verdiyi qusullar batildir. Bu şəxsin tutduğu orucun hökmü necədir.

**Cavab:** Bu sualda həmin şəxsin orucları səhihdir.

**Sual:** Başqalarına zəhmət və onların yuxusuzluğuna səbəb olan uca səslə verilən azan və oxunan quran və duaların hökmü necədir?

**Cavab:** Zikr olunanlar əgər qanuni və rəsmi vaxtda olarsa, eybi yoxdur.

**Sual:** Bir şəxs başqasına borcludur, lakin bunu borclu olduğu şəxsə müəyyən səbəblərə görə bildirmək istəmir, bu vaxt bu şəxs borcunu hədiyyə adı ilə borclu olduğu adama verərsə, borcunu qaytarmış hesab olur ya yox?

**Cavab:** Bunu etsə kifayətdir və borcunu qaytarmış olur.

**Sual:** Bir şəxs namaz vaxtında yuxudadır, ondan əvvəldən icazə almadan, yuxudan oyatmağın hökmü nədir?

**Cavab:** Bu halda oyadılması lazım deyildir. Amma icazə vermişdirsə eybi yoxdur.

**Sual:** Hazırkı dövrdə alan və satan şəxslər, alınan və satılan malın qiyməti üzərində razılaşdıqdan sonra, razılaşma sənədi tənzimləyərək, onu imza edirlər, hər iki tərəfin həmin sənədi imzalaması, alqı-satqının şər`i baxımdan baş tutmasına kifayət edərmi?

**Cavab:** Bəli kifayətdir. Sualda qeyd olunduğu məsələdə, təkcə sənədin hazırlanması kifayət etmir, onlar sənədi hazırlamaqdan öncə, alqı-satqıya tam razılıq versələr, bu kifayətdir.

**Sual:** Mübarək ramazan ayında xəstəliyinə görə oruc tuta bilməyən şəxs, yəqinliyi vardır ki, gələn ilin orucluğuna kimi xəstəliyinə görə orucunu qəza edə bilməyəcək. Bu adam gecikdirdiyi kəffarəni gələn ilin orucluğu çatmamışdan əvvəl verə bilərmi?

**Cavab:** Ehtimalən caiz deyildir. Gələn ilin orucluğu daxil olduqdan sonra gərək kəffarəni versin.

**Sual:** Xeyirxah müəssisələrə, qan alan banklara və ölümlə üzləşən xəstələrə qanı satıb yaxud hədiyyə verməyin hökmü nədir?

**Cavab:** Qan hədiyyə edən şəxs, qan verməklə zərər görməzsə, eybi yoxdur.

**Sual:** Məlum bir şəxs öz malından 3/1-i müəyyən yerlərə verilməsini vəsiyyət edir, istifadə etdikdən sonra malın 3/1-birindən bir miqdar qalarsa bu vaxt qəyyumların 3/1-dən qalan mala nisbət vəzifələri nədir?

**Cavab:** Qəyyumlar malın 3/1- dən artıq qalanlarını xeyrat verməlidir.

**Sual:** Camaat namazı qılınan bir məkanda bir şəxs tək namaz qılarsa, onun qıldığı namaz düzgündürmü?

**Cavab:** Tək namaz qılmaq əgər camaat namazı qılan şəxsi təhqir etmək deyilsə, eybi yoxdur.

**Sual:** Sizin nəzərinizdə kəsilən heyvanın halal olmasında, məlum qanın axması və heyvanın hərəkətini kifayət bilirsinizmi?

**Cavab:** Bizim nəzərimizdə, kəsilən heyvanın hərəkət etməsi fətva və məlum qanın axması isə vacib ehtiyata görə lazımdır.

**Sual:** Heyvanatlarda məlum qanın axması və kəsilən heyvanın hərəkəti bütün heyvanlara aiddir yoxsa diri olması şübhəli olan heyvana?

**Cavab:** Məlum qanın axması və heyvanın hərəkət etməsi bütün kəsilən heyvanlara aiddir.

**Sual:** Bir şəxs başqaların kəffarəsini öz üzərindən olan şəxslərə verə bilərmi?

**Cavab:** Özü fəqir olarsa eybi yoxdur.

**Sual:** Spirtin istifadə etməsinin hökmü nədir?

**Cavab:** Qapı, pəncərə, stol və stul və həmçinin bunlara bənzər şeyləri boyamaq üçün işlədilən spirt əgər insan onun məss edici və rəvan şeydən düzəlməsini bilmirsə, pakdır.

**Sual:** Banklar televizior, radiyo və çağırış vərəqələrində hər kimin banka pul qoya və yaxud borc alarsa, onlara bir miqdar faiz olaraq pul veriləcək xəbərini verirlər. Belə müamilə cüaləyə aiddir ya yox?

**Cavab:** Zikr olunan məsələ əgər müzaribə yolu ilə riba problemi həll olunmazsa, haram və riba sinfinə daxil olur.

**Sual:** Mozaikaya səcdə etmək caizdirmi?

**Cavab:** Eybi yoxdur.

**Sual:** Asfalt və simendlənmiş yer ayaqqabı və ayağı pak edirmi?

**Cavab:** Simend pak edicidir, asfaltın isə qırı aradan gedərsə, oda pak edici olur.

**Sual:** Bu günkü zamanda camaat həccə getməkdən ötrü imkanatları olan ildə adlarını yazdırırlar və dövlət də bir müddətdən sonra həmin şəxsləri növbə ilə həccə aparır. Əgər həmin şəxslər növbələri çatmamışdan qabaq ölə yaxud fəqir olarsa, onların vərəsələrinin bu haqda hökmü nədir?

**Cavab:** Bu fərzdə onlar qüdrətli və imkanlı sayılmır və vərəsələrinin də həcc üçün köməkçi tutmaları lazım deyildir.

**Sual:** Əgər qadın əri ilə kəbin əqdi oxunda iki ildən sonra ərinin onu boşamasını şərt edə və əri də razı olarsa, müddət çatdıqdan sonra ərinin o şərtə əməl etməsi lazımdırmı?

**Cavab:** Əgər qadın kəbin əqdi oxunan əsnada qeyd olunan şərti etmişdirsə, şərtə əməl etmək lazımdır.

**Sual:** Dövlət idarələrinin və digər hüquqi şəxsiyyətlərin alqı -satqılarının hökmü necədir?

**Cavab:** Mənim nəzərimə görə hüquqi şəxsiyyətlər də müəyyən bir malın sahibi ola bilər və alqı-satqı edə bilərlər. Lakin dövlət alqı satqını, hakim-şər`in icazəsi ilə etməlidir.

**Sual:** Qadınlar dırnaqlarına lak vururlar, bu halda dəstəmaz və qüslun hökmü nədir?

**Cavab:** Əgər lak dəstəmaz və qüsl suyunun dırnağın üzərinə dəyməsinə maneə törədərsə, dəstəmaz və qüsl batildir. Onunla təyəmmum etmək də düzgün deyildir.

**Sual:** Bidiyiniz kimi aftobusların sərnişinlərini suğurta edilir və əgər aftovbusun müsafirləri hadisə nəticəsində dünyasını dəyişərsə, suğurta idarəsi ölənin vərəsəsinə bir miqdar pul verir. Vərəsələrin bu pulu almasının hökmü nədir?

**Cavab:** Eybi yoxdur.

**Sual:** Sizin nəzərinizdə zinət üçün qoyulan qızıl diş haram və namazda onunla batildir. Sualımız budur ki, mə`də ağrısını müalicəsi yalnız qızıl dişin qoyulmasına bağlı olarsa necə, bunun hökmü nədir?

**Cavab:** Əgər mədənin sağalması yalnız qızıl dişin qoyulması ilə olarsa eybi yoxdur.

**Sual:** Şəmsi tarixini şəri vücuhatları (xums və zəkat kimi işləri) vermək üçün bir növ əsas qoymaq olarmı?

**Cavab:** Bəli eybi yoxdur.

# Mündəricat


**ÖN SÖZ** ........ **3**

**TƏQLİDİN HÖKMLƏRİ** ........ **7**

**MÜTƏHHİRAT** ........ **9**

Pakedicilər ........ 9

*1. Su* ........ *9*

*2. Yer* ........ *9*

*3. Günəş* ........ *9*

*4. İstihalə* ........ *10*

*5. İnqilab* ........ *10*

*9. Murdarın özünün aradan getməsi* ........ *11*

*10. Nəcasət yeyən heyvanın istibrası* ........ *11*

*11. Müsəlmanın bir müddət müəyyən bir məkanda olmaması* ........ *11*

*12. Normal miqdarda qan axması* ........ *12*

Murdar şeylər ........ 12

*Bövl və ğait* ........ *12*

*Məni* ........ *13*

*Murdar* ........ *13*

*Qan* ........ *13*

*İt və donuz* ........ *13*

*Kafir* ........ *14*

*Şərab* ........ *14*

*Pivə* ........ *14*

Murdarlığı sübut etməyin yolları ........ 14

**DƏSTƏMAZ** ........ **15**

Dəstəmaz vacib olan əməllər ........ 15

Dəstəmazı batil edən şeylər ........ 15

Dəstəmazın alınma qaydası ........ 16

Dəstəmazın şərtləri ........ 17

Cənabətin hökmləri ........ 18

Cünub şəxsə haram olan şeylər ........ 19

Cənabət qüslunun alınma qaydası ........ 20

*Tərtibi qüsl* ........ *20*

*İrtimasi qüsl* ........ *20*

Qüsldə lazım olan şərtlər ........ 21

İstihazənin hökmləri ........ 21

Heyz ........ 22

Haizin hökmləri ........ 22

Nifasın hökmləri ........ 24
**MEYYİT HAQQINDA ........ 25**
Məssi-meyyit qüslü ........ 25
Meyyit qüslnün qaydası ........ 25
Meyyitin kəfən və dəfninin hökmləri ........ 26
*Fitə ........ 26*
*Köynək ........ 26*
*Sərtasər ........ 26*
Meyyitin hənut olunması ........ 26
*Cəridətəyn ........ 27*
Meyyit namazının hökmləri ........ 27
Meyyit namazının göstərişi ........ 27
Dəfnin hökmləri ........ 28
Vəhşət namazı ........ 29
Məzarı açmaq ........ 29
**TƏYƏMMÜMÜN HÖKMLƏRİ ........ 30**
Təyəmmümü səhih olan şeylər ........ 31
Təyəmmümün göstərişi ........ 31
**NAMAZIN HÖKMLƏRİ ........ 32**
Vacib namazlar ........ 33
Namazın vaxtı ........ 33
*Şam və xiftən namazlarının vaxtı ........ 33*
*Sübh namazının vaxtı ........ 34*
Qiblənin hökmləri ........ 34
Namazda bədəni örtmək ........ 35
Namaz qılanın paltarının şərtləri ........ 35
Namaz qılanın bədən və paltarının pak olmasının lazım olmadığı hallar 38
Namaz qılanın yeri ........ 38
Məscid hökmləri ........ 40
Azan və iqamə ........ 41
Namazın vacibatı ........ 42
Niyyət ........ 42
Təkbirətul-ehram ........ 43
Qiyam ........ 43
Qiraət ........ 44
Həmd surəsi ........ 44

Tövhid surəsi ... 45
Rüku ... 45
Səcdələr ... 46
Üzərinə səcdə caiz olan şeylər ... 47
Təşəhhüd ... 47
Namazın salamı ... 48
Tərtib ... 49
Muvalat ... 49
Qünut ... 49
Namazın tə`qibatı ... 50
Namazı batil edən şeylər ... 50
*1. "Hədəs"* ... *50*
*2. "Təkfir"* ... *50*
*3. "Qiblədən üz döndərmək"* ... *50*
*4. "Danışmaq"* ... *51*
*5. "Həmddən sonra "Amin" demək"* ... *51*
*6. "Gülmək"* ... *51*
*7. "Ağlamaq"* ... *51*
*8. "Namazın formasını pozmaq"* ... *51*
*9. "Yemək və içmək"* ... *51*
*10. "Rəkətlərdə şəkk"* ... *52*
*11. "Namazın rüknünü azaltmaq və artırmaq"* ... *52*
*12. "Namazın şərtlərinin pozulması"* ... *52*
**ŞƏKKİYAT ... 52**
Namazı batil edən şəklər ... 52
E`tina olunmayan şəklər ... 53
Səhih olan şəklər ... 53
Ehtiyat namazının göstərişi ... 55
Səhv səcdəsi ... 55
Səhv səcdəsinin qaydası ... 56
Müsafir namazı ... 57
Müxtəlif məsələlər ... 59
Qəza namazı ... 60
Ata və ananın qəza namazları ... 61
Ayət namazı ... 61
Ayət namazının üsulları ... 62
**ORUCUN HÖKMLƏRİ ... 63**
Orucun niyyətinin vaxtı ... 64

Orucu batil edən şeylər .......... 64
*Yemək və içmək* .......... *65*
*Cima* .......... *65*
*İstimna* .......... *65*
*Allaha və Peyğəmbərə (s) yalan isnad vermək* .......... *66*
*Tozu boğaza çatdırmaq* .......... *66*
*Başı suya salmaq* .......... *66*
*Sübh azanına qədər cənabət, heyz və nifas halında qalmaq* .......... *67*
*İmalə etmək (klizma)* .......... *68*
*Qusmaq* .......... *68*
Oruc vacib olamayan şəxslər .......... 68
Orucun kəffarəsi .......... 69
Orucun qəzası vacib olan yerlər .......... 71
Qəza orucunun hökmləri .......... 72
Ayın əvvəlinin sabit olma yolu .......... 73
**XUMSUN HÖKMLƏRİ .......... 73**
Qazanc .......... 74
Mə`dən .......... 74
Xəzinə .......... 75
Harama qarışmış halal mal .......... 75
Dənizdən əldə olunan cavahirat .......... 76
Qənimət .......... 77
Zimmi kafirin müsəlmandan aldığı ərazi .......... 77
Xumsun xərclənməsi .......... 78
Seyidliyin bir neçə yolla sabit olması .......... 78
Xumsun səhih olmasının şərtləri .......... 79
**ZƏKATIN HÖKMLƏRİ .......... 79**
Zəkatın vacib olmasının şərtləri .......... 79
Buğda, arpa, xurma və kişmişin zəkat miqdarı .......... 81
Gümiş və qızılın zəkat və şərtləri .......... 82
Qızılın nisabı .......... 83
Gümüşün nisabı .......... 83
Dəvə, inək və qoyunun zəkat miqdarı və şərtləri .......... 84
Dəvənin nisabı .......... 85
İnəyin nisabı .......... 85
Qoyunun nisabı .......... 86
Zəkatın hökmləri .......... 87

Zəkatın xərclənməsi ........ 87
Fitrənin zəkatı ........ 88
Fitrə zəkatının xərclənməsi ........ 89
**ALQI-SATQININ HÖKMLƏRİ ........ 90**
Haram müamilələr ........ 90
Satıcı və alıcının şərtləri ........ 91
Satılan malın şərtləri ........ 92
Vəqf olunan şeyin alqı-satqısı ........ 92
Nəqd və nisyə müamilə ........ 93
İnsanın müamiləni poza biləcəyi yerlər ........ 93
**VƏSİYYƏTİN HÖKMLƏRİ ........ 95**
Vəsiyyət edən şəxsin şərtləri ........ 95
Ayətullah Mədəni Təbrizidən sual olunan müxtəlif şəri məsələlər ........ 98